www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 mart 2018-ci il Cümə № 49 (6938) Qiyməti 60 qəpik

**Xəbər**

## Rusiyanın qadağa qoyduğu məhsullar Bakı mağazalarında

yazısı səh.10-da

**Gündəm**

### Bu gün Ermənistan yeni prezidentini seçir



Böyük ehtimalla Armen Sərkisyan ikinci tur olmadan qalib gələcək

yazısı səh.11-də

### Əli Kərimli Müsavatı necə aldatdı - gizli mitinq hazırlığı ifşa olundu

yazısı səh.12-də

### "Müxalifət "boykot bloku" yarada bilər

yazısı səh.4-də

### Hökumət Avropa Məhkəməsinin cərimə qərarlarının icrasını dayandırıb

yazısı səh.4-də

### Beynəlxalq Bank yenidən borc bataqlığında

yazısı səh.12-də

### Bayılda "şirinliklə" ev tikənlərin acı günləri başlayıb

yazısı səh.7-də

### Azad Rəhimova yeni müavin göndərildi - Kennedi Məktəbinin məzunudur

yazısı səh.5-də

### Nazir Yavər Camalovun dayısı oğlu həbs olundu

yazısı səh.5-də

### Türkiyəyə qarşı məkrli Afrin ittihamı - Qərb təzyiqi artırır

yazısı səh.11-də

### Bakıda silahla həbs edilənlərin sayı artıb - təhlükə

yazısı səh.10-da

### İlhamə Quliyevanın oğulluğunun adı yeni qalmaqalda

yazısı səh.14-də

# BAKI QAPILARINI ABŞ-IN ƏN BÖYÜK TƏŞKİLATININ ÜZÜNƏ QAPAYIR

USAİD-in Azərbaycandan gedəcəyi ilə bağlı iddialar gerçəkləşir; **qurumun Avropa və Avrasiya Bürosu üzrə müavini Brok Birman:** "Bizim fəaliyyət göstərməyimiz üçün ümumiyyətlə, qapılar açıq deyil"; Rusiya isə Azərbaycanda yeni mərkəz açmağa qərar verdi




yazısı səh.8-də

## Qarabağ probleminin dinc həll yolu artıq yoxdur - sensasion iddia

**Rusiyalı politoloq:** "Rusiya ermənilərin tərəfini tutsa, Türkiyə və ABŞ Azərbaycan tərəfdən müharibəyə qoşulacaq"; **Xramçixin:** "Beynəlxalq birlik deyilən anlayış yoxdur, bu, boş sözdür..."

yazısı səh.9-da



### Anar Məmmədovun Bakıya qayıtmamasının ilginc səbəbi

yazısı səh.3-də



### Əli Həsənovun qohumları ilə bağlı yeni iddialar: "Qaçqınkom" sədri təkzib edir

yazısı səh.7-də



*Qubad İbadoğlu:*

### "Bu o demək deyil ki, mübarizə başa çatdı"

yazısı səh.6-da

# Jurnalistlərin binasından oğurluq edənlər tutulub




## Tikinti şirkətləri barəsində cinayət işi başlanıb

**Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikinti sektorunda aparılmış monitorinqlər nəticəsində əmək müqavilələri olmadan işçilərin işə cəlb edilmələri faktları ilə bağlı 19 hüquqi və 3 fiziki şəxs barəsində həmin agentlikdən daxil olmuş 18 material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən APA-ya verilən məlumata görə, aparılmış araşdırmalar nəticəsində 3 hüquqi şəxs barəsində Cinayət Məcəlləsinin 162-1.1 (əmək müqaviləsi hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsi) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri cinayət işləri başlanıb.

"İ.N.V." MMC-nin vəzifəli şəxsləri barəsində istintaq edilən cinayət işinin istintaqı başa çatdırılaraq baxılması üçün aidiyyəti məhkəməyə göndərilib, digər iki hüquqi şəxs barəsində başlanmış cinayət işləri üzrə istintaq yekunlaşmaq üzrədir.

Göstərilənlərlə yanaşı, araşdırmalar zamanı aşkar edilmiş qanun pozuntuları ilə bağlı digər prokuror təsir aktlarının tətbiq edilməsi də təmin edilib. Belə ki, 11 hüquqi şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək qanunvericiliyinin pozulması), 1 hüquqi şəxs barəsində isə həmin Məcəllənin 198.0.1-ci (əməyin mühafizəsi qaydalarının pozulması) maddələri ilə inzibati icraatın başlanması haqqında qərarlar qəbul edilib.

Toplanmış materiallar baxılması üçün aidiyyəti üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə göndərilmiş, 12 halda fiziki şəxslərə və hüquqi şəxslərin rəhbərlərinə rəsmi xəbərdarlıq edilib. Yol verilmiş qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılması məqsədilə Vergilər Nazirliyinə 9, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə isə 11 təqdimat göndərilmişdir. Hazırda 5 hüquqi və 2 fiziki şəxs barəsində araşdırmalar davam etdirilir.

Araşdırmalar zamanı aşkar edilmiş faktlar üzrə əvvəllər əmək müqaviləsi olmadan işə cəlb edilmiş işçilərlə əmək müqavilələrinin bağlanması təmin edilib.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi qeyri-rəsmi məşğulluğun qarşısının alınması, əmək münasibətlərinin rəsmiləşdirilməsinə nəzarətin gücləndirilməsi və vətəndaşların əmək hüquqlarının müdafiəsi istiqamətində aidiyyəti dövlət qurumları ilə əməkdaşlığını bundan sonra da davam etdirəcək.




## Müdafiə Nazirliyinin nümayəndə heyəti Moskvada səfərdədi

**Silahlı Qüvvələrin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanovun rəhbərlik etdiyi nümayəndə heyəti bu gün Moskva şəhərində keçiriləcək "Beynəlxalq ordu oyunları - 2018" yarışlarının planlaşdırma konfransında iştirak edəcək.**

MN-dən APA-ya verilən məlumata görə, tədbir zamanı yarışların şərtləri və qaydaları müzakirə olunacaq, eləcə də müsabiqənin keçirilmə yerlərinə baxış keçiriləcək.

Hərbçilərin beynəlxalq yarışlarında Azərbaycan ordusu nümayəndələrinin "Dəniz kuboku", "Tank biatlonu", "Artilleriya atəşinin ustaları", "Snayper həddi" və "Səhra mətbəxi" müsabiqələrində iştirakı, o cümlədən "Dərinlik" və "Qoşun kəşfiyyatının əlaçıları" müsabiqələrində müşahidəçi qismində təmsil olunmaları planlaşdırılır.

Azərbaycan, Belarus, Qazaxıstan, İran, Çin və Rusiya ərazisində təşkil olunacaq 27 beynəlxalq müsabiqədən ibarət "Beynəlxalq ordu oyunları - 2018" yarışlarının cari ilin iyulun 28-dən avqustun 11-dək keçirilməsi nəzərdə tutulub.

**Jurnalistlərin binasından oğurluq edən şəxslər tutulub. Hüquq-mühafizə orqanlarından APA-ya verilən məlumata görə, Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarış İdarəsi, Yasamal və Səbayel rayon polis idarələri əməkdaşlarının birgə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində paytaxt ərazisindəki evlərdən silsilə oğurluqlar edən dəstə üzvləri tutulub.**



Əməliyyat tədbirləri nəticəsində saxlanılan Bakı şəhər sakinləri Ələkbər Ələkbərov və Fərhad Cəfərovun ətrafında aparılan araşdırmalar nəticəsində onların jurnalist Ağanisə Sultanova da daxil olmaqla, Bakının Yasamal və Səbayel rayonlarında 6 evdən pul, noutbuklar, kompüter dəstləri, məişət və qızıl-zinət əşyaları oğurlamaları, daha bir evdən isə oğurluğa cəhd etmələri müəyyən edilib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb və hər iki şəxs təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

Hazırda həmin şəxslərin başqa cinayətlərdə əlaqələrinin olub-olmadığı araşdırılır.

DİN-in mətbuat xidmətindən APA-ya faktı təsdiqləyiblər.

Qeyd edək ki, yanvarın 30-da Ağanisə Sultanovanın jurnalistlərin binasında yerləşən mənzilinə daxil olan naməlum şəxslər oradan 1000 manat pul və 3900 manat dəyərində qızıl-zinət əşyaları aparıblar.



## Bakıda nə qədər adam yaşayır?

**2017-ci il ərzində Bakı şəhərinin əhalisinin sayı 16 770 nəfər və ya 0,7% artaraq 2018-ci il yanvar ayının 1-i vəziyyətinə 2 262 560 nəfərə çatıb.**

Bakı şəhər Statistika İdarəsindən "APA-Economics"ə verilən məlumata görə, əhalinin 49,7%-ni kişilər, 50,3%-ni qadınlar təşkil edir. Bir kvadrat kilometrə düşən əhalinin sayı 1057 nəfər olub.

2017-ci ildə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən Bakı şəhərində 30373 nəfər, gündə təxminən 83 doğulmuş körpə qeydə alınıb və bu göstərici əhalinin hər 1000 nəfərinə 13,5 təşkil edib. Doğulan körpələrin 346-sı əkiz, 4-ü üçəm olub. Yeni doğulan körpələrin 52,5%-i oğlan, 47,5%-i isə qız uşaqlarından ibarət olub.

2017-ci ildə Bakı şəhərində 12 938 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,7 təşkil edib.



## I sinfə qəbulla bağlı 35 minə yaxın müraciət olunub

**"Bakıda I sinfə qəbulla bağlı elektron sistemdə 35 minə yaxın sorğu yerləşdirilib". APA-nın xəbərinə görə, bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Məhəbbət Vəliyeva deyib.**

Onun sözlərinə görə, hazırda valideynlər ərizələri çap edərək məktəblərə təqdim edirlər: "Əvvəlki illərdən fərqli olaraq, sənəd təqdim etmə mərhələsində uşaqların məktəbə getməyinə ehtiyac yoxdur. Çünki müsahibə mərhələsi iki ildir ləğv olunub".

Prosesin fevralın 22-dən sentyabrın 15-nə kimi davam edəcəyini xatırladan M. Vəliyeva valideynlərin I sinfə qəbulla bağlı şikayətlərinin nədən ibarət olduğunu da açıqlayıb: "Valideynlərin şikayətləri əsasən, ərazidəki məktəbdə yerlərin dolması, istədikləri müəllimin sinfində yerin olmaması ilə bağlıdır. Valideynlər yaşamadıqları ərazidəki məktəbə də uşaqlarını qoymaq istəyirlər. Valideynlərə müraciət edərək bildirirəm ki, övladlarını yaşadıqları ərazidəki məktəblərə yerləşdirsinlər".

BŞTİ-nin müdiri qeyd edib ki, idarənin tabeliyində I sinfə qəbulu həyata keçirən 300 məktəbdən 31-də sıxlıq müşahidə olunur: "Sıxlıq o məktəblərdə müşahidə olunur ki, orada ərizələrin sayı məktəbin yer sayından artıqdır".

Qeyd edək ki, Bakıda fevralın 22-dən I sinfə qəbul başlayıb. Gəncə, Sumqayıt və Abşeronda isə I sinfə elektron qəbul martın 12-dən başlayacaq.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Bayıl sürüşməsi istintaq edilir

**Bayıl yamacında baş verən sürüşmə ilə əlaqədar başlanmış cinayət işini araşdıran istintaq qrupu hadisə yerinə baxış keçirir.**

APA-nın məlumatına görə, martın 1-də Bakı Şəhər Prokurorluğunun əməkdaşlarından ibarət istintaq qrupu mütəxəssislərlə birgə Bayıl yamacında gedib.

Onlar hazırda sürüşmə nəticəsində dağılmış evlərə baxış keçirir. Baxışın nəticəsi olaraq müvafiq qərar qəbul ediləcək.

Qeyd edək ki, Bakı Televiziya Qülləsindən 200-250 m cənub-şərqdə yerləşən Bayıl sürüşmə sahəsi bu ilin yanvar ayından aktivləşib. Fevralın 10-da baş verən son sürüşmə prosesi zamanı 4 ev tam, 1 ev qismən dağılıb. Sürüşmə sahəsində 30 metr uzunluğunda, 12 metr dərinliyində çatlar yaranıb. Bayıl sürüşmə sahəsində vəziyyətlə bağlı Nazirlər Kabinetinin müvafiq sərəncamı imzalanıb. Həmin sərəncama əsasən Bayıl yamacında sürüşmə təhlükəsi ilə bağlı ərazidən köçürülən 98 ailənin 11 ay ərzində müvəqqəti yerləşdiyi mənzillər üçün kirayə haqqının ödənilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin Ehtiyat Fondundan Səbayel rayon İcra Hakimiyyətinə müvafiq vəsait ayrılıb.

Eyni zamanda ərazidə tam dağılmış 4 fərdi yaşayış evinin sahiblərinə kompensasiya ödənilməsi üçün tələb olunan vəsaitin məbləğinin hesablanıb Nazirlər Kabinetinə təqdim olunması Fövqəladə Hallar Nazirliyi və Səbayel rayon İcra Hakimiyyətinə tapşırılıb.

Faktla bağlı Bakı Şəhər Prokurorluğunun İstintaq İdarəsi tərəfindən Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Torağay vulkanı püskürüb

**Martın 1-də səhər saatlarında Bakı şəhəri Qaradağ rayonu ərazisində yerləşən Torağay palçıq vulkanında püskürmə baş verib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova APA-ya bildirib ki, palçıq vulkanının ətrafında heç bir yaşayış məntəqəsi yoxdur.

Hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri tərəfindən püskürmə və onun nəticələri öyrənilir, müvafiq monitorinqlər həyata keçirilir.

Torağay palçıq vulkanı ETSN-in Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğunun ərazisinə daxildir. Bu günədək vulkan 10 dəfə püskürüb. Sonuncu dəfə vulkanın püskürməsi 1988-ci ildə qeydə alınıb.

**Artıq iki ildən çoxdur ki, Bakıda ucaldılan "Trump hotel"də işlər yarımçıq qalıb. Bu binanın tikintisinə külli miqdarda vəsait sərf olunsa da, nəticəsi olmayıb. "Yeni Müsavat"a daxil olan məlumata görə, hətta binanın tikintisi zamanı icarə götürülən tikinti texnikalarının belə haqqı ödənilməyib.**

# Anar Məmmədovun Bakıya qayıtmamasnın ilginc səbəbi

## **Hafiz Hacıyev:** "Bu adamların hamısı ölkəyə gətirilib, məsuliyyətə cəlb olunmalıdır..."



Hələ 2016-cı ildə "The Washington Post" qəzeti inşası yarımçıq qalmış "Trump hotel" barədə dərc etdiyi məqalədə yazmışdı ki, tikinti işlərinin dayanmasına səbəb neftin ucuzlaşması olub. Binanın tikintisinə ayrılan vəsaitlə bağlı isə 2014-cü ildə D.Tramp bəyan etmişdi ki, "Trump İnternational Hotel & Tower Baku" "Trump Organization"un standartlarını daşıyan ən yaxşı qlobal inkişaf layihələrindən biridir. Trampın adını daşıyan binaların çoxu kimi Bakıdakı hotel də ona məxsus deyil. ABŞ prezidentliyinə iddiaçı kimi hələ namizəd olduğu müddətdə açıqladığı maliyyə hesabatında D.Tramp Bakıdakı hotellə bağlı işlərə görə 2,5 milyon dollar aldığını qeyd etmişdi.

Məlumdur ki, bina keçmiş nəqliyyat naziri Anar Məmmədovun nəzarət etdiyi "Garant Holding" tərəfindən tikilib və onun şirkətinə məxsusdur. Hazırda isə şirkət bir yana, heç Anar Məmmədovun özündən də xəbər yoxdur. Ötən həftə KİV-lərdə Anar Məmmədovun ailəsi ilə birlikdə ölkəni tərk edərək İngiltərəyə köçməsi ilə bağlı məlumatlar yayılmışdı. Bildirilirdi ki, Məmmədov ölkəni birdəfəlik tərk edib. Sonradan onun əmisi Elton Məmmədov modern.az saytına açıqlama verərək bildirdi ki, məlumat həqiqəti əks etdirmir.

Anar Məmmədovun özü isə susur. Onunla əlaqə yaratmaq mümkün olmayıb. Məlumat var ki, o, "Garant Holding"dəki vəzifəsindən də imtina edib və hazırda şirkətin idarəçiliyinə onun əmisi uşaqları baxırlar.

**Prezidentliyə namizəd, tez-tez Məmmədovlar ailəsi ilə bağlı mətbuata müxtəlif məlumatlar açıqlayan MMP sədri Hafiz Hacıyev "Yeni Müsavat"a bildirdi ki, Anar Məmmədovun harada olduğundan məlumatlıdır:** "Anar Məmmədov və onun kimi bir neçə nəfərin ailələri artıq Azərbaycanı tərk edib. Konkret olaraq Anar Məmmədov Azərbaycanda olduğu müddətdə xeyli adamı xərcə salıb, indi də qaçıb gedib İngiltərəyə. Bildiyim qədər xaricdə Azərbaycan dövlətinin əleyhinə çıxan, əks-təbliğat aparan qruplara rəhbərlik edir, onlara böyük paralar ötürür. Son zamanlar bu adamların hamısı çox ciddi fəaliyyətə başlayıblar. Düşünürəm ki, bu fəaliyyətin axırı dövlətimiz üçün problemlər yaradacaq. Hüquq-mühafizə orqanları tərəfindən səthi araşdırmalar aparılmamalıdır. Bu adamların hamısı ölkəyə gətirilib, məsuliyyətə cəlb olunmalıdır. Ziya Məmmədovun özünə aid olan faktların əksəriyyəti gizlədilir. Anar Məmmədovun da nələr etdiyi hər kəsə məlumdur. Belə olduğu halda onlar nə üçün cinayət məsuliyyətinə cəlb edilmir? Hakimiyyət daxilində rəngarənglik çoxdur. Ona görə də deyirəm ki, bu insanlar heç zaman dövlətçiliyi düşünməyiblər. Anar Məmmədov hazırda öz istirahətindədir. Oradan-buradan aldığı pullar hesabına Azərbaycanın əleyhinə işlər aparır. Prezidentliyə namizəd kimi deyə bilərəm ki, Anar Məmmədov bu gün anti-Azərbaycan koalisiyasının başında duranlardan biridir. Ölkəmiz əleyhinə təbliğat aparanların maliyyə dəstəyini bu şəxslər verirlər. Vidadi İsgəndərlinin bu günlərdə yaydığı videoda xeyli faktlar var. Bu iddiaların hamısı araşdırılmalıdır. Mənə də böhtan atır ki, guya Hafiz Hacıyevə bir milyon pul veriblər. Bununla da bizi Avropada söydürürlər. Məcburam ki, bu işi görənləri məhkəməyə verim".

**H.Hacıyev bildirib ki, artıq çox ciddi proseslər başlayır:** "Düşünməsinlər ki, Hafiz Hacıyev bu dəfə asanlıqla təslim olacaq. Şəkillərimizi Avropada orda-burada yapışdıranlara sonuncu xəbərdarlığımı edirəm. Əks halda, onların qulaqlarını Andronikin qulağı kimi kəsəcəyik. Şəxsən Anar Məmmədovu da tutub ölkəyə gətirib, burada lazımi tədbiri görəcəyik. Digərləri də bundan dərs alacaqlar".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

# "Stalinin ölümü" niyə yasaqlanır?



**Samir SARI**

**Atalar deyib ki, qadağan olunmuş meyvə şirin olar. Yəni bir şeyi yasaqlarsan, hamı maraq edər ki, onun dadına, duzuna, rənginə baxsın.**

Kitab və film məsələsində də eynidir. O vaxt ayətullah Xomeyni ortabab yazıçı Salman Rüşdinin kitabını yasaqlamasaydı, bu gün o kitabın oxunması indikindən yüz qat aşağı olardı. Amma yasaqlanmışdı deyə, dünya ictimaiyyəti daraşdı kitabın üstünə.

Yasaqlanmış filmlərin də izlənmə sayı hər zaman rekordları qırıq-qırıq edir.

Əmin ola bilərsiniz ki, Rusiyada yasaqlanmış "Stalinin ölümü" filmi bu ilin ən çox izlənilən filmi olacaq.

Deyilənə görə, o filmi nəyə görəsə bizdə də yasaqlayıblar. Amma nə qədər ki, bu xüsusda qanun-filan yoxdur, mən girəvələyib o filmə baxdım və hazırda düşünürəm ki, bu filmi Rusiyada niyə qadağan ediblər. Nə səbəbdən?

Bu filmdə göstərilənlərin hamısını, hətta ondan beş qat artığını mən 30 il öncədən bilirəm. 1988-90-cı illədə tarixçilər Roy Medvedyev, Dmitri Volkoqonov və başqaları istər Stalin haqqında, istər onun silahdaşları barədə, istərsə də o dövrdə Kremldə baş verənlərə dair hər şeyi təfərrüatı ilə yazıblar. Ortada sirr, müəmma qalmayıb, hər şeyin, necə deyərlər, pərdəarxası detalları məlumdur.

Filmdə isə "nağıl dili yüyrək olar" taktikası seçilib. Əslində bu mövzuda "Santa Barbara"dan da uzun serial çəkmək olardı. Ancaq Fransa, İngiltərə və Belçika kinematoqrafçıları "Stalinin ölümü"nü çəkərkən kəsədən gediblər və cəmi bir-iki günün hadisəsini lentə alıblar.

Tarixi fakt belədir ki, sovet DİN-in (eyni zamanda KQB-sinin) şefi Lavrenti Beriyanı Stalinin ölümündən dərhal sonra güllələməyiblər, uzun bir proses gedib, adamı iyunun 26-da işdən çıxardıb tutublar, sonra məhkəmə prosesi gedib, dekabrda isə güllələyiblər - yəni Stalinin ölümündən 10 ay sonra. Filmdə isə göstərilir ki, guya onu Stalinin qəbrə qoyulduğu gün öldürüb, yandırıblar və külünü göyə sovurublar.

Filmin janrı da qəribədir, qrotesklə dramın qarışığı bir şeydir. Baxırsan ki, çox şeyi olduğu kimi çəkiblər, amma dialoq və epizodlardan komiklik yağır. Bu, ona görə belədir ki, o dövrdə sovet bürokratiyası özünün absurd səviyyəsinə çatmışdı və hər addımı bugünkü baxışla satirik görünür. Məsələn, Stalin gecədən insult olub, yerə döşənib, bir adam yanına girmir, yalnız səhər yeməyi aparan xadimə görür ki, rəhbər uzanıb. Ondan sonra da heç kim həkim çağırmır, deyirlər, gərək Siyasi Büro üzvlərinin hamısı gəlsin ki, həkim çağırmaq qərarı vermək üçün yetərsay olsun. Bu, əlbəttə, absurd və gülməli durumdur, amma gerçəkdən də o vaxt Stalinin üstünə həkimi gec çağırıblar.

Həkimlərin kütləvi şəkildə repressiya edilməsi iddiası doğrudur, amma Kremldə həkim tapılmaması söhbəti absurddur.

İnsanların kütləvi şəkildə repressiya olunması, güllələnməsi tarixi faktdır, amma hamının bir-birini, harda gəldi, güllələməsi həqiqət deyil. Bu işi səlahiyyətli mütəxəssislər görürmüş.

Bir sözlə, bu sovet dövrünü yaşayan, o dövrün haqq-hesabları ilə maraqlanan hər bir adamın, o cümlədən də rusların bildiyi gerçəklərdir. Belədirsə, bu film nədən qadağan olunsun?

Bunun əsas səbəbi o ola bilər ki, filmdə KQB aşağılanır, aciz göstərilir, hazırda isə keçmiş "kaqebeşnik"lər hakimiyyətdədir və onlar istəmirlər ki, sələflərinin reputasiyası daha da korlansın. Filmin yasaqlanması bir növ xələfin sələf qarşısındakı vəfa borcundan irəli gəlir.

İkincisi, kinematoqrafçılar fransızlar, ingilislər, belçikalılardır və patriot rus məmurları istəmirlər ki, anti-rus əhval-ruhiyyəli əcnəbilər onların tarixinə, xüsusilə də onun qara ləkələrinə dil uzatsınlar, onu lağlağı predmetinə çevirsinlər.

Məncə, ya ikisinin biridir, ya da elə ikisinin ikisidir.

Yekunda onu da deyim ki, Stalin roluna çəkilən aktyor barədə uğursuz seçim edilib. O, Stalinə qətiyyən oxşamır. Məşhur sovet liderinin xarizması, zabitəsi, zəhmi sıfırdır, mülayim kolxoz sədrlərinə bənzəyir. Rejissor gəlib Gürcüstandan, Azərbaycandan Stalin roluna çəkiləsi 10-15 aktyor tapa bilərdi və bizimkilər o rolu çox təbii, sevə-sevə oynayardılar. Qafa qafaya uyğundur axı.

Qoy gənclər, xüsusilə də arada tanımaza-bilməzə, sovet dövrünü ideallaşdıran növcavanlar bu filmə baxsınlar. Bu, sovet dövrünün acı və absurd həqiqətlərinin yalnız 0-la başlayan faizidir.

# Azərbaycan vətəndaşlarına vizalar "ASAN Viza" vasitəsilə veriləcək

**"Azərbaycan vətəndaşlarına "ASAN xidmət" mərkəzləri tərəfindən viza verilməsi üçün "ASAN Viza" - 2 konsepsiyası hazırlanıb".**



Virtualaz.org-un məlumatına görə, bunu Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov deyib.

"Məqsəd odur ki, vahid platformada Azərbaycan vətəndaşları müraciət edərək vizaların alınması üçün xarici ölkələrin Azərbaycandakı konsulluqlarından viza əldə edə bilsinlər. Bu bizim həmin ölkələrin konsulluq xidmətləri ilə əməkdaşlığımızdan asılıdır. Hazırda biz müvafiq qurumlarla danışıqlar aparırıq. Ümid edirik ki, pilot layihə çərçivəsində bir neçə səfirliklə artıq əməkdaşlıq əlaqəsi qurulacaq. Əməkdaşlıq qurulduqdan sonra Azərbaycan vətəndaşları daha rahat formada istədikləri ölkəyə viza əldə edə biləcəklər. Hələ ilkin danışıqlar gedir. Yekun danışıqlardan sonra vaxt müəyyən olunacaq", - deyə Dövlət Agentliyinin sədri bildirib.

Qeyd edək ki, hazırda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər "ASAN Viza" sistemi vasitəsilə qeyri-iş və bayram günlərindən asılı olmayaraq, elektron vizaların 3 saat ərzində alınması üçün müraciət edə bilərlər.

YENİ MÜSAVAT
N 49 (6938) 2 mart 2018

# Hökumət Avropa Məhkəməsinin cərimə qərarlarının icrasını dayandırıb

## Əsabəli Mustafayev: "2016-2017-ci illər üzrə çıxarılmış qərarlar üzrə bütün ödənişlər dayandırılıb"

**Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) Azərbaycandan gedən şikayətlərlə bağlı çıxardığı qərarların icrasında problemlər yaranıb. Ötən ilin avqust ayından etibarən AİHM-in bəzi şikayətlər üzrə tətbiq etdiyi kompensasiyaların verilməsində fasilə yaranıb. Xəbəri contact.az saytı yayıb.**

Bildirilir ki, bəzi şəxslərə hissə-hissə kompensasiyaların bir hissəsi ödənilib. Lakin son 6 ayda həmin şəxslərə qalıq məbləğdən heç nə verilməyib. Bu da bir sıra müzakirələr yaradıb. Ötən ilin sonlarında dövlət büdcəsinin təsdiqi ilə bağlı kompensasiyaların verilməsinin müvəqqəti dayandırıldığı deyilsə də, artıq büdcənin təsdiqindən iki ay ötməsinə baxmayaraq, bu istiqamətdə heç bir irəliləyiş yoxdur. Bütün bunların Azərbaycanla Avropa Şurası arasında qərarları icra etməmə səbəbi ilə ciddi problemlər yarada biləcəyi qeyd olunur. Gedən müzakirələrin fonunda Azərbaycan hökumətinin gələn ay keçiriləcək prezident seçkisinə qədər kompensasiyaları ödəyəcəyi də bildirilir.



**Avropa Məhkəməsində çoxsaylı işlər qazanan vəkil Əsabəli Mustafayev "Yeni Müsavat"a açıqlamasında fevral ayında bəzi mülkü işlər üzrə kompensasiyaların ödənildiyini bildirdi:** "Fevral ayında ödənilən məbləğlər o qədər də yüksək deyildi. 4 min avro idi. 2016-cı ildən etibarən çıxarılmış qərarlar üzrə ödənişlər hələ də başa çatdırılmayıb. 2016-17-ci illər üzrə çıxarılmış qərarlar üzrə bütün ödənişlər dayandırılıb. Həmin məbləğlərin bir hissəsi qismən ödənilib. Hökumətin nə üçün belə addım atdığını deyə bilmərəm. Kompensasiyaların məbləği o qədər də böyük deyil. Təxminən bir milyon manata yaxın məbləğdir. Bunu ödəmək hökumət üçün heç bir çətinlik yaratmır. Ödəmələrin aparılmaması düşünürəm ki, dövlətin imicinə zərər vurur. Siyasi məhbuslar və digər bu kimi məsələlərlə bağlı beynəlxalq qurumların qərarları icra olunmur, heç olmasa, kompensasiya qərarı icra olunmalı idi. Ümidlər var idi ki, bu il ödənişlər başlayacaq. Nə vaxt bunun olacağını heç kim bilmir. Deyirdilər ki, fevralın əvvəlləri və ya ortalarında olacaq, amma göründüyü kimi, ödənilmədi. Dəqiq tarixi isə heç kim bilmir. Buna nəyin səbəb olduğu barədə də nəsə deyə bilmərəm. Seçkilərə qədər bu ödənişlərin olub-olmayacağını da deyə bilmərəm. Hesab edirəm ki, ilk növbədə, dövlət öz imicini qorumalıdır. Hamı bilir ki, bizim dövlət kasıb deyil. Bildiyimiz kimi, Albaniya kasıb bir ölkədir və Azərbaycanla yanaşı tutula bilməz. Bu ölkədə də Avropa Məhkəməsinə müraciət edən ərizəçilər var və onların kompensasiyaları ödənilir. Məhkəmə qərarlarını icra etmək dövlətin səviyyəsini, məsuliyyətini göstərir. Ümid edirəm ki, yaxın zamanlarda dövlət qurumlarımız bu ödənişləri etməyə başlayacaqlar. Çünki Avropa Məhkəməsində yeni qərarların qəbulu gözlənilir. Onlar da bu məbləğlərin üstünə gələcək, toplanacaq. Kompensasiyaların ödənilməməsi faizin hesablanması ilə nəticələnir. Dövlətin faizə oturması nə əhali, nə də ərizəçilər qarşısında yaxşı hal deyil. Ümidliyəm ki, bu amillər nəzərə alınacaq və məbləğlər veriləcək. Özü də əvvəlkilər kimi qismən deyil, tamamilə bağlanacaq".

Vəkil kompensasiyaların verilməməsinin uzun müddət davam edəcəyi halda nələrin baş verə biləcəyi ehtimallarından da söz açdı: "Ərizəçilərin nümayəndələri məcburdur ki, kompensasiyaların verilməməsi ilə bağlı buna nəzarət edən Avropa Şurası Nazirlər Komitəsinə şikayət etsinlər. Nazirlər Komitəsi hələ ki ciddi bir reaksiya göstərmir, amma bunlar çox toplandığı halda yəqin ki, hər hansı bir reaksiya veriləcək. Bu reaksiyanın verilməsinin özü də yaxşı hal deyil. İlqar Məmmədovun işində olduğu kimi ciddi situasiya yarana bilər. Bu məsələni hökumət o dərəcəyə çatdırmamalıdır. Nümayəndələr Avropaya yenidən şikayət etməyə borcludurlar. Ərizəçilərin hüquqlarını müdafiə etmişik və bunun nəticəsində kompensasiyalar təyin olunub, bunlar ödənilmirsə, biz icraçılığı da davam etdirməliyik. Ona görə biz məcburuq ki, Nazirlər Komitəsinə mütəmadi olaraq məlumatlar göndərək, bu məlumatlar da kompensasiyaların icra olunub və ya olunmaması ilə bağlı olur. Belə məlumatlar mütəmadi olaraq gedir və Nazirlər Komitəsinin saytında yerləşdirilir. Neqativ məlumatların toplanması əvvəl-axır sərt reaksiyalara səbəb olacaq. Təəssüf ki, Azərbaycanda kompensasiyaların ödənilməsinə nəzarət edən, məsuliyyət daşıyan aidiyyəti qurum yoxdur. Sadəcə, Avropa Məhkəməsində Azərbaycan nümayəndəliyi var. Biz mütəmadi olaraq, onlarla əlaqə saxlayırıq, dəqiqləşdirmələr aparırıq. Xüsusi bir qurumun olmaması bəzi addımların atılmasının qarşısını alır. İndi eşitdiyimə görə, belə bir praktika başlayıb ki, icra olunmayan qərarlarla bağlı nümayəndələr icra şöbələrini məhkəməyə verirlər. Məhkəmələr qəbul edilən qərarların icra edilməməsini qanunsuz sayırlar, lakin kompensasiya tətbiq etmirlər. Kompensasiyaların təyin olunmamasından ərizəçilər yuxarı instansiyalara artıq şikayətlər verirlər. Bütün instansiyaları keçəndən sonra Avropa Məhkəməsinə müraciətlər olunacaq. O zaman məlum olacaq, Avropa Məhkəməsi o müraciətlərə hansı münasibəti sərgiləyəcək. Çünki indiyə qədər bu sahədə heç bir təcrübə yoxdur. Son iki ilə qədər hökumət o kompensasiyaları tam vaxtında ödəyirdi. Faizə də ehtiyac qalmırdı. İndi yeni situasiya yaranıb, bu istiqamətdə düşünülüb, yeni addımlar atılır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



# İsa Qəmbərin Türkiyədə müayinəsi davam etdirilir

**"Milli Strateji Düşüncə Mərkəzinin sədri, Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbərin Türkiyədə müayinəsi davam etdirilir, səhhətində ciddi problem yoxdur". Bunu "Report"a açıqlamasında Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı deyib.**

O bildirib ki, bu, aparılan ilkin müayinələrdən də aydın olur: "Yaxın müddətdə müayinələrin yekun nəticəsi məlum olacaq".

G.Aslanlının sözlərinə görə, İsa Qəmbərin Azərbaycana dönəcəyi tarix məlum deyil: "O, Türkiyəyə həm müayinədən keçmək, həm də bir sıra görüşlərdə iştirak etmək üçün gedib".

Qeyd edək ki, yanvarın 13-də İ.Qəmbərin səhhətində problem yaranıb və Mərkəzi Klinikaya yerləşdirilib. Müayinələr nəticəsində İ.Qəmbərin infarkt keçirdiyi məlum olub və onun ürəyinə stentlər qoyulub.

İ.Qəmbər fevralın 23-də yenidən Mərkəzi Klinikaya aparılıb. Xəstəxanadan bildirilib ki, İ.Qəmbərin bu dəfə həkimə müraciət etməsi ürəyində yaranan problemlərlə bağlı deyil, o, ümumi stasionar şöbəyə yerləşdirilib. Daha sonra isə o, Müsavat Partiyasının başqanı Arif Hacılının və Mərkəzi Klinik Xəstəxanasının həkiminin müşayiəti ilə Türkiyənin paytaxtı Ankara şəhərindəki xəstəxanalardan birinə yerləşdirilib.

# Müxalifət "boykot bloku" yarada bilər

## Belə bir blokun yaradılacağı və hansı işlərə baş vuracağı barədə maraqlı xəbərlər

**11 apreldə keçiriləcək növbədənkənar prezident seçkisini boykot qərarı verən və seçkidə iştirak etməmək qərarını qəbul edən siyasi təşkilatların mart ayının üçüncü yarısı birgə mitinq keçirəcəyi barədə xəbərlər yayılıb. Artıq bəlli olduğu kimi, Milli Şuranın sədri Cəmil Həsənli seçkidə iştirak etməyən partiyalara birgə mitinq keçirmək üçün çağırış da edib. Onun çağırışına ilk olaraq Müsavat Partiyasından başqan səviyyəsində müsbət reaksiya olub.**



Yayılan başqa bir xəbərə görə, boykotçular və seçkidə iştirak etməyənlər mitinqlərini və digər seçkiyə yönəlik addımlarını birgə atmaq, koordinasiyalı hərəkət etmək üçün ideyalar düşünürlər. Bu ideyalardan biri kimi "Boykotçular və seçkiyə qatılmayanlar bloku"nun yaradılması üzərində dayanılıb. Məlumata görə, həmin blok mitinqlər keçirməklə yanaşı, seçkinin monitorinqini də aparıb real seçici aktivliyinin hansı səviyyədə olduğunu ortaya qoymaq, seçkidən sonra mətbuat konfransı keçirmək, beynəlxalq birliyə müraciət etmək kimi işləri həyata keçirəcək.

**Seçkidə iştirak etməmək qərarı vermiş Respublikaçı Alternativ (REAL) hərəkatının icraçı katibi Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hazırda şəxsən onda belə bir blokun yaradılacağı barədə məlumat yoxdur. Lakin belə bir təkliflər olacaqsa, REAL müzakirəyə açıq təşkilatdır:** "Əvvəla, məlumatı olmayanlar üçün bildirim ki, REAL-ın seçki ilə bağlı bəyanatında boykot sözü ümumiyyətlə işlədilməyib. Bizim seçkidə iştirak etmək fikrimiz var idi. Sadəcə bizim namizədimiz seçkidə iştirak etmək hüququndan məhrum edilib. Yəni İlqar Məmmədov azadlıqda olsaydı, seçkidə iştirak edəcəkdik. Biz seçkini boykot qərarı yox, seçkidə iştirak etməmək qərarı vermişik. Həmçinin biz seçkinin 6 ay irəli çəkilməsinə görə seçkidən imtina etməmişik, İlqar Məmmədovun seçkidə iştirak etmək hüququnun əlindən alınması bizi seçkidə iştirak etməməyə məcbur elədi. O ki qaldı siyasi qüvvələrin, o cümlədən seçkidə iştirak etməyən qüvvələrin seçki dönəmində əməkdaşlıq eləməsi, koordinasiya olunmuş iş aparması, bu, normal haldır. Bu cür koordinasiya, əməkdaşlıq məqbul sayılmalıdır. Birgə mitinqlərlə bağlı Milli Şuranın rəhbəri tərəfindən müraciət də olub. Bizim ilkin müzakirələrimiz də olub. Sadəcə, bizim problem ondan ibarətdir ki, İlqar Məmmədovla hər an əlaqə qurmaq mümkün deyil ki, bu cür məsələləri onunla da müzakirə edək. Aparılan müzakirələrin nəticəsi İlqar Məmmədova çatdırılacaq. Onun da fikrini alandan sonra ictimaiyyətə qərarlarımızı açıqlayacağıq. REAL-ın özünün bir neçə dairədə seçkinin monitorinqini aparmaq fikri var. Seçki Məcəlləsi seçki prosesinin monitorinqini aparmağa imkan verir. Bu hüquqdan REAL istifadə edəcək, o cümlədən seçkidə iştirak etməyən digər qüvvələrin də belə bir hüququ var".

**N.Cəfərli seçkinin monitorinqi ilə bağlı plan hazırladıqlarını dedi:** "Başqa siyasi qüvvələr bunu etməsələr belə, REAL-ın bunu etmək planı var. Hər hansı bir formatda əməkdaşlıq üçün də qapılarımız açıqdır. Bu danışıqlar və əməkdaşlıq institusional olmalıdır, dəyərlər, prinsiplər üzərindən olmalıdır. Belə bir təkliflər olacaqsa, müzakirəyə açıq təşkilatıq. Siyasi təşkilatlar bir-biri ilə dialoqda olmalıdırlar. Qeyd olunan istiqamətdə yaxın vaxtlarda rəsmi danışıqlar olacaqsa toplaşıb qərarlar verə bilərik. Amma bu gün üçün hər hansı bir birliyin içərisində olmaq fikrimiz yoxdur".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 49 (6938) 2 mart 2018

**Məlum olduğu kimi, prezident seçkisində namizədlərə dövlət tərəfindən təbliğat-təşviqat kampaniyası üçün maliyyə ayrılmayacaq. Hazırda prezidentliyə iddiaçı olan və imzatoplama kampaniyasını aparan namizədlərin qeydə alınacaqları təqdirdə təbliğat-təşviqat kampaniyasına nə qədər maliyyə ayıracaqları ilə maraqlandıq.**

# Prezidentliyə namizədlər pulsuzluqdan gileylidilər

## Amma 30-40 min manat maliyyə sərf etmək fikrində olanlar da var

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev imzatoplama mərhələsinin maliyyəsini həll etdiklərini söylədi:** "Biz hələlik imza toplama kampaniyasını həyata keçiririk. Maliyyəsini həll etmişik. Hər halda, ucuz başa gələn məşğuliyyət deyil. Prosesin əvvəlində növbədənkənar seçkinin maliyyə fondunun formalaşmasına da mane olduğunu demişdim. Hələlik imzatoplamanı həll etmişik. Qeydiyyat məsələsini gözləyirik. Əgər bu mərhələni keçsək, fondun imkanlarından asılı olaraq təbliğat və təşviqatı quracağıq. Bir söz deməkdə çətinliyim var. Gözləyək. Qeydiyyatı keçdikdən sonra təbliğatla bağlı fikir bildirmək mümkün olacaq".


Sərdar Cəlaloğlu

**ADP sədri Sərdar Cəlaloğlu kampaniya mərhələsinə ayıracaqları təxmini məbləği açıqladı:** "Planlaşdırmışıq ki, plakat və bukletlər hazırlayaq, öz qəzetimiz və bizə yaxın olan mətbuat orqanlarında nisbətən ucuz qiymətə müəyyən reklamlar həyata keçirək. Pullu efir vaxtından istifadə edə bilməyəcəyik. Son seçkilərdə müraciət etdik, bir dəqiqəyə 30 min manat istədilər. Ona görə də bu cür imkanlarımız yoxdur. Haradasa 30-40 min manat dəyərində kampaniyaya maliyyə sərf etmək fikrimiz var".

**Müstəqil namizəd, deputat Zahid Oruc seçki mübarizəsinin böyük maliyyə vəsaitləri tələb etdiyini qeyd etdi:** "İnsanların yaş təbəqələrinə uyğun olaraq, informasiyaları haradan daha çox aldıqlarını öncəliklə müəyyən etməliyik. Biz açmış olduğumuz seçki hesabına qoyduğumuz vəsaitlə o qruplara istədiyimiz mesajları, platforma müddəalarını çatdıra biləcəyikmi? Biz hazırda bunun üzərində çox ciddi təhlillər aparmaqdayıq. Məni bu seçkidə tək qoymayan, maddi və mənəvi baxımdan yanımda olan insanlar var. 30-40 min manat olmadan aktiv siyasətlə məşğul olan insanlara fikirlərini çatdırmaq mümkün deyil. Seçki bahalı bir mübarizədir. Hazırkı marafonun favoriti bəllidir. Belə olan təqdirdə bizim üçün bu mübarizədə düşüncələrimizi bölüşməkdir. Bizə yardım etmək istəyən insanları da dəyərləndiririk. Bu mübarizədə ideyalar üzərində qərarlaşmışıq. Maliyyə toplamaq üçün cəmiyyətə bu yöndə müraciət edəsi deyilik".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev:** "Bizim partiya dövlət tərəfindən maliyyələşir. Bu baxımdan məcburuq ki, başqa yerlərdən vəsaitimizi kəsərək, seçki dönəmində işlərimizə sərf edək. İmzatoplama mərhələsi belə çətindir. Bir müddət öncə demişdim ki, dövlət tərəfindən seçki üçün maliyyə ayrılması vacib şərtlərdən biridir. Çətinliklə olsa da, əlimizdə olan imkanlarla təbliğat aparmaqda maraqlıyıq. Çünki seçkidən kənarda qalmaq hər bir partiyaya mənfi təsir göstərir".

**ASDP sədri, deputat Araz Əlizadə maliyyə sıxıntısından şikayətləndi:** "Mənim o qədər pulum yoxdur. Ona görə də yalnız pulsuz efir vaxtından istifadə edəcəm".

**BAXCP-nin seçki qərargahının rəhbəri Elçin Mirzəbəyli bunları dedi:** "Hazırda bu barədə konkret fikir söyləmək çox çətindir. Partiyanın xüsusi seçki fondu könüllü ianələr hesabına formalaşır. Nəticə etibarilə xərclənən bütün vəsaitlər barədə MSK-ya məlumat veriləcək. Eyni zamanda partiyanın illik maliyyə hesabatlarında seçkidə xərclənən vəsaitlər əks olunacaq. Təbliğat barədə planlarımızı isə təbliğat kampaniyası dövründə açıqlayacağıq".

**AĞ Partiyanın seçki qərargahının rəhbəri Əhəd Məmmədli:** "Ümumiyyətlə, biz elə də maliyyə xərcləmirik. İmzatoplama kampaniyamız könüllülük prinsipi ilə gedir. Təbliğat üçün planlarımız çoxdur. Videoçarxlar, kapslar sosial şəbəkələrdə paylaşılacaq. Pullu efir çox baha olduğu üçün təəssüf ki, bundan istifadə edə bilməyəcəyik".

**YAXCP-nin prezidentliyə namizədi Razi Nurullayevin səlahiyyətli nümayəndəsi Rafiq Daşdəmirli hələ ki partiya üzvlərinin təmənnasız köməyi ilə işlərini apardıqlarını vurğuladı:** "Allahın köməkliyi ilə qeydiyyata alınandan sonra sizin dediyiniz maliyyə ilə bağlı məsələləri düşünəcəyik. Onu da deyim ki, hələ ki partiya üzvlərimizin təmənnasız köməyi nəticəsində imza kampaniyamızı bitirmək üzrəyik. Cəmiyyət yaxşı bilir ki, adı müxalif olan heç bir partiyanin pulu yoxdur. O ki qaldı bizim maliyyəmizə, çalışırıq ki, az vəsaitlə çox iş görək".

❑ Cavanşir ABBASLI
"Yeni Müsavat"

# İki müxalif namizəd arasında dəstək qalmaqalı

## Əli Əliyev Sərdar Cəlaloğlunu dəstəkləmir...


Əli Əliyev

**Aprelin 11-də keçiriləcək növbədənkənar prezident seçkiləri ilə bağlı iddiasını irəli sürən ADP sədri Sərdar Cəlaloğlunun "Yeni Müsavat"ın ötən sayında gedən geniş müsahibəsində səsləndirdiyi bəzi fikirlər qalmaqala səbəb olub. Xüsusilə onun digər prezidentliyə iddiaçı, VİP sədri Əli Əliyevlə bağlı dedikləri əks düşərgənin ciddi narazılığına səbəb olub.**

ADP sədri müsahibəsində Ə.Əliyevin namizədliyi qeydə alınmayacağı təqdirdə, onu dəstəkləyəcəyinə söz verdiyini bildirib. Sitat: "Seçkidə iştirak edən dostum Əli Əliyev deyib ki, qeyri-qanuni və ya başqa şəkildə seçkidə iştirak edə bilməsəm, mənə maneələr yaradılsa, nəinki sizi dəstəkləyəcəm, hətta seçki ittifaqı yaradıb seçkilərə gedərik".

S.Cəlaloğlunun dedikləri ilə bağlı "Yeni Müsavat"a müraciət edən VİP sədri onun söylədiklərini təkzib etdi: "Sərdar bəy mənim "Böyük qardaş" deyə müraciət etdiyim şəxsdir. Ona dərin ehtiramım var. Fikrimcə, o, çağdaş dövrümüzün fenomenal adamıdır. Rast olduğum insanlar arasında ən mütaliəlisidir ki, bu zəhmətinə görə ona sayğı göstərmək lazımdır. Bizim partiyanın təşəkkül tapmasında əvəzsiz və təmənnasız xidmətləri var. Yaxşı yol və "qulaq" yoldaşıdır. Ürəyi açıq adamdır. Bu bizim ona münasibətimizdir. Daima Sərdar bəydən və ADP-çilərdən də sayğı görmüşük. Son səfərimiz zamanı İranda olarkən seçkiləri xeyli müzakirə etmişdik. Ümumiyyətlə, Sərdar bəylə qarşılıqlı etimadımız yüksək olduğundan, açıq danışa bilirik. Səfərdən sonra da görüşlərimiz olub. Məsələləri dəyərləndirmişik. Sərdar bəy qəzetinizə müsahibəsində bir qədər təhrif olunmuş məlumat verib. Mənim partiyamız adından elə öhdəlik götürmək səlahiyyətim mövcud deyil. O bildirib ki, qeydə alınmasam bir blokda onu dəstəkləmək perspektivimiz var. Bu versiya müzakirə edilib, əlbəttə. Lakin onunla yanaşı, seçkidə VİP-in namizədlə çıxış etməsinə çətinliklə qərar vermiş Məclis və Siyasi Şurasının şəxsimizə növbəti haqsızlıq olacağı təqdirdə boykot və seçkidən imtina versiyalarının da aktual olacağını bildirmişəm. Biz ikinci dəfədir ki, prezident seçkilərinə qatılmaq qərarı vermişik. 3 parlament seçkisində iştirak etmişik. Hər dəfə hakimiyyətin ədalətsiz və haqsız münasibəti ilə üzləşmişik. Hər bir davranışın adevkatlığı olmalıdır. Özümüzə qarşı qeyri-adekvat, əslində səbəbini bildiyimiz, lakin hələ barəsində seçkinin sonuna qədər danışmadığımız səbəblər mövcuddur. Orası da bəllidir ki, bu hakimiyyət bizi rəqib kimi görmək istəmir. Ən sərt və radikal tərəflər belə prosesə buraxılır, biz kənarda saxlanılırıq. Bu haqda da vaxtı yetişəndə danışacağıq. Mənə qalsa, normal şəraitdə, yəni müxalifətin geniş spektrinin qoşulduğu prosesdə Sərdar bəyi müxalifətin vahid namizədi kimi görürəm. Lakin bu gün şərtlər fərqlidir. Bu gün də fərdi baxımdan Sərdar bəyə istənilən dəstəyi verməyə hazıram. Lakin mənim statusum fərdi qərar imkanlarımı məhdudlaşdırır. Biz qeydiyyat mərhələsində süni şəkildə saxladılsaq, növbəti mərhələdə qərarımız Məclis və Siyasi Şuradan gələcək. Orada isə hakimiyyətin bu yanlış tövrünə münasibətin ciddi şəkildə mənfi olduğundan xəbərdaram. Onsuz da qərarın qəbulu xeyli müqavimətlə qarşılanmışdı. İndi daxili dəngə iştirakdan imtinanın, hətta ola bilər ki, boykotun lehinə dəyişmiş olsun".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# Nazirin dayısı oğlu həbs olundu


Yavər Camalov

**Odlu silahla törədilən xuliqanlıq cinayətlərinin üstünün açılması istiqamətində daxili işlər orqanlarının əməkdaşları tərəfindən uğurlu əməliyyat tədbiri həyata keçirilib.**

"Qafqazinfo"ya daxil olan xəbərə görə, fevralın 24-də Şirvan şəhər sakini Teyyub Tağıyevə odlu silahdan atəş açılması nəticəsində onun müxtəlif dərəcəli bədən xəsarətləri ilə xəstəxanaya yerləşdirilməsi barədə Şirvan Şəhər Polis Şöbəsinə məlumat daxil olub. Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi və şöbə əməkdaşları tərəfindən həyata keçirilən birgə əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən cinayəti törətməkdə şübhəli bilinən Şirvan şəhər sakinləri Azər Məmmədov, Nadir Nehmədzadə və Sabirabad rayon sakini Habil Fərzəliyev saxlanılıblar.

Hal-şahidlərinin iştirakı ilə H.Fərzəliyevin üzərində şəxsi axtarış keçirilən zaman ondan sandıqçasında 5 ədəd patron "Makarov" markalı tapança aşkar olunaraq götürülüb. Araşdırma zamanı H.Fərzəliyevdən aşkar edilən silah-sursatın dəstənin digər üzvü A.Məmmədova məxsus olması və hadisə zamanı zərərçəkənə məhz onun atəş açması müəyyən edilib.

A.Məmmədovun ətrafında keçirilən əlavə əməliyyat-axtarış tədbirləri ilə onun başqa cinayətinin də üstü açılıb. Belə ki, o, ifadəsində 2015-ci ilin aprelin 21-də Şirvan şəhər sakini Rəsul Əliyevə şəxsi münasibətlər zəminində aralarında yaranan mübahisə zamanı "Makarov" tipli tapança ilə bir neçə dəfə atəş açaraq hər iki ayağından yaraladığını bildirib.

Mediada yayılan məlumatlara görə, saxlanılan Azər Məmmədov müdafiə sənayesi naziri Yavər Camalovun və Şirvan şəhər icra başçısı Mərdan Camalovun dayısı oğludur.

# Azad Rəhimova yeni müavin göndərildi-Kennedi Məktəbinin məzunudur

## Prezident yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev nazir müavini oldu


Fərhad Hacıyev

**Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev ölkə başçısının sərəncamı ilə bu vəzifədən azad olunub. Modern.az-ın əldə etdiyi məlumatı Gənclər Fondundan təsdiqləyiblər.**

Dövlət başçısının digər sərəncamı ilə Fərhad Hacıyev gənclər və idman nazirinin müavini vəzifəsinə təyin edilib.

Qeyd edək ki, Fərhad Hacıyev 1980-ci ildə Sumqayıt şəhərində anadan olub. Azərbaycan Universitetini və Dövlət İqtisad Universitetini fərqlənmə diplomu ilə bitirib. Fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi var. Harvard Kennedi Məktəbinin məzunudur.

Əmək fəaliyyətinə 1998-ci ildən Azərbaycan Respublikasının Gənclər Təşkilatları Milli Şurasında departament müdiri vəzifəsində başlayıb. 1999-cu ildə bu təşkilatın Məclis sədri, 2000-ci ildə isə baş katibi seçilib. 2001-ci ildə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində Beynəlxalq təşkilatlarla iş sektorunun müdiri vəzifəsinə təyin olunub.

2001-2002-ci illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətdə olub. 2002-ci ilin noyabr ayında Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri vəzifəsinə təyin olunub.

2006-2009-cu illərdə Avropa Şurasının Gənclərlə iş üzrə Proqram Komitəsinin sədri vəzifəsində çalışıb.

2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif edilib.

2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru vəzifəsinə təyin edilib. 2015-ci ildə Birinci Avropa Oyunlarının təşkilində iştirak etdiyinə görə Azərbaycan Prezidentinin "Fəxri Diplomu" ilə təltif edilib.

F.Hacıyev artıq gənclər və idman nazirinin müavini postunda fəaliyyət göstərir.

YENİ MÜSAVAT
N 49 (6938) 2 mart 2018

# "Bu o demək deyil ki, mübarizə başa çatdı"

## Qubad İbadoğlu xaricdən yayılan videomüraciətlər haqda: "Siyasi mübarizənin əxlaq və mənəviyyat üzərində qurulmasının tərəfdarıyam"

**İqtisadçı-alim, Azərbaycan Demokratiya və Rifah Hərəkatının rəhbəri Qubad İbadoğlunun ABŞ-ın nüfuzlu Princeton Universitetindəki tədris proqramı gələn ay başa çatır. Neçə aylardır ABŞ-da olsa da, Q.İbadoğlu Azərbaycanın sosial-iqtisadi və siyasi həyatında gedən prosesləri yaxından izləyir. Buna görə də onunla söhbətimizdə ölkədə gedən ən ciddi proseslərə toxunmağa çalışdıq:**

***- Qubad bəy, Azərbaycanın vergi sistemində islahatlar başlayır. Sizcə, islahatlar hansı istiqamətdə getməlidir?***

- Əslində Azərbaycan prezidentinin 2016-cı il 4 avqust tarixli sərəncamı ilə həmin il vergi sahəsində aparılacaq islahatların istiqamətləri müəyyənləşmişdi. Həmin istiqamətlər arasında kifayət qədər mütərəqqi hesab olunacaq məsələlər də vardı. Orada 21 istiqamətdən söhbət gedirdi, onlardan bir qismi artıq icra edilib. Məsələn, Azərbaycanda taxfree sistemi yox idi, indi hava limanında, digər sərhəd-buraxılış məntəqələrində bu sistem tətbiq olunur. Amma təəssüf ki, o sərəncamın bir çox bəndləri hələ də icra olunmayıb. Məsələn, onların arasında ictimai məlumatlandırma mexanizminin hazırlanması nəzərdə tutulurdu. Digər bir sıra tədbirlər, o sıradan nümunəvi vergi ödəyicilərinin açıqlanması da həyata keçirilməyib. Bu baxımdan, vergi sistemində islahatların davam etdirilməsi zəruridir. Eyni zamanda paralel olaraq ədliyyə-məhkəmə sistemində də islahatlar aparılmalı, məhkəmələrin müstəqilliyi təmin olunmalıdır. Bildiyiniz kimi, vergi məsələləri ilə bağlı mübahisəli proseslərdə məhkəmələr əksər hallarda vergi orqanlarının mövqeyindən çıxış edirlər. Buna görə də vergi ödəyiciləri arasında hüquqlarını məhkəmə yolu ilə müdafiə etməyin mümkünlüyünə inam azdır. Bu isə vergi orqanı ilə münasibətlərdə ödəyicilər üçün qeyri-bərabər şəraitin formalaşması deməkdir. Ümumilikdə isə vergi qanunvericiliyində bir çox təkmilləşmələr olmalıdır. Biz Vergilər Nazirliyinə dəfələrlə təklif vermişik. Məsələn, onlardan biri patent vergi sisteminin tətbiqidir. Bu sistem xidmət, ticarət, ictimai iaşə və digər bəzi sahələrdə vergi əməkdaşları ilə ödəyicilər arasında birbaşa təmasları azaldar, ödəyicilərin daha azad, daha sərbəst fəaliyyətinə imkan yaradar. Elektron auditin tətbiqi genişləndirilməlidir. Ümumiyyətlə, vergi yoxlamalarına son qoyulmalı, audit fəaliyyəti genişləndirilməlidir. Auditorlar Palatasından lisenziya almış müstəqil auditorların fəaliyyəti stimullaşdırılmalıdır.

***- Azərbaycanda vergi yükünün böyük olduğu deyilir. Dünya ölkələrinə baxanda bizdə vəziyyət necədir?***

- Vergi dərəcələrinin rəqabətliliyi baxımından Azərbaycan region ölkələri arasında aşağı mövqeyə malikdir. Azərbaycandakı vergi yükü region ölkələri ilə müqayisədə yuxarıdır, demək olar ki, 40 faizə çatır. Qazaxıstanda bu göstərici 29,2 faiz, Gürcüstanda 16,4 faizdir. Təsəvvür edin, Gürcüstanda vergi yükü Azərbaycandan 2,5 dəfə aşağıdır. Hesab edirəm ki, Azərbaycanda vergi yükünün optimallaşdırılması vergi islahatlarının əsas hədəflərindən biri olmalıdır. Həm sektorlar, həm şirkətlər, həm fərdi ödəyicilər, həm dövlət sektoru üzrə potensial vergi yükü dəqiq müəyyənləşdirilməlidir. Vergi potensialı ilə vergi dərəcələri arasında əlaqələr iqtisadiyyatın strukturuna, inkişaf perspektivlərinə, bazar konyukturasına, eyni zamanda bütövlükdə sahibkarların durumuna adekvat şəkildə olmalıdır. Vergi dərəcələri əsaslandırılmış olmalıdır, elə olmalıdır ki, şirkətlər, fərdlər üçün problem yaratmasın. Həmin vergi öhdəliyi şirkətlərin, fərdlərin vergi mədəniyyətinin formalaşdırılmasına xidmət etsin. Bu yaxınlarda ABŞ-da bu istiqamətdə müəyyən dəyişikliklər baş verdi. İlin sonunda prezident Trampın vergi islahatı planına uyğun olaraq vergi dərəcələri xeyli aşağı salındı, həm korporativ vergi dərəcələri, həm də fərdlərin gəlirlərindən olan vergilərin dərəcələrində azalma müşahidə olundu. Düşünürəm ki, Azərbaycanda da bu sahədə islahatlara ehtiyac var. Xüsusilə də Əlavə Dəyər Vergisi yüksəkdir, onun diferensiallaşdırılmasına ehtiyac var. İdxal mallarından yalnız bir növ vergi tutulmalıdır. Halbuki bizdə elə mal var ki, həm aksiz, həm rüsum, həm də ƏDV tutulur. Bu, əslində ikiqat vergiyə cəlb olunmaqdır. Məsələn, ölkəyə avtomobil gətirəndə onun gömrük dəyərinin üzərinə rüsumlar əlavə olunandan sonra cəmi məbləğdən ƏDV hesablanır. Bu isə o deməkdir ki, ƏDV həm də rüsumdan tutulur. Belə hallar yolverilməzdir və aradan qaldırılmalıdır. Vergi rejiminin sabitliyi də mühüm məsələdir. Hesab edirəm ki, islahatların bir istiqaməti də bununla bağlı olmalıdır, sahibkarlar bilməlidir ki, yaxın müddətdə hansı dəyişikliklər olacaq və bu dəyişikliklər onların maliyyə təsərrüfat fəaliyyətinə necə təsir göstərəcək. Vergi sahəsində islahatların mühüm bir istiqaməti vergi ödəyicilərinin fəaliyyətinin şəffaflığına, onlarda vergi mədəniyyətinin inkişafına yönəlməlidir. Prezidentin 2016-cı ilin avqust sərəncamında bununla bağlı bəndlər vardı. Lakin indiyədək həmin bəndlərin icrası sahəsində əhəmiyyətli iş görülməyib. Bildiyiniz kimi, Azərbaycanda vergi ödəyicilərinin ödədikləri verginin məbləği açıqlanmır, bu məlumat kommersiya sirri hesab olunur. Onun açıqlanması könüllüdür. Yəni vergi ödəyicisi istəyərsə özü açıqlaya bilər. Düşünürəm ki, bu məlumat ictimaiyyətə açıq olmalıdır ki, bütün vergi ödəyicilərinin ödənişləri barədə cəmiyyətdə dürüst məlumat olsun. Bu, həm də onların fəaliyyətinin qiymətləndirilməsi üçün imkanlar yaradar, yaxşı vergi ödəyən şirkətlər ictimai etimad qazanar.



**"Neft Fondunun vəsaitlərinin yerli sahibkarların kreditləşməsinə yönəldilməsinin əleyhinəyəm"**

***- Son vaxtlar sahibkarlığın maliyyəyə kəskin ehtiyacının olduğu hər sahədə açıq hiss olunur. Bir çox ekspertlər Neft Fondu vəsaitlərinin bir qisminin sahibkarlığın maliyyələşməsinə yönəldilməsini təklif edirlər. Bu variant səmərəli ola bilərmi?***

Son vaxtlar bankların kreditləşmə imkanlarının azalması, problemli kreditlərin həcminin artması və sair səbəblər üzündən sahibkarlıq subyektlərinin maliyyə mənbələrinə çıxış imkanları məhdudlaşıb. Amma hesab eləmirəm ki, burada problem maliyyə ilə bağlıdır. Məncə, mövcud maliyyə resurslarının səmərəli idarə olunmur. Ona görə də düşünmürəm ki, Dövlət Neft Fondunun vəsaitlərini bu məqsədlə istifadə etmək lazımdır. Əksinə, indiki qeyri-şəffaf və hesabatsız idarəetmə şəraitində Neft Fondundan vəsaitlər də ayrılsa, səmərəsiz şəkildə xərclənə, israf edilə bilər. Hesab edirəm hazırkı şəraitdə sahibkarlar üçün başlıca problemlədən biri aşağı kredit faizləri ilə uzun müddətli maliyyə resurslarına çıxış imkanlarının təmin olunmasıdır. Sadəcə olaraq, bu istiqamətdə mövcud təşəbbüslər davam etməli və yeni şəraitə uyğunlaşdırılmalıdır. Əlbəttə, Dövlət Neft Fondu da burada bir mənbə kimi çıxış edə bilər. Lakin mən Fondun vəsaitlərinin ölkə daxilində yerli sahibkarlığın birbaşa kreditləşməsinə yönəldilməsinin əleyhinəyəm. Hesab edirəm ki, vergi islahatları aparılmadan, ölkədə sahibkarlıq mühiti yaxşılaşdırılmadan, şəffaf, açıq və rəqabət qabiliyyətli iqtisadiyyat formalaşdırmadan buna getmək olmaz. Sahibkarlığa Kömək Milli Fondu uzun illər boyu sahibkarlığa böyük həcmdə vəsaitlər yönəldilib. O fondun şərtləri sahibkarlar üçün əlverişlidir, amma reallıq budur ki, orda da resursların idarə olunmasında çətinliklər var. Buna görə də onların verdiyi vəsaitlərin bir hissəsi geri qayıtmır.

***- Gələk siyasi fəaliyyətinizə. Prezident seçkisinin 6 ay irəli çəkilməsi planlarınızda hər hansı dəyişikliyə gətirib çıxardımı?***

- Seçkilərin irəli çəkilməsi ADR Hərəkatının uzunmüddətli proqramlarına ciddi təsir göstərməsə də təbii ki, bizi bu il üçün nəzərdə tutduğumuz fəaliyyət proqramımızda əhəmiyyətli dərəcədə dəyişikliklərə məcbur etdi. Biz ictimai təşkilat olaraq Azərbaycanın demokratikləşməsini, Azərbaycanda vətəndaşların rifah halının yaxşılaşmasını qarşımıza məqsəd qoymuşuq. Və bunun həyata keçirilməsində prezident seçkisini, parlament və bələdiyyə seçkilərini də bir vasitə kimi görürük. Bizim üçün vacib olan məsələlərdən biri bu seçkilərin demokratik təşkil olunması, onların şəffaf və ədalətli keçirilməsidir. Əlbəttə ki, seçkiqabağı mühit, seçkilərə hazırlıq üçün müddət və resurslar da bundan az əhəmiyyət daşımır. Növbədənkənar seçkilərə qısa müddət ayrılması belə ciddi vəzifələrin reallaşdırılmasına xeyli çətinliklər yaratdı. Ona görə də biz ADR Hərəkatı olaraq bu prosesdə iştirakdan imtina etdik. Lakin bu o demək deyil ki, mübarizə başa çatdı. Əslində bu da yeni bir mərhələnin başlanğıcıdır. Biz bilirik ki, demokratiya və azadlıqların təminatı uğrunda mübarizə uzun müddət tələb edir. Odur ki, ADR Hərəkatı olaraq orta və uzunmüddətli dövrdə Azərbaycanın demokratikləşməsi uğrunda mübarizəmizi davam etdirəcəyik. Bu sahədə planlarımız və proqramlarımız qüvvəsində qalır.

***- ADR-in proqramlarının təqdimatı başlayacaq demişdiniz. Proqramlar hazırdırmı, bu sahədə işlər nə yerdədir?***

- Biz proqramlarımızın təqdimatını seçki ilə əlaqələndirmiş şəkildə həyata keçirməyi planlaşdırırdıq. Seçkilər vaxtından əvvəl və qısa zaman ərzində keçirildiyi üçün orda iştirakdan imtina bu sahədə də planlara təsir edib. İndi düşünürük, yeni dövr üçün hazırkı situasiyanın çağırışları və tələbləri nəzərə alınmaqla proqramlar işlənilməli və onlar Azərbaycanın indiki durumu və gələcək perspektivləri ilə əlaqələndirilməlidir. Odur ki, seçkini izləyib, ondan sonrakı dövrün tələblərini nəzərə alıb, bu ilin ikinci yarısında hazırladığımız proqramları ictimaiyyətə təqdim edəcəyik.

***- Avropa və digər ölkələrdə Azərbaycan hakimiyyətinə qarşı bir çox hallarda təhqiramiz xarakter alan video-müraciətlər və aksiyalar keçirildi. Bunları necə qiymətləndirirsiniz?***

- Hesab edirəm ki, Azərbaycan hakimiyyəti ölkəni tərk etmiş vətəndaşlarıyla münasibətlərin gərginləşməsinə rəvac verməməlidir. Xüsusilə də əsassız araşdırmalar və günahsız insanlara təzyiqlər dayandırılmalıdır. Hakimiyyət həm ölkə daxili və həm də xaricində olan tənqidi fikirlərə dözüm nümayiş etdirməlidir, ölkə vətəndaşlarının mənəviyyatına, ailəsinə toxunan hallara yol verməməlidir. Çünki xaricdə yaşayanların çıxışlarına görə onların ailə üzvlərinin əsassız təzyiqlərə məruz qoyulması, həbs olunması, qohumlarından imtinaya təhrik edilməsi vəziyyəti daha da gərginləşdirir və xaricdə olanları radikal mövqeyə sövq edir. Siyasi mübarizənin əxlaq və mənəviyyat üzərində qurulmasının tərəfdarıyam.

Amma məlumdur ki, mübarizəni fərdi müstəviyə gətirəndə, ona şəxsi və düşmənçilik xarakteri verəndə əxlaq və mənəviyyat məsələləri arxa plana keçir. ADR Hərəkatı müstəvisində mübarizə əxlaq və mənəviyyata söykənir. Mən həmişə sağlam mübarizənin tərəfdarı olmuşam, indiyə qədər olan fəaliyyətimdə də ona önəm vermişəm. Hesab edirəm ki, baş verənləri birtərəfli qaydada qiymətləndirmək düzgün deyil. Hakimiyyət daha çox imkanlara, resurslara malikdir ki, bu problemləri sağlam və əxlaqlı mübarizə örnəyi göstərməklə çözsün. Çalışmaq lazımdır ki, siyasi rəqiblərlə mübarizə zamanı ailə dəyərlərinə, mənəviyyata, hissiyyata toxunacaq vasitələrdən istifadə olunmasın, belə hərəkətlərə yol verilməsin. Hesab edirəm ki, siyasi mübarizə aparmaq iddiasında olan hər kəs bunu əxlaqlı çərçivəsində, sağlam formada davam etdirməlidir.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Əli Həsənovun qohumlarına növbəti "yaşıl soyqırım" ittihamı

## "Qaçqınkom" sədrinin oğlunun Sumqayıtda "Bələdiyyə parkı"nı restorana görə məhv etdiyi deyilir, baş nazirin müavini isə iddiaları təkzib edir

**Bir neçə gün öncə "Yeni Müsavat"ın elektron poçtuna Sumqayıt sakinlərindən şikayət daxil olmuşdu. Şikayətdə Sumqayıt şəhərində, Səməd Vurğun küçəsi ilə Cəlil Məmmədquluzadə küçəsinin kəsişməsində böyük bir yaşıllıq zolağının məhv edildiyi bildirilirdi. Musavat.com dərhal məlumatı xəbərə çevirib, ictimailəşdirib.**

"Yeni Müsavat" qəzetinin müxbiri məsələni araşdırmaq üçün Sumqayıta gedib, həmin ünvana baş çəkib. Məlumdur ki, Sumqayıtda yaşıllığa qənim kəsilməkdə Qaçqın və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin (qısaca "Qaçqınkom") sədri Əli Həsənovun yaxınlarının adı hallanır. Bu mövzuda redaksiyamıza daha bir şikayət məktubu daxil olub.

Məktubda musavat.com-un "Əli Həsənovun nəvəsi Sumqayıtda yaşıllığı məhv edir" adlı yazıya diqqət çəkilir. Xatırladaq ki, fevralın 23-də dərc olunan xəbərdə deyilirdi ki, Sumqayıtda Səməd Vurğun küçəsi ilə Cəlil Məmmədquluzadə küçəsinin kəsişməsində böyük bir yaşıllıq zolağı məhv edilir. 50-dən artıq şam ağacının kəsildiyi bildirilirdi. Şəhər sakinləri redaksiyaya bildirmişdilər ki, bu ağacların yaşı çoxdur, sovet dövründə əkilib.

Musavat.com yaşıllığı məhv edən şəxslərin kimliyi haqda da məlumat vermişdi. Məlum olmuşdu ki, ağacları kəsib yerində obyekt tikmək istəyən şəxs Həsənli Emil Emin oğludur. Emil Həsənlinin baş nazirin müavini, "Qaçqınkom" sədri Əli Həsənovun nəvəsi olduğu bildirilir. Məlumatda o da deyilirdi ki, Əli Həsənovun qardaşı İlyas Həsənov Sumqayıt Yaşıllaşdırma İdarəsinin rəisidir.

Emil Həsənlinin atasının hüquq-mühafizə orqanlarında yüksək vəzifə tutduğu haqda da bilgi verilmişdi.






Redaksiyaya daxil olan sonuncu xəbərdə isə bildirilir ki, Sumqayıtın 6-cı məhəlləsində, "Bələdiyyə parkı"nda yerləşən məşhur "Green Park" restoranının ərazisində də çoxillik küknar ağaclar kəsilib. Redaksiyanın elektron poçtuna daxil olan məlumata görə, ərazidə qalan ağaclar isə mühasirəyə alınıb. Sitat: "Çox güman ki, bir müddətdən sonra təzə obyektə mane olan ağaclar da yerli-dibli məhv ediləcək. Təzə tikilən obyektin sahibi Əli Həsənovun oğlu, hüquq-mühafizə orqanlarında yüksək vəzifə tutan Emin Həsənovdur. 2017-ci ildə "Qaçqınkom"un sədri Əli Həsənovun oğlu şəhərin mərkəzində, çox gözəl və sakit guşədə yerləşən "Green Park" restoranını alandan sonra onu söküb və yerində hazırda qırmızı kərpicdən 2 mərtəbəli möhtəşəm bir restoran tikir.

Qeyd edək ki, adıçəkilən obyekt, keçmiş "Green Park" restoranının ərazisi olan bu yer Sumqayıt Şəhər İcra Hakimiyyətinin binasından çox da uzaqda deyil, şəhər polis idarəsinin düz yanında, təzə tikilən şəhər prokurorluğunun inzibati binasının yaxınlığında, YAP-ın Sumqayıt təşkilatının keçmiş binasının düz qabağında yerləşir. Yəni görülən işlər, bu obyektin inşası zamanı baş verən neqativ hal tam göz qabağında, özü də görün "haraların", "kimlərin" yanında baş verir».

**Yazıda daha sonra qeyd olunur ki, adi vətəndaş icazəsiz burada heç zaman daşı daş üstə qoya bilməz. Sitat:** "Burada, necə deyərlər, ancaq Əli müəllimin övladları və nəvələri yaşıllığı mühasirəyə alaraq obyekt tikə bilərlər...

Obyektin yeni fotolarından göründüyü kimi, ərazidə tikilən restoran çox möhtəşəm olacaq.

Bu qədər ağacın məhv edilməsini yəqin ki, Əli müəllimin qardaşı, şəhərdə yaşıllığa baxan İlyas Həsənov (Sumqayıt Yaşıllaşdırma İdarəsinin rəisi) ört-basdır edir. Bir müddətdən sonra mühasirəyə alınmış bu çoxillik küknar ağaclarının aqibətinin necə olmasını güman etmək elə də çətin deyil.

Çox güman ki, icra başçısı cənab Zakir Fərəcov bu qanunsuzluqdan xərbərsizdir. Ona görə də hörmətli icra başçısına müraciət edərək bildiririk ki, yəqin o, "Bələdiyyə parkı"nda tikilən obyektin tikintisində baş verən "yaşıl soyqırım"a vaxtında "stop" deyəcək. Yoxsa mühasirəyə alınan onlarla çoxillik, nadir növ ağacların diblərinə ağ neft töküləndən sonra artıq gec olacaq. Və ümid edirik ki, bu məsələni Sumqayıt Ərazi Ekologiya və Təbii Sərvətlər şöbəsi də nəzarətə götürüb diqqətində saxlayacaq..."

### Əli Həsənov "Yeni Müsavat"a məktub yolladı - "... Təxribatdı"

**Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun imzası ilə redaksiyamızın poçtuna məktub daxil olub. Ə.Həsənov özünün və yaxınlarının barəsində yazılanlara reaksiya verib, təkzib edib. Həmin məktubu olduğu kimi dərc edirik:**



"Bu, sizin ikinci yazınızdır. Bu yazılara qəti etirazımı bildirirəm. Çünki həqiqətə uyğun deyil.

Əvvəla, qeyd etdiyiniz ünvana yaxın ərazidə 2 il bundan əvvəl 11.10.2016-cı il tarixdə torpaq sahəsi ayrılıbdır. Ayrılan yer asfalt örtükdür və həmin ayrılan yerdə bir dənə də ağac yoxdur və orada heç tikinti işi aparılmayıbdır. Eyni zamanda saytda yerləşdirdiyiniz videoda göstərdiyiniz yerin həmin ayrılan torpağa aidiyyəti yoxdur. Bu da növbəti təxribatdır. Bu barədə sizə danışan şəxslər isə həmin asfalt örtüyündən taksi dayanacağı kimi istifadə edən şəxslərdir. Heç bir Sumqayıt sakini mənim ünvanıma olmayan işə görə söz deməz. Mən buna tam əminəm. Çünki 30 il o şəhərin tikintisi ilə və yaşıllıqların salınması ilə məşğul olmuşam. O şəhər mənim üçün çox doğmadır və mən 50 ildir orada yaşayıram.

9 aydır müxtəlif qəzetlər, saytlar sifarişlə məni şantaj edirlər. O insanlar mənə bəllidir: sifariş verənlər də, idarə edənlər də.

Mən 50 ildir ki, dövlətimə xidmət edirəm. Onun 20 ilini qaçqın və məcburi köçkünlərlə işləmişəm. Həmişə dövlətçilik mövqeyində olmuşam. Nə qədər etimad göstəriləcəksə, o qədər də xidmətimi davam etdirəcəm.

Görünür, əlləri hər yerdən çıxıb, indi də mənim üçün əziz, doğma olan Sumqayıt şəhərinə əl atıblar.

Məsəl var: "Quyunu dərin qaz, gen qaz, özün düşəcəksən", "Nə atarsan aşına, o da çıxar qarşına", "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar".

Çox təəssüf edirəm ki, bizim bəzi insanlarımızda qısqanclıq o qədər yüksəkdir ki, onların vurduğu zərbələr çox dəhşətlidir. Bizdə az da olsa belə insanlar var.

Bir daha deyirəm. Mənim heç kimin qarşısında gözükölgəliliyim yoxdur. Bir insanın üzərinə bu qədər ədalətsiz yeriməzlər. Bu, artıq insanlıq çərçivəsindən kənara çıxmaqdır.

Siz məqalənin sonunda qeyd etmisiniz ki, adı çəkilənin mövqeyini dərc etməyə hazırsınız. Xahiş edirəm, vədinizə əməl edib, mənim müraciətimi dərc edin».

***Hörmətlə, Əli Həsənov***

❑ **Hazırladı: A.ALYARLI, "Yenì Müsavat"**

# Bayılda "şirinliklə" ev tikənlərin acı günləri başlayıb

**Bayıl yamacındakı sürüşmə ərazisində müəmmalı vəziyyət davam edir. Belə ki, ərazidə hazırda sürüşmə prosesi dayansa da, mütəxəssislər bir gün sonrakı vəziyyətin necə olacağını proqnozlaşdıra bilmirlər.**

Hazırkı durumla bağlı "Yeni Müsavat"a danışan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinin Geoloji planlama ekspedisiyasının rəisi Əziz Qaralov bildirib ki, onlar ərazidə işlər aparmaqda davam edirlər: "Hələ ki ərazidəki vəziyyətdə elə bir ciddi dəyişiklik yoxdur. Sürüşmənin aktiv fazadan çıxdığını da söyləmək olmaz. Bu ifadəni biz hələ ki işlədə bilmərik. Tədqiqat işləri onsuz da gedir. Hazırlaşırıq ki, növbəti həftədən orada başqa geoloji işləri həyata keçirək. Deyim ki, orada baş verən sürüşmə hadisəsinin səbəbi yaxın günlər, aylarla bağlı deyil. 2004-cü ildə orada işləyib, hesabat hazırlamışıq. Həmin hesabatda ərazini sürüşməyə məruz qalacaq, təhlükəli yer kimi qeyd etmişik. Hesabatımız Dövlət Arxiv Fondunda bu gün də saxlanılır. Həmin zaman hazırladığımız xəritədə sürüşmə yerlərini konkret olaraq qeyd etmişik. Deyim ki, bu gün sürüşmənin baş verdiyi ərazi hələ 2004-cü ildə göstərdiyimiz konturların daxilində gedir. Ərazi sürüşməyə meyllidir. Orada suvarma və digər bu kimi işlər olduqda isə sürüşmə aktiv fazaya keçir".



Mütəxəssislər hesab edirlər ki, orada əslində sürüşməyə yaxın yerlərdə evlərin tikintisi aparılmalı deyildi. Tikintinin aparılması nəticəsində yamacın kəsilməsi sürüşmənin aktivləşməsinə səbəb olan amillərdəndir. Sakinlər isə "Yeni Müsavat"a bildiriblər ki, ərazidə evi xəbərsiz, gizlin formada tikməyiblər. Başda Səbayel Rayon İcra Hakimiyyəti olmaqla, digər müvafiq qurumları məlumatlandırıb, onlara "şirinlik" verdikdən sonra evlərini tikiblər.

Hazırda Bayıl yamacında məskunlaşan sakinlərə Səbayel Rayon İcra Hakimiyyəti tərəfindən kirayə pulu verilir və onlar ərazidən çıxarılır. İlkin mərhələdə onların 11 aylıq müddətə ərazidən uzaqlaşdırılması nəzərdə tutulub. İndiyə qədər ərazidə 4 fərdi ev uçub ki, onlara da birdəfəlik kompensasiyanın veriləcəyi söylənilib. Fevralın 10-da həmin ərazidə tam dağılmış bu yaşayış evlərinin sahiblərinə kompensasiya ödənilməsi üçün tələb olunan vəsaitin məbləğinin 10 gün ərzində hesablanıb Nazirlər Kabinetinə təqdim olunması Fövqəladə Hallar Nazirliyi və Səbayel Rayon İcra Hakimiyyətinə tapşırılmışdı. Lakin hələ ki kompensasiyadan heç bir xəbər yoxdur.

Eyni zamanda bəzi sakinlər verilən kirayə pulu ilə də razı deyillər. Onlar bildirirlər ki, 250 manata Bayıl ərazisində kirayə ev tapmaq mümkün deyil. Uşaqlarının məktəb məsələsi və digər bu kimi problemlər olduğu üçün narazı sakinlər kənardan ev tutmağın onlara sərf etmədiyini söyləyirlər. Lakin verilən kirayə pulu ilə razılaşıb, evini tərk edənlər də az deyil.

**Ərazidəki vəziyyətlə bağlı "Yeni Müsavat"a danışan sakin Elməddin Muradlı bildirib ki, kirayə pulu ilə bağlı onlar da etiraz ediblər:** "Açıqlama verdilər ki, 8 nəfərdən çox ailə üzvü olanlara 300 manat kirayə pulu verəcəklər. Lakin bizim ailədə 9 nəfər olduğu halda 250 manat köçürüblər. Ona görə də narazı qalıb, Səbayel Rayon İcra Hakimiyyətinə müraciət etmişəm. Lakin verilən məbləğlə razı qalıb, kirayə köçənlər də var. Bu günlərdə dedilər ki, aşağı məhəllələrə təbii qazın verilişini bərpa edəcəklər. Hansı ki, həmin ərazilər sürüşmənin baş verdiyi yerdən xeyli aralıdadır. Ancaq hələ ki konkret olaraq qaz verilişi bərpa edilməyib. İnsanlar demək olar ki, hər gün evlərinə gəlib, nəzarət edirlər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri bildirirlər ki, ərazidə hər hansı bir aktivlik yoxdur".

**Sakin İlham Nurulu söyləyib ki, ailəsinə 200 manat kirayə pulu təklif olunsa da onlar bu pulu almaqdan imtina ediblər:** "Çox pis vəziyyətdə qalmışıq. Qazı, suyu, işığı kəsiblər, camaat evində odun sobası yandırıb, kənd şəraitində yaşayır. Heç bir söz də demirlər ki, məhəllənin qazını nə zaman verəcəklər. Əslində bizim ev sürüşmə sahəsindən xeyli aşağıdadır. Ancaq adımızı siyahıya salıb, köçməyimizi tələb edirlər. Ailə var ki, 6-7 nəfər üzvü var. Onlara gətirib 250 manat kirayə pulu veriblər. Bu qiymətə də ev tapmaq çətin məsələdir. 1 otaqlı evlər elə 250 manata kirayə verilir. Camaat görür ki, bu pulu götürsələr gərək gedib üstünə ciblərində əlavə pul qoyub kirayə ev tuturlar. Ona görə də çox adam pulu götürməyib havaların qızmasını gözləyirik. Deyirlər ki, havalar qızan kimi qayıdıb, öz evimizdə yaşayacağıq. Yəni bir sözlə, aləm qarışıb, bizə kömək edən də yoxdur. Ərazidə prokurorluğun yaratdığı komissiya fəaliyyət göstərir. Onlar da bizi çağırıb soruşurlar ki, burada ev tikməyə icazəni kimdən almısınız, neçənci ildə ev tikmisiz və sairə. Sürüşmə baş verən ərazidə isə heç bir aktivlik müşahidə olunmur. Bir neçə gün öncə güclü yağışlar yağanda camaat düşündü ki, sürüşmə aktivləşəcək. Ona görə hər kəs evini tərk etdi. Ancaq heç nə olmadı. Camaat səhər məhəlləyə qayıdıb, küçədə tonqal qalayıb, samovar qaynadır. Axşam isə kim qohum evində yaşayırsa, ora, kirayə ev tutan da həmin mənzilə gedir. Görək nə zamana qədər bu cür davam edəcək. Vəziyyətimiz çox pisdir".

❑ **Əlì RAÌS, "Yenì Müsavat"**



# Növbədənkənar seçkinin faydaları

**Zamin HACI**
zaminhaci@gmail.com

**Növbədənkənar prezident seçkisi elan olunanda bəziləri bu qərardakı gözəlliyi, mənanı anlamadılar. Hətta etiraz edənlər, aksiyalara çağıranlar oldu! Uca millətimiz isə həmişəki kimi tırkaya (məncə, bu gözəl sözü artıq bədii dilimizə salmaq qərarını Orfoqrafiya Nazirliyindən gözləməyə ümidli olmaq üçün haqlıyıq) getmədi, müdrikcəsinə susdu. Səbəblər yavaş-yavaş üzə çıxmaqdadır. Xalqın uzaqgörənliyinə şübhəmiz yoxdur. Xalq perspektivləri düşünür, stratejik yanaşır. El gücü, sel gücü. Bağban tələsər, armud vaxtında yetişər. Hər dərədə bir at öldürüb, baytar olub. Axırıncı, deyəsən, başqa köşədən gəldi bura düşdü, ancaq xətrinə dəyməyək, qoy müəyyən qədər də bu yazının içində yaşasın. Tolerant xalqıq, necə olmasa.**

Söhbət ondan gedir ki, az qala hər gün maaşların, pensiyaların, qonorarların artırılması xəbərləri gəlir. Dünən müəllimlərin maaşını 10 faiz artırdılar. Düzdür, bəzi müəllimlər qərarın mahiyyətini anlamaqda çətinlik çəkir, başa düşmürlər hansı müəllimlərdən söhbət gedir. Sinəsi bülletenli müəllimlərdən, yoxsa ürəyi maarif eşqiylə yananlardan? Yəqin bunu izah eləmək üçün televiziyada işləyən kadrların maaşını da 10 faiz artırmaq lazım gələcəkdir. Srağağün tələbələrin təqaüdü 1 dönər və ayran qədər artırıldı. Tasrağagün *(bu zaman vahidinə rəhmətlik Qarabağ bölgəsində "taisrayın" deyirdilər, ola bilsin bunun qədim kökləri İsrail övladlarına tolerant yanaşmağımızla bağlıdır)* 5 uşaqlı anaların pulları 3 manat çoxaldıldı. Kimin 4 uşağı varsa, bundan yaxşı stimul olarmı? Cəmi 9 aya məsələni həll edib hər ay 3 manat artıq vəsait əldə etmək ailə büdcəsini zənginləşdirmirmi? Halbuki dünənə, daha doğrusu, taisrayınacan beşuşaqlı ailələr ayda 30 manat alırdılar. İndi 33 manat olmuşdur.

Sözgəlişi, indi diqqət elədim, "beşuşaqlı" sözü təxminən "beşaçılan" kimi səslənir. Bu isə bizim ərazi bütövlüyü uğrunda mübarizəmizə daha bir rövnəq verir, bizi yeni-yeni qələbələrə səsləyir! Qış gözünə barmağım, Yaza çıxdı oğlağım!

İndi mən sizdən soruşuram: həyatınız boyunca haçan fevral-mart aylarında maaş-penisiyanın artmasını görmüşdünüz? Belə artımlar büdcə tənzimləməsi baxımından ya ilin axırında, ya il girəndə olur. Uzağı ilin ortasında, o da nöyütün qiyməti qalxsa, pul yığılsa, Elman müəllim 3 telini sağa darasa və sairə. Fevralda heç vaxt maaş artmırdı, buna görə sevgili xalqımız bu aya "Kiçik çillə" adı vermişdir. Əfsanə də var, deyir bir gün fevral yanvara deyir ki, səndəki büdcə məndə olsaydı benzini, qazpulunu hər gün qaldırardım, qoy azərbaycanlıların beli qırılsın. Mart isə tarixən "Boz ay" olmuşdur, yəni burda rəngli pullar artmır.

Bəs indi nə təhər oldu birdən-birə fevral-martda maaşlar qalxdı? Yenə anlamayanlar varsa, yazıram: seçkiyə görə! Bu səbəbdən millət seçkinin qabağa çəkilməsinə sevinirdi. Çünki seçki oktyabra qalsa maaşı 3 manat artırmağın bəlkə inflyasiya səbəbindən anlamı, mənası olmayacaqdı. İndi isə ye, iç, kef elə. Üç manata bir kilo pomidor almaq olar. Hətta xahiş edərdik, mümkündürsə, oktyabrda seçki yenə keçirilsin. Ürəyimiz açılır. Süfrəmizdə barmaq qoymağa yer qalmır.

Seçkinin qabağa çəkilməsinin xeyri görün nə dərəcədədir ki, hətta Milli Şura Müsavat Partiyasına dəvətnamə göndərib, deyir, gəlin birlikdə mitinq qayıraq! Fantastikadır. Dünənə qədər Milli Şura Müsavata, Müsavat da Milli Şuraya "iqtidarın adamları", "Rusiyanın projesi", nə bilim, adamyeyənlər qəbiləsi-filan deyirdi. Hətta İsa Qəmbər xəstələnəndə bir əski müsavatçı belə diaqnoz qoymuşdu: "İsa bəyin vəziyyəti Əli Kərimlini sevindirəcək vəziyyətdə deyil". İndi isə dəvətnamə göndərirlər. Deməli, növbədənkənar seçki müxalifət daxilində də milli birlik yaratmışdır.

Hələ xeyri çox olacaq, tələsməyin. Üzə çıxır.




# Bakı qapılarını ABŞ-ın ən böyük təşkilatının üzünə qapayır

## USAİD-in Azərbaycandan gedəcəyi ilə bağlı iddialar gerçəkləşir; **qurumun Avropa və Avrasiya Bürosu üzrə müavini Brok Birman:** "Bizim fəaliyyət göstərməyimiz üçün ümumiyyətlə, qapılar açıq deyil"; Rusiya isə Azərbaycanda yeni mərkəz açmaq niyyətindədir

**"Azərbaycanla USAİD arasında uzunmüddətli tərəfdaşlıq var idi. Bununla yanaşı, onu da qeyd etmək istəyirəm ki, son bir neçə il ərzində bizim aramızda, USAİD təşkilatının Azərbaycanda işinə maneçilik törədən müəyyən məsələlər gündəmə çıxıb. Bu məsələlər, ziddiyyətlər bizim aramızda olan ikitərəfli yardım sazişi ilə ziddiyyət təşkil edir".**

Bu barədə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Administratorunun Avropa və Avrasiya Bürosu üzrə müavini Brok Birman Azərbaycana üçgünlük səfərinin yekunları ilə bağlı fevralın 28-də keçirdiyi mətbuat konfransında bildirib ("Turan").

O deyib ki, Azərbaycan hökumətinin nümayəndələri ilə çox açıq və səmimi şəkildə keçirilən görüşlər zamanı öz fikrini bildirib.

"Sözügedən çətinliklər və məsələlərin aradan qaldırılmasını gözləyirəm. Yeri gəlmişkən, onu da nəzərinizə çatdırmaq istərdim ki, sözügedən görüşlər zamanı mənə maneələrin aradan qaldırılmasına dair zəmanətlər verilmişdi. Sizinlə görüşə gəlməmişdən öncə çox inanmaq istərdim ki, sizə müsbət bir ismarış çatdıra bilim. Amma çox əfsuslar olsun ki, ümumiyyətlə hiss etdim ki, hər hansı bir irəliləyiş olmayıb və problemlər öz yerində qalıb. Ümumiyyətlə, biz Azərbaycanda iqtisadi inkişaf istiqamətində həyata keçirdiyimiz iş baxımından müsbət ismarış çatdırmaqda uğur qazana bilməyəcəyik", - USAİD-in rəsmisi media nümayəndələrinə deyib.

Brok Birman «Amerikanın səsi»nin bundan sonra USAİD ilə Azərbaycan arasındakı əməkdaşlığın necə olacağı və Azərbaycanla əsas mübahisə doğuran məsələnin nə olması ilə bağlı suallarının cavabında deyib ki, Azərbaycana səfəri zamanı müxtəlif nazirliklərin təmsilçiləri ilə görüş imkanı əldə edib.

"Ədliyyə, Kənd Təsərrüfatı, Vergilər nazirliklərində görüşlər keçirdim. Görüşlər əsnasında müəyyən məsələlərin həll olunması istiqamətində onların yardımını istədik. Bu məsələlər bizim tərəfdaşlarımızın qeydiyyatı və vergilərin ödənilməsinə dair olan məsələlər idi. Əfsus ki, bu məsələlərdə bizə yardım olunmadı".

**O, "Amerikanın səsi"nin "USAİD Azərbaycana hansı istiqamətlər üzrə yardım etmək istəyir ki, - məsələn, demokratiya, insan haqları, vətəndaş cəmiyyəti və sairə, - razılıq əldə olunmur" sualının cavabında belə deyib:** "Əslində mənə aydın oldu ki, burada iqtisadi inkişaf istiqamətində bizim fəaliyyət göstərməyimiz üçün ümumiyyətlə, qapılar açıq deyil. Bu kimi ismarıcı mən Vaşinqtona da, bizim tərəfdaşlara da, özəl sektorun nümayəndələrinə də çatdıracam. Mənə elə gəlir ki, hökumət çox açıq olan bir ismarış göndərir. Yəni bu ismarış, çox sağ olun, eyni zamanda da çox sağ olmayın ismarışı kimi səslənir".

"USAİD-in Azərbaycanda fəaliyyəti dayandırıla bilərmi" sualına cavabında o, birmənalı heç nə deməyib. Amma aydındır ki, USAİD təmsilçisi Bakıdan məyus ayrılıb və tezliklə bununla bağlı qərarın veriləcəyi gözləniləndir.

Qeyd edək ki, ABŞ prezidenti Donald Tramp Dövlət Departamentinin xətti ilə bir sıra inkişaf etməkdə olan ölkələrə maliyyə yardımını azaltmaq və ya tamamilə ləğv etmək barədə seçkiqabağı vəd vermişdi. Onların sırasında Azərbaycanda da fəaliyyət göstərən USAİD-ə maliyyə yardımını minimal həddə azaltmaq da vardı. **ABŞ-ın Azərbaycandaki səfiri Robert Sekuta bu günlərdə deyib ki, USAİD-ə ayrılacaq yardımın dəqiq məbləği hələlik müəyyən edilməyib:** "Konqresdə yardımın məbləğinin müəyyən edilməsi ilə bağlı müzakirələr davam edir".

Sirr deyil ki, illərdir ki, ABŞ marağı olan ölkələrdə öz varlığını bu kimi təşkilatlar vasitəsilə göstərib. Təsadüfi deyil ki, bir sıra postsovet ölkələri USAİD də daxil olmaqla, ABŞ təşkilatlarını "rəngli inqilabları hazırlamaqda və maliyyələşdirməkdə" ittiham edib, hətta fəaliyyətlərini dayandırıb.

Yada salaq ki, 2009-cu ildən başlayaraq ABŞ-ın Milli Demokratiya İnstitutu (MDİ) və Beynəlxalq Respublikaçılar İnstitutu kimi demokratiyaya, vətəndaş cəmiyyətinin inkişafına yardım edən təşkilatları da Azərbaycanda fəaliyyətlərini dayandırıblar. İndi isə belə görünür ki, Azərbaycanda fəaliyyəti dayandırılan ABŞ təşkilatlarının sırasına USAİD də daxil olacaq. Hökumətin təşkilatın əsas rəhbərlərindən birinə mesajlarından bunu anlamaq mümkündür.

ABŞ prezidentinin kəskin tənqid edilən xarici siyasətinin bir parçası olan yardımların USAİD xətti ilə dayandırılmasının maliyyə baxımından Azərbaycana heç bir təsiri ola bilməz. Amma regional-coğrafi yerinə görə həm ətraf ölkələrin, həm Qərbin maraqlarının kəsişdiyi Azərbaycanda ABŞ institutlarının bir-bir ölkəni tərk etməsi yaxşı hal sayıla bilməz.

ABŞ-ın Azərbaycanda fəaliyyətini məhdudlaşdırması yaxın qonşularımızı Bakıya yerləşməyə həvəsləndirir ki, bunun artıq ilkin siqnalları gəlməkdədir. Xüsusilə Rusiya həm açıq, həm qapalı dairələrdə ortaya qoyduğu mövqeyi ilə "Azərbaycanı daha da yaxınında görmək" istədiyini gizlətmir.

Məsələn, hələ bir neçə ay əvvəl Beynəlxalq Avrasiya Hərəkatının lideri Aleksandr Duqin Bakıda ofis yaratmaq istəyini dilə gətirmişdi. Dünən isə Rusiya Fövqəladə Hallar Nazirliyi yanında "Emerkom" Rusiyanın Beynəlxalq Humanitar Əməliyyatlarda İştirakının Təminatı və Əlaqələndirmə Agentliyinin direktoru Yuri Brajnikov maraqlı bir açıqlama verib (virtualaz.org). Yuri Brajnikov deyib ki, ilk dəfə Serbiyanın Niş şəhərində Rusiya-Serbiya Humanitar Mərkəzi yaradılıb: "Bu bizim ümidlərimizi doğrultdu. İkinci mərkəzi İrəvanda açmışıq. Növbəti mərkəz isə Bakıda yaradılacaq".

❑ "YM"

YENİ MÜSAVAT
N 49 (6938) 2 mart 2018

# Qarabağ probleminin dinc həll yolu artıq yoxdur- sensasion iddia

**Aprel ayında Azərbaycanın erməni işğalçı qüvvələri üzərində blits-hərbi qələbəsinin ikinci ildönümü tamam olacaq. Düşmənin öz ordusu haqda illərdir yaratdığı "məğlubedilməz" mifini cəmi bir neçə gündə darmadağın edən Azərbaycan əsgəri erməni tərəfə bununla həm də aydın şəkildə mesaj verdi ki, böyük hərbi qələbə də uzaqda deyil.**

## Trofimçuk: "Rusiya ermənilərin tərəfini tutsa, Türkiyə və ABŞ Azərbaycan tərəfdən müharibəyə qoşulacaq"; Xramçixin: "Beynəlxalq birlik deyilən anlayış yoxdur, bu, boş sözdür..."



Azərbaycan prezidentinin köməkçisi Əli Həsənovun bir neçə gün öncə Avropa Azərbaycanlıları Konqresinin qurultayındakı çıxışında söylədiyi bir fikri bu yerdə xatırlatmağa dəyər. **Əli Həsənov deyib:** "Azərbaycan regionda ən döyüşkən və hərbi-texniki planda ən mükəmməl orduya malikdir. Azərbaycan hər il öz təhlükəsizliyinin təmin edilməsinə 3-4 milyard dollar xərcləyir. Dövlətimiz gücünü aprel müharibəsində də nümayiş etdirdi. Bizə mane olmasalar, bir həftəyə, maksimum bir aya bütün işğal olunmuş ərazilərimizi qaytara bilərik".

Bu, mübaliğəsiz belədir. Bizə əngəl yaradan qüvvələr və ya dövlətlər də əslində məlumdur. Onların başında Rusiya gəlir. Azərbaycan bu amili hansısa formada neytrallaşdıra bilsə, o zaman böyük hərbi qələbəmizin də yolu açılmış olacaq. Çünki Ermənistanın Azərbaycanla uzunmüddətli və qalibiyyətli müharibə aparıb ərazilərimizi işğalda saxlamağa yetərli hərbi, iqtisadi və insani resursları yoxdur. Bunu bir çox erməni ekspertləri də etiraf edir. Odur ki, yeganə ümidləri Rusiyayadır.

Bu xüsusda rusiyalı iki tanınmış hərbi və siyasi ekspertin - Qriqori Trofimçuk və Aleksandr Xramçixinin fikirləri maraq doğurduğu qədər də düşündürücüdür. "Yeni Müsavat" 1 in.am nəşrinə istinadən onları təqdim edir.

*****

**Moskvadakı Siyasi və Hərbi Təhlil İnstitutunun direktor müavini Aleksandr Xramçixin konflikt ətrafında son durumu şərh edərkən öncə deyib ki, Azərbaycan hərb əməliyyatlara istənilən istiqamətdən başlaya bilər:** "Bəli, Azərbaycanın bir neçə tərəfdən hücuma keçmək imkanı var. Əgər o, Ermənistan Respublikasının ərazisinə hücum eləsə, o zaman bununla özü üçün bir sıra ciddi siyasi problemlər yaradacaq. Yox, öz ərazi bütövlüyünü bərpa eləmək adı ilə Qarabağa girsə - bu, artıq ayrı anlam daşıyacaq. Ermənistana hücum isə təcavüz sayılacaq. Bunlar prinsipial fərqli şeylərdir".

Lakin məlumdur ki, Azərbaycan heç bir ölkəyə, o cümlədən Ermənistana hücum eləməyə hazırlaşmır. İstənilən halda sual ortaya çıxır ki, Ermənistanın hərbi müttəfiqi, bu ölkədə hərbi bazalar saxlayan və işğalçı ölkənin Rusiya və İranla sərhədlərini qoruyan Rusiya özünü hər iki halda necə aparacaq? Rusiya konfliktə müdaxilə edəcəkmi?

**Politoloq Qriqori Trofimçuka görə, Rusiya 2016-cı ilin aprelində özünü necə aparmışdısa, yenə elə aparacaq:** "Yeni Moskva neytral mövqe tutaraq, tərəfləri hərbi əməliyyatları dayandırmağa və siyasi-diplomatik danışıqlara başlamağa çağıracaq. Başqa sözlə, Rusiya heç kimin tərəfində münaqişəyə girməyəcək, o cümlədən hətta Ermənistanla KTMT çərçivəsində strateji müttəfiq olsa belə, onun tərəfini tutmayacaq. Çünki əgər Rusiya Ermənistanın tərəfində konfliktə qoşulsa, o zaman Azərbaycan tərəfdən də çox ciddi hakimiyyət mərkəzləri, ilk növbədə də Türkiyə, ABŞ və başqaları müharibəyə qoşula bilər".

*****

**"Bəs Azərbaycan Ermənistana hücum eləsə, Bakının tək Rusiya ilə problemləri olacaq, yoxsa bütövlükdə beynəlxalq birliklə"-erməni jurnalistin bu təxribatçı sualına Aleksanr Xramçixin belə cavab verib:** "Mən bilmirəm beynəlxalq birlik nə deməkdir. Bu, frazadan savayı bir şey deyil. Amma əgər bu suala cavab versək, o zaman Bakının Rusiya və müəyyən "maraqlı tərəflərlə" problemi olacaq".

**Xramçixinin qarşıdakı hadisələrlə bağlı proqnozları ermənilər üçün bütövlükdə optimist ruhda deyil. Onun sözlərinə görə, Azərbaycanın hərbi əməliyyatlara başlayıb öz ərazi bütövlüyünü bərpa eləməkdən başqa seçimi qalmayıb.** "Nədən ki, artıq aydındır ki, problem dinc yolla həllini tapmayacaq", - deyə o qeyd edib.

"Azərbaycanın başqa yolu yoxdur. O, heç olmasa, özünün ərazi bütövlüyünü bərpa eləməlidir. Bu, onun üçün, necə deyərlər, milli ideologiyadır. Bundan əlavə, ABŞ-ın milli kəşfiyyatının rəhbəri bəyan edib ki, konflikt bu il (may-iyunda - red.) bərpa oluna bilər. İstisna deyil ki, amerikanlar müharibəni sadəcə, təxmin eləmirlər, həm də arzulayırlar. Çünki bu, onlardan ötrü sərfəlidir. Nədən ki, Rusiya zərbə almış olacaq. Ermənistan və Azərbaycan Amerika üçün maraqlı deyil. Amma Qarabağda müharibə Rusiyaya zərbə demək olardı. Bu səbəbdən onlar məmnuniyyətlə, müharibəni qızışdıra bilərlər - Azərbaycanın əli ilə. Başqa cür mümkünsüzdür".

Sözünə davam edən rusiyalı ekspert deyib: "Hamı həmişə sülhdən danışır. Əslində isə heç nə sülh yolu ilə həll olunmur. Bütün problemlər məhz hərbi vasitələrlə çözülür. Dağlıq Qarabağın timsalında isə mən, sadəcə olaraq, anlamıram, əgər münaqişə tərəflərinin mövqeyi bir-birinə diametral ziddirsə, problemi dinc yolla necə nizamlamaq olar? Dinc həll yoxdursa, hərb variantı qalır. Əgər tərəflər hansısa məsələ ilə bağlı anlaşa bilmirsə, mən münaqişənin sülh yolu ilə həlli imkanını görmürəm. Deməli, hərb yolu qalır. Bütün konfliktlər praktik olaraq belə qurulub. Məsələn, Çeçenistan problemi haqda deyirdilər ki, onun hərbi həll yolu yoxdur, amma hərbi vasitələrlə həll edildi".

*****

Müstəqillik uğrunda milli-azadlıq hərəkatı aparan və öz tarixi torpaqlarında yaşayan çeçen xalqı ilə Qarabağdakı bir ovuc gəlmə separatçını müqayisə eləmək qüsurlu olsa da, hər iki məsələyə Kremlin ikili standart yanaşmasını xüsusi vurğulamaq lazım gəlir. Bu yanaşma da ondan ibarətdir ki, Çeçenistanı qan gölündə boğmaqla problemi "həll edən" Rusiya nədən Azərbaycana gələndə Bakıya belə haqq tanımaq istəmir və Lavrovun dili ilə "Qarabağda müharibə Azərbaycanın daxili məsələsi deyil" deyir? Hərçənd rusiyalı analitiklərin dedikləri Lavrovu tamamən təkzib edir. Üstəlik, 2016-cı ilin aprel presedenti var.

Əslində Azərbaycan ordusu keçmiş DQMV-nin ərazisinə girmədən də müharibənin taleyini həll edə bilər. Dağlıq Qarabağ ətrafında bir neçə rayonun ildırım sürəti ilə azad edilməsi yetər ki, erməni tərəf direniş göstərməyin mənasızlığını anlasın. O zaman Rusiyanın seçiminə də vaxt və lüzum qalmayacaq...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Seçkiyə qalan 40 gün-üç böyük güc hansı mövqedədir?

## Politoloq: "Seçki ilə bağlı Avropa İttifaqının və ABŞ-ın ilkin münasibətləri namizədlərin qeydiyyatından sonra olacaq"

**Azərbaycanda növbədənkənar seçkiyə ölkəmizdə marağı olan böyük güclərin reaksiyasının necə olduğu və hansı mövqedə olduqları hələ tam aydın deyil. ABŞ dövlət katibi müavininin müşaviri, xanım Bricet Brink Azərbaycanda təyin olunmuş növbədənkənar prezident seçkiləri ilə bağlı deyib: "Seçkilərlə bağlı Azərbaycana tövsiyəmiz ondan ibarətdir ki, seçkilər ölkə konstitusiyasına və beynəlxalq öhdəliklərə uyğun olaraq azad və ədalətli keçirilsin. ABŞ demokratik prosesləri, insanların sərbəst toplaşması, fikirlərini azad ifadə edə biləcəyi, azad medianın olduğu mühiti dəstəkləyir".**



ABŞ səfiri səfiri Robert Sekuta isə seçki ilə bağlı açıqlamasında belə deyib: "ABŞ dövlət katibinin köməkçisinin müavini Bricet Brink Azərbaycanda səfərdə olarkən seçkilərlə bağlı müəyyən fikirlər səsləndirdi. Mən isə bizim dövlət katibi Reks Tillersonun Misirdəki seçkilərlə bağlı fikirlərinə istinad etmək istəyirəm. O bildirib ki, ABŞ bütün ölkələrdə olduğu kimi, Misirdə də şəffaf və nəticəsinə inanıla bilən seçkilərin keçirilməsinin tərəfdarıdır. Elə bir seçkilər ki, orada hər bir vətəndaşa öz seçimini, öz mövqeyini ədalətlə və azad şəkildə ifadə etmək imkanı yaradılsın. Biz bu məqamlara diqqət yetirərək fikrimizi açıqlayacağıq".

Avropa Birliyi isə tamamilə susur, seçki ilə bağlı hər hansı mövqe ifadə edilməyib.

Rusiya isə Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın dili ilə "Seçki Azərbaycanın daxili işidir" deyə münasibətini ortaya qoyub.

Bəs indiyə qədər verilən reaksiyalar, o cümlədən susqunluq qarşıdakı dövr üçün nə vəd edir? Adıçəkilən güclərin mövqeyi necə olacaq?

Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, İlham Əliyev prezident seçkisini aprelin 11-nə təyin etməklə müxtəlif ölkələri və mərkəzləri çaşqın vəziyyətə saldı. Azərbaycanda hər zaman seçki prosesinə üç mərkəz diqqətlə yanaşıb. Bu, ABŞ, Avropa Birliyi və Rusiyadır. ABŞ və Rusiya seçki prosesinə bu və ya digər şəkildə təsir etməyə çalışıblar, Avropa Birliyi isə prosesə seçkidən sonra rəy verib. Bu dəfə tam fərqli situasiya yaranıb: "ABŞ rəsmiləri və diplomatları 11 aprel prezident seçkisinə xüsusi maraq göstərmirlər, sadəcə, deyirlər ki, seçkilərin şəffaf və ədalətli keçməsini istəyirlər. Rusiyanın başı özünə qarışıb, martda bu ölkənin özündə prezident seçkisidir, indi kampaniyanın ən aktiv dövrüdür. Yəni Rusiyadakı mərkəzlər 2013-cü ildə olduğu kimi, Azərbaycandakı seçki prosesinə qarışa bilməyəcəklər, keçmişdə var olan "milyarderlər ittifaqı"nı formalaşdırmayacaqlar. Buna vaxt da yoxdur. Həm də ki, hazırda Rusiya Azərbaycanla əməkdaşlıqdan razıdır, niyə hansısa dəyişikliyə maraq göstərsin ki? O ki qaldı Avropa Birliyinə, Brüssel Azərbaycanın indiki hakimiyyəti ilə əməkdaşlığını davam etdirir, ortaq enerji layihələrinin icrası prosesi davam edir, ticarət mübadiləsi artır. Ona görə də Avropa Birliyi rəsmiləri və diplomatları hansısa detalı əllərində rəhbər tutaraq Azərbaycan hakimiyyətini seçkiqabağı vəziyyətə görə tənqid etmək istəmirlər. Digər tərəfdən, rəsmi Bakı Avropadakı bir çox təşkilatı seçkini müşahidəyə dəvət edib. Yəni narazılıq üçün hazırda zəmin də yoxdur".

**Politoloq Elşən Mustafayev də bildirdi ki, ölkədə prezident seçkisinin bu ilin oktyabrından aprel ayına salınması Azərbaycan daxilində nə qədər gözlənilməz oldusa, Qərb üçün ondan da artıq gözlənilməz oldu. Susqunluğun isə səbəbləri var:** "Seçkinin vaxtının dəyişdirilməsi səbəblərinin inandırıcı olub-olmamasını, bununla bağlı hələ də mübahisələrin və müzakirələrin getdiyini bir kənara qoysaq, prosesin özü konstitusiyaya uyğun olaraq aparılıb. Avropa İttifaqının susqunluğunu da ilk baxışda bu aspektdən görürəm. Amma adətən seçkilər öncəsi Qərb institutları, xüsusilə Avropa İttifaqı Azərbaycan hakimiyyətinə müxtəlif tövsiyyələr, təkliflər verib ədalətli seçkilərin keçiriləcəyinə ümid etdiklərini bildirirdilərsə, bu dəfə hələ ki heç bir bəyanat, müraciət yoxdur. Hesab edirəm ki, bunun özü artıq seçkiyə bir münasibətdir. Düşünürəm ki, seçki ilə bağlı Avropa İttifaqı və ABŞ-ın ilkin münasibətləri namizədlərin qeydiyyatı yekunlaşandan sonra olacaq və seçkilərdən sonra da davam edəcək. Azərbaycan və Qərb arasında davam edən hazırkı soyuq münasibətlər baxımından bunların olmaması üçün səbəblər görmürəm. Rusiya isə seçkinin nəticələrini alqışlayacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 49 (6938) 2 mart 2018

# Rusiyanın qadağa qoyduğu məhsullar Bakı mağazalarında

## Şimal qonşumuz Belarus süd məhsullarının idxalına qadağa qoyub, Azərbaycan paytaxtında bundan xəbərsizdirlər, həm də...

**Fevralın 26-dan etibarən Rusiya Belarus süd məhsullarının idxalına qadağa qoyub. "Rosselxodnadzor" bəyan edir ki, qadağa Avrasiya İqtisadi İttifaqı və Rusiya Veterinar-Sanitar tələblərinin pozuntuları ilə əlaqədardır. Məlum olduğu kimi, 2017-ci ildə Belarus Rusiyaya süd məhsullarının əsas idxalçısı idi.**

Xatırladaq ki, 2014-cü ildə də Rusiya Belarusda istehsal olunan ət və süd məhsullarının ölkəyə idxalını dayandırmışdı. Rusiyanın müvafiq qurumu bu addımını həmin məhsulların sanitar-epidemioloji normalara cavab verməməsi ilə əsaslandırmışdı. Buna cavab olaraq həmin il Belarus hakimiyyəti də Rusiyada istehsal olunan bir sıra ərzaq məhsullarının ölkəyə idxalını qadağan etmişdi. Həmin ərzaq siyahısına makaron növləri və üyüdülmüş "Mokka" qəhvəsi daxil idi. Belarusun baş sanitar həkimi İqor Qayevskinin sözlərinə görə, bu ərzaq məhsulları sanitar normalara uyğun deyil. 2015-ci ildə isə Qazaxıstan prezidenti Nursultan Nazarbayev Belarus prezidenti Aleksandr Lukaşenkonu onun ölkəsinə təbii süd əvəzinə süd tozundan hazırlanmış maye "itələməkdə" ittiham etmişdi. Bu haqda Rusiya-Qazaxıstan regionlararası iqtisadi forumunda söhbət getmişdi. Nazarbayevin sözlərinə görə, Avrasiya İttifaqına daxil olan ölkələr arasında ərzaq məhsullarının tərkibinə və xammalın keyfiyyətinə dair yeni standartlar, dəqiq texniki reqlamentlər tətbiq edilməlidir. Belə standartların olmaması nəticəsində bəziləri bazarda haqsız rəqabət imkanları əldə edir:







"Elementar olaraq təbii və tozdan hazırlanmış süd arasında dəqiq sərhəd müəyyən edilməyib. Biz dostumuz Aleksandr Qriqoryeviçlə mübahisə edirik, o, bura süd tozu itələyir, süd tozu qarışdırılıb satılır. Bu, heç də təbii süd deyil" - Nazarbayev bildirmişdi.

**Qazaxıstan prezidentinin sözlərinə Rusiya prezidenti Vladimir Putin də dəstək vermişdi: "Bu, əslində süd deyil, süd içkisidir".**

Eləcə də 2009-cu ildə də süd tozundan hazırlanmış süd üstündə Belarusla Rusiya arasında ciddi iqtisadi qarşıdurma yaranmışdı. İki ölkə arasında "süd müharibəsi" zamanı Rusiya Belarusdan süd və süd məhsullarının idxalına qadağa qoyub, əvəzində Lukaşenko Rusiyadan ölkəyə süd və süd məhsullarının idxalını dayandırmışdı. Lakin sonda Belarus Rusiyanın tələbləri ilə razılaşaraq bu ölkəyə təbii süd və "süd içkisi" idxalını ayırmışdı.

Qeyd edək ki, Belarusdan ölkəmizdə çoxsaylı çeşiddə süd məhsulları gətirilir. Əhalinin də bu məhsullara tələbatı böyükdür. Hətta iki il öncə paytaxt Bakıda Belarus ərzaq, o cümlədən ət və süd məhsulları mağazası açılıb. Beləliklə, Rusiya Belarusdan gətirilən süd məhsullarına qadağa qoysa da, ölkəmizdə hələ də bu məhsullar satılır və geniş alıcı kütləsi var.




Məsələ ilə bağlı əməkdaşımız paytaxtdakı mağazalarda olub. Əməkdaşımızın müşahidəsinə görə, satıcılar Rusiyanın bu qərarından xəbərsizdir. Eləcə də alıcılar Rusiyanın qadağasına məhəl qoymadığını, keyfiyyətinə etibar edərək daim Belarus süd və ağartılarını aldıqlarını bildirib. Müşahidəmiz zamanı məlum oldu ki, alıcılar daha çox Belarus istehsallı "Savuşkin", "Brest-Litovsk" firmasından olan süd, pendir, yağ, yoğurt məhsullarına üstünlük verir.

**"Ümumiyyətlə, ölkəmizdə çox təhlükəli qida məhsulları var". Bu sözləri Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a açıqlamasında bildirib. Qurum sədri ölkəmizdə qidanın təhlükəsizliyi ilə bağlı qanunun olmamasından şikayətlənib:** "Qanun olmayan yerdə cinayət baş verir. Ötən il ölkə prezidenti Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ilə bağlı sərəncam imzaladı. Lakin agentlik bu gün heç bir iş aparmır, kifayət qədər ictimai şəffaf iş gözə dəymir. Beləliklə, ölkədə kifayət qədər təhlükəli qida məhsulları var. Bu da insanların sağlamlığında mənfi izlər buraxır. O cümlədən də Belarusdan gətirilən qida məhsulları səthi yoxlanılır, yalnız gigiyenik sertifikatı verilir. Lakin demək olmaz ki, bir ölkədən gətirilən bütün məhsullar təhlükəlidir. Onların hamısı ekspertizadan keçməlidir. Hər halda, Rusiyanın qadağan etdiyi məhsulun Azərbaycana gətirilməsi istisna olunmur".

**❑ Xalidə GƏRAY,**
**Musavat.com**
**Fotolar müəllifindir**

# Bakıda silahla həbs edilənlərin sayı artıb-təhlükə



## Mahmud Hacıyev: "Azərbaycanlılar qafqazlı olaraq evdə silah saxlamağa, silahla gəzməyə meyllidirlər"

**Azərbaycan regionda olduqca həssas dönəmə- növbədənkənar prezident seçkisi mərhələsinə qədəm qoyub. Düzdür, Azərbaycanda sabitlik var və kriminogen durum nəzarət altındadır. Son günlər polis xüsusilə paytaxt Bakıda silahlı şəxslərə qarşı uğurlu əməliyyatlar aparıb.**

DİN-in mətbuat xidməti xəbər verir ki, Sabunçu Rayon Polis İdarəsi 14-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəllər məhkum olunmuş, Maştağa qəsəbə sakini İmran Cavadov qanunsuz olaraq odlu silah gəzdirməkdə şübhəli bilindiyi üçün saxlanılıb. Onun evinə baxış keçirilən zamanı çarpayının altında gizlətdiyi 1 ədəd "Naqan" markalı tapança və 3 ədəd patron aşkar olunaraq götürülüb. Sabunçu Rayon Polis İdarəsi Cinayət Axtarış Şöbəsi əməkdaşlarının həyata keçirdikləri digər bir əməliyyat nəticəsində isə əvvəllər məhkum olunmuş Balaxanı qəsəbə sakini Bəybala Qarabəyov saxlanılıb. Polis idarəsində hal şahidlərinin iştirakı ilə onun üzərində şəxsi axtarış keçirilən zaman əlindəki çantanın içərisindən sandıqçasında 10 ədəd patron "AKS-74" markalı avtomat aşkar olunaraq götürülüb.

Səbayel Rayon Polis İdarəsi 8-ci polis bölməsinin əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz tədbirlər nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Abzər Abzərov saxlanılıb. Bölmədə hal şahidlərinin iştirakı ilə onun üzərində şəxsi axtarış keçirilən zaman əlindəki çantanın içərisindən sandıqçasında 21 ədəd patron olan "AK-74" markalı avtomat aşkar olunaraq götürülüb. A.Abzərov odlu silahı satmaq məqsədilə Bayıl qəsəbəsinə gətirdiyini bildirib.

Nizami polisinin əməkdaşları Naxçıvan şəhər sakini Rəhim Bayramovdan "EKOL" markalı pnevmatik tapança götürülüb. Masallı rayonunda da xeyli silah-sursat götürülüb. Daxili İşlər Nazirliyinin saytında yer alan məlumatda qeyd edilir ki, Masallı RPŞ-nin əməkdaşları tərəfindən Səmidxan kənd sakini Pərviz Səmədovdan nömrəsi silinmiş "AKS" markalı silah, 5 ədəd qumbara, 5 ədəd alışdırıcı, 50 ədəd avtomat patronu və 2 ədəd patron darağı götürülüb.



**Sabiq polis rəisi Mahmud Hacıyev deyir ki, vətəndaşlarda silah-sursat aşkar olunmasına bir neçə kontekstdən yanaşmaq lazımdır:** "Azərbaycan Qafqaz ölkəsidir, Cənubi Qafqaz milləti kimi odlu silaha, soyuq silaha tarixən meyl güclü olub. Azərbaycanlılar qafqazlı olaraq evdə silah saxlamağa, silahla gəzməyə meyllidirlər".

**M.Hacıyev əhalinin silahı haradan əldə etməsi haqda bunları deyib:** "SSRİ dağılandan sonra sovet qoşunları Azərbaycanı qeyri-nizamlı şəkildə tərk etdilər. Yəni silahları, hərbi hissələri qanuni şəkildə təhvil verib getmədilər. Bilərəkdən, kortəbii surətdə, silahları səpələyərək ölkəni tərk etdilər. Həmin illərdə müəyyən qisim insanların əlinə silah keçdi".

**Sabiq polis rəisi silahların əhalinin əlinə keçməsinin bir səbəbinin də müharibə olduğunu bildirdi:** "Ermənistanla müharibə şəraitində olmağımız sərhəd bölgələrində yerləşən rayonlarımızın əhalisinin silahlanmasına səbəb olmuşdu. O dövrlər Müdafiə Nazirliyi yox idi, müstəqil özünümüdafiə batalyonları vardı. İnsanlar özlərini müdafiə etmək üçün ən müxtəlif ünvanlardan silahlar əldə etmişdilər. Atəşkəs əldə ediləndən sonra həmin rayonların sakinləri Bakı şəhərinə və digər rayonlara köç etdilər. Aydın məsələdir ki, sərhəd bölgəsindən ölkənin içərilərinə gələn əhali özü ilə silahlarını da gətirib. Zaman-zaman, son 25 ildə vətəndaşlardan xeyli silah-sursat götürülüb. İnsanlar da baxır ki, silah ona o qədər də lazım deyil. Ötən dövrdə silahları könüllü surətdə təhvil verənlər də olub. Həmin silahlarla cinayət törədənlər də olub. Odlu silah belə bir şeydir ki, uzun müddət bir ailədə, bir əldə qalanda, yazılmamış qanundur, mütləq qaydada, haradasa, kiməsə qarşı istifadə edilməli, açılmalıdır. Tarixən belədir. Elə silah sahibləri də var ki, könüllü surətdə silahları təhvil verməkdən çəkinir, silahı harasa tullayır. Elə şəxslər var ki, silahı tullayır və anonim zəng etməklə silahın yerini hüquq-mühafizə orqanlarına deyir. Və yaxud silahı tullayıb bu haqda məlumat verməyənlər də var. Belə silahları da sahə müvəkkilləri, əməliyyatçılar aşkarlayıb rəsmiləşdirirlər".

**M.Hacıyev deyir ki, əvvəllər əhalidə daha çox silah sursat olub:** "Statistik məlumatlar yayılanda belə təəssürat yaranır ki, əhalidə silah-sursat çoxdur. Faktiki isə ötən 10 ilə müqayisədə hazırda əhalidə silah-sursat daha azdır".

**❑ E.MƏMMƏDƏLİYEV**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 49 (6938) 2 mart 2018

# Bu gün Ermənistan yeni prezidentini seçir-Armen Sərkisyan kimdir?

## Nəzakət Məmmədova: "2015-ci ilin dekabr ayında yazılmış ssenarinin son tamaşasının oynandığını görürük"

**Bu gün Ermənistan parlamenti ölkənin yeni prezidentini seçir. Hakim Respublikaçılar Partiyasının lideri, prezident Serj Sərkisyanın "vəlihəd" gözü ilə baxdığı, ölkənin Böyük Britaniyadakı səfiri Armen Sərkisyan əsas namizəddir.**

Armen Sərkisyanın 65 yaşı var. Nəzəri fizika və riyaziyyat ixtisası üzrə İrəvan Dövlət Universitetini bitirib. 1976-1984-cü illərdə YDU-da fizika üzrə dərs deyib, universitetdə kompleks nəzəri fizika sistemlərinin kompüter modelləşdirilməsi şöbəsini təsis edib. 1984-1995-ci illərdə gənc alim kimi Cambridge Universitetində dərs deyib. ASərkisyan Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun və Britaniya Astronomiya Cəmiyyətinin üzvüdür. Nəzəri fizika, astrofizika və kompüter modelləşdirilməsi üzrə 50-də çox elmi məqalə və 3 dərslik vasitəsinin müəllifidir. 1992-ci ildən bu günədək, qısamüddətli fasilələrlə, diplomatik sahədə çalışıb. Müxtəlif illərdə Ermənistanın Böyük Britaniya, Avropa İttifaqı, Belçika, Niderland, Lüksemburq və Vatikanda səfiri olub. 1996-cı ilin noyabr ayından 1997-ci ilin fevral ayına kimi Ermənistanın baş naziri vəzifəsində olub. A.Sərkisyan 2001-2013-cü illərdə "British Petroleum", "Alcatel", "Telefonica", "Merrill Lynch" və bir sıra başqa transmilli şirkətlərin baş müşaviri vəzifəsində çalışıb. Onun həmçinin bizneslə məşğul olduğu bildirilir. Yerli mətbuatda onun Ermənistanda və xaricdə bir neçə şirkətə malik olduğu deyilir.

Ekspertlər A.Sərkisyanın qarşıdakı prezidentlik dönəminin hazırkı rəhbərin fəaliyyətindən heç nə ilə fərqlənməyəcəyini bildirirlər.

**Politoloq Nəzakət Məmmədova Ermənistanın siyasi kursunun dəyişməyəcəyini düşünür:** "Prezidentliyə hakim Respublika Partiyasının və koalisiyadakı Erməni İnqilabi Federasiyası Daşnaksütyun Partiyasının vahid namizədi bu ölkənin Böyük Britaniyadakı səfiri, 1996-1997-ci illərdə baş naziri olmuş Armen Sərkisyandır. Adını çəkdiyimiz hakim partiyalardan başqa parlamentdə deputatların sayına görə ikinci yerdəki müxalifətçi "Tsarukyan" partiyası da ona səs verəcəyini bildirib. Armen Sərkisyanın dünənki parlament müzakirələrində vahid namizəd olması lehinə 65 nəfər səs verib. Parlamentdə cəmi 9 deputat yerinə malik "Yelk" müxalifət partiyası isə Sərkisyanın əleyhinə səs verəcəyini bildirib. Prezident vəzifəsinə seçilmək üçün namizəd parlamentdəki 105 mümkün səsdən 79-nu almalıdır. Lakin indiki prezidentin səlahiyyət müddəti 9 apreldə başa çatır. Bu seçkilərlə də ölkə parlament üsul-idarəsinə keçir və artıq prezident yalnız təmsilçilik funksiyalarına malik olacaq, əsas səlahiyyətlər isə baş nazirdə olacaqdır. Lakin hesab olunur ki, Armen Sərkisyan diplomat, biznesmen kimi həm Rusiya, həm də Qərblə sıx əlaqələrə malikdir. Onun biznes və siyasi dairələrdəki əlaqələri ölkəsinə investisiya cəlb olunmasına şərait yarada bilər. O, artıq Ermənistanı texnoloji mərkəzə çevirmək planlarını açıqlayıb. Eyni zamanda həm Avrasiya İqtisadi Birliyi, həm də Avropa İttifaqı ilə sazişlər imzalanmasını düzgün addım hesab etdiyini və bu kursu davam etdirəcəyini bildirib. Bir ay əvvəl o, Moskvaya, Milana, Londona səfər etmişdi. Adıçəkilən siyasi və maliyyə mərkəzlərinə səfərin məqsədlərindən birinin işgüzar və siyasi dairələrin razılığını almaq ola bilərdi. Qeyd edim ki, nə siyasi sistem dəyişikliyinin, nə yeni prezident seçilməsinin ölkənin siyasi kursunun dəyişməsinə təsiri olmayacaqdır. Regiondakı siyasi proseslərə də təsiri gözlənilmir. Ötən ilin aprelində baş tutmuş parlament seçkiləri qüvvələr balansını artıq müəyyən edib. Ölkədə səlahiyyətlərin baş nazirə keçməsi, parlamentli respublika üsul-idarəsinə keçirməsini nəzərə alaraq demək olar ki, Ermənistandakı siyasi qüvvələr nisbəti artıq çoxdan müəyyənləşib. Hazırkı prezident seçkiləri isə nə daxili, nə xarici siyasətə həlledici təsir göstərməyən bir prosesdir. Əgər Serj Sərkisyan bu dəfə baş nazir qismində bütün səlahiyyətləri əlində saxlayaraq ölkənin faktiki idarəçiliyini davam etdirəcəksə, parlament də ötən ildən fəaliyyətini davam etdirirsə, yeni prezident seçkilərindən nəsə gözləmək mənasızdır".



**Politoloq düşmən ölkədə güc nisbətinin illər öncədən dəyişdiyini də söylədi:** "Ermənistandakı güc nisbətinin əsası bu gün yox, 2015-ci ilin 6 dekabrında ölkə konstitusiyasının referendum yolu ilə dəyişilməsi zamanı qoyulub. Məhz həmin vaxt konstitusiya islahatlarının təşəbbüskarı hakim Respublika Partiyası ölkədəki güc mərkəzini Prezident Administrasiyasından parlamentə keçirməyi bacardı və bununla da özünün hakimiyyətinin davamlılığını təmin etmiş oldu. Biz bu gün Ermənistanda 2015-ci ilin dekabr ayında yazılmış ssenarinin son tamaşasının oynandığını görürük. Bu, Serj Sərkisyanın prezidentliyinin son dönəmi ilə eyni vaxta salındı. Gördüyümüz kimi, real olaraq hakimiyyəti Serj Sərkisyan özü ilə parlamentə və baş nazirliyə transfer etməyi bacardı. Hazırkı prezident vəzifəsi isə artıq formal səciyyə daşıyacaqdır".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

# Türkiyəyə qarşı məkrli Afrin ittihamı - Qərb təzyiqi artırır

## Ankara isə hələlik müqavimət göstərir: "Əməliyyat davam edəcək..."

**Suriyada qəbul olunmuş atəşkəs qərarının Afrin əməliyyatına aid edilməsi tələbləri güclənir. ABŞ Dövlət Departamenti, Avropa Birliyi və Fransa artıq rəsmi olaraq Türkiyədən Afrində atəşi dayandırmağı tələb edib. ABŞ Dövlət Departamentinin rəsmi sözçüsü isə bildirib ki, Türkiyənin BMT-də qəbul olunan layihəni yaxşı oxuması lazımdır. Sitat: "Suriyada qüvvəyə minən BMT TŞ-nin atəşkəs qərarı Afrinə də şamil olunmalıdır".**



Beynəlxalq Amnistiya Təşkilatı isə Türkiyə ordusu və qismən də kürd qüvvələrinin Afrin, Hələbin şimalı və Aziz bölgəsində nəzarətsiz bombardmanlar həyatına kəçirdiyini və bunun nəticəsində çoxlu mülki insanın öldüyünü bəyan edib. Təşkilatın yaydığı rəsmi açıqlamada bölgədə yaşayan 15 nəfərlə söhbətlər aparıldığı və buna əsasən hər iki tərəfin izləmə olmadan, koordinatsız şəkildə bölgəni top atəşinə tutduğu qeyd olunub. Eyni zamanda elektron informasiya və videogörüntüləri araşdıran ekspertlər də artilleriya bombardmanlarının dəqiq koordinasiya olmadan ərazini bombaladığı qənaətinə gəlib.

Təşkilatın Yaxın Şərq bürosunun rəhbəri Linn Maluf bildirib ki, Türkiyə ordusu və kürd qüvvələrinin atəşi altında çoxlu sayda mülki əhali ölüb, yüzlərlə insanın həyatına isə təhlükə qalır. Təşkilatın məlumatına əsasən, Afrində bu günə qədər 93 mülki insan ölüb, 51-i uşaq olmaqla, 313 nəfər yaralanıb. Oxşar şəkildə kürd qüvvələrinin də atəşləri nəticəsində mülki əhalidən ölənlərin olduğu qeyd edilir.

Qeyd edək ki, Türkiyə ordusu, eləcə də hökumət rəhbərliyi dəfələrlə bəyan edib ki, Afrin əməliyyatında mülki əhalinin zərər görməməsi üçün xüsusi diqqət göstərilir. Hətta prezident Ərdoğan bildirib ki, mülki əhalinin həyatına göstərilən həssaslıq olmasaydı, indi ordu Afrini çoxdan götürmüşdü.

Aydın məsələdir ki, istənilən müharibədə, xüsusən də bu cür mülki əhalinin də yaşadığı bölgələrdə aparılan əməliyyatlar zamanı mülki əhalidən olan ölümlərin qarşısını tam almaq mümkün deyil. Çünki döyüş əməliyyatları bilavasitə mülki əhalinin yaşadığı yerlərdə aparılır və artilleriya, bəzən döyüş mərmiləri yaşayış evlərini, bazarlarını da vurur.

Lakin görünən odur ki, son günlər Afrinlə bağlı bu tip xəbərlərin əsas məqsədi daha çox Türkiyəyə qarşı təzyiq mexanizmi formalaşdırmaq, Şərqi Qutada olduğu kimi, Afrində də mülkilərin zərər gördüyü və bu səbəbdən humanitar fəlakətin qarşısını almaq üçün orada da atəşkəsin tətbiq olunmasına çalışırlar.

Qeyd edək ki, Türkiyə XİN artıq mövqe ortaya qoyaraq BMT qərarındakı atəşkəs nöqtələrinə Afrinin aid olmadığını, Afrində terror təşkilatlarına qarşı əməliyyatların davam edəcəyini bəyan edib. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da Əlcəzair səfəri zamanı jurnalistlərə bildirib ki, BMT TŞ-nin Suriyada atəşkəs qərarı Afrin əməliyyatına aid deyil. Sitat: **"Bizim kimsənin torpağında gözümüz yoxdur. Orada təhlükəsizliyimizi təhdid edən terror qruplarına qarşı mübarizə aparırıq".**

Türkiyə baş nazirinin müavini Bəkir Bozdağ da ABŞ Dövlət Departamenti sözçüsünün Türkiyəni nəzərdə tutaraq "Türkiyə qərarı bir daha oxumalıdır" sözünə cavab verib. Bozdağ deyib ki, qərarı amerikalıların bir daha oxumasına ehtiyac var, çünki qərar terror təşkilatlarına aid deyil: **"Biz qərarı oxuduq, yaxşı oxuduq. Sayılan yerlər arasında Afrin yoxdur. İŞİD və onunla əlaqəli təşkilatlar bu atəşkəsə daxil edilmir. Bizim şərhimiz açıqdır. Əminəm ki, amerikalı sözçülər yaxşı oxumurlar. Bir daha oxumaları faydalı ola bilər. Bu qərar Türkiyənin "Zeytun budağı" əməliyyatına təsir etməyəcək".**

Bu arada Suriya hökuməti bəyan edib ki, Türkiyə ordusunun Afrini bombalaması nəticəsində 3 min illik tarixi olan "Ayn Dara" məbədi dağıdılıb. Dəməşqin açıqlamasından sonra "Frans Press" Agentliyi də bölgəyə müxbir yollayaraq məbəddən reportaj hazırlayıb. Bütün dünyaya servis edilən reportajda artilleriya atəşləri nəticəsində qədim məbədin böyük ölçüdə dağıldığı qeyd olunur.

Göründüyü kimi, Ankaraya hər tərəfdən təzyiqlər günü-gündən artır. Hüquqi baxımdan Suriyada atəşkəs elan olunması ilə bağlı BMT TŞ-nin qərarı var və artıq bu qərar icra olunur. Ankara isə hələlik terror təşkilatlarının qərara aid edilmədiyini əsas gətirərək Afrin əməliyyatını dayandırmaqdan imtina edir. Lakin Ankaranın uzun müddət və ya Afrini tamamilə ələ keçirənədək əməliyyatı davam etdirməsi çətindir. Ehtimal ki, Afrini tam olmasa da, kritik sərhəd zolağını ələ keçirdikdən sonra Türkiyə ordusu beynəlxalq təzyiqləri əsas gətirərək Afrində atəşkəsə riayət etməyi düşünür. Ancaq bunun nə qədər mümkün olduğunu zaman göstərəcək. Çünki Ankaraya təzyiqlər günü-gündən artır.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

## Əli Kərimli Müsavatı necə aldatdı - gizli mitinq hazırlığı ifşa olundu



**Xəbər verildiyi kimi, Milli Şura sədri Cəmil Həsənli müxalifətin birgə mitinqlərinin keçirilməsi ilə bağlı Müsavat Partiyası və REAL hərəkatına müraciət edib. REAL-ın qərarı həftəsonu gözlənilsə də, Müsavat başqanı Arif Hacılı müraciətə müsbət reaksiya verib. O, özünün facebook hesabında "bizdən müsbət cavab gözləyin" yazıb.**



Artıq Müsavatla Milli Şura arasında mitinq müzakirələrinin başlandığı barədə xəbərlər yayılıb. Müzakirələrin ilk anındaca iki qurum arasında narazılıqlar baş qaldırıb. Bu barədə "Yeni Müsavat"a Müsavat Partiyasındakı mənbədən məlumat daxil olub. Narazılığa səbəb isə Əli Kərimlinin növbəti dəfə birliyə qarşı fəaliyyətinin olduğu deyilir. Belə ki, müzakirələr başlayar-başlamaz məlum olub ki, AXCP sədri hələ günlər öncə Bakı Şəhər İcra Hakimiyyətinə martın 4-də aksiya keçirmək üçün müraciət ünvanlayıb. BŞİH isə Milli Şuranın aksiyasına martın 3-nə icazə verib. AXCP sədrinin gizli mitinq hazırlığı isə martın 1-də üzə çıxıb. Müsavat nümayəndələri ilə birlikdə Milli Şura üzvləri BŞİH-ə müraciət edərkən bilinib ki, Ə.Kərimli tamam başqa tarixdə, başqa ünvanda mitinq etmək üçün müraciət edibmiş. Mənbə bildirir ki, bu, Müsavat Partiyasının ciddi narazılığına səbəb olub.

Mənbə onu da bildirir ki, Müsavat və Milli Şuranın birgə mitinq keçirmələri artıq sual altına düşüb.

Ə.Kərimlinin Müsavatla birgə mitinqə razılıq verməsinin səbəbi haqda da musavat.com-a məlumat daxil olub. Məlumatda bildirilir ki, AXCP sədri bu ilin 31 yanvar günü M.Ə.Rəsulzadənin Novxanıdakı heykəlinin ziyarəti zamanı Müsavatın böyük kalonla iştirak etdiyini gördükdən sonra birgə mitinqə razılıq verib. Bildirilir ki, Ə.Kərimli Müsavatın bu gücündən birgə mitinqdə öz təbliğatı üçün istifadə etməyi düşünür.

Xatırladaq ki, Ə.Kərimli digər boykotçu təşkilatların birgə mitinq təklifinə birmənalı yox deyib. Səbəb odur ki, o, heç kimi özünə şərik etmək istəmir. "Gücünü" heç kimlə paylaşmağı düşünmür. İnsan resursu zəif olan təşkilatların yükünü daşımağı sevmir. Amma Müsavatın aksiyalara çox adam çıxara biləcəyini fərq etdiyi üçün bu partiya ilə ortaq mitinqə razılıq verib. Yəqin hər aksiyadan sonra onun yaxın ətrafı "o insanlar bizə görə meydana çıxmışdı" təbliğatı aparacaq.

Dünən axşam saatlarında Ə.Kərimli facebook üzərindən canlı yayımda danışıb. O, martın 4-də Milli Şuranın mitinq keçirməsi üçün BŞİH-ə müraciət etdiklərini və rədd cavabı aldıqlarını bildirib. AXCP sədrinin tələm-tələsik bu məsələni ictimailəşdirməsi ifşa olunduğunun sübutudur. Müsavat Partiyasındakı mənbə bir daha bildirir ki, onlar Ə.Kərimlinin alternativ mitnq hazırlığından martın 1-də, icra hakimiyyətindən yox cavabı aldıqdan sonra xəbər tutublar.

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## 11 bank zərərlə işləyib

**"Azərbaycan Beynəlxalq Bankının restrukturizasiyasını nəzərə almasaq, əslində sektorda aktivlərdə artım olub. Bank sektorunun aktivlərində artım təxminən 10 milyon manat olub".**

"APA-Economics" xəbər verir ki, bunu "Fitch" beynəlxalq reytinq agentliyinin Bakıda keçirilən illik konfransında Maliyyə Bazarlarına Nəzarət Palatasının baş icraçı direktorunun müavini Asim Zülfüqarov deyib.

Onun sözlərinə görə, ötən dövrdə valyuta məzənnəsində ciddi dəyişiklik olmayıb: "Ona görə bu artım məqbuldur. Kredit portfelində azalma trendi 2017-ci ilin sonunda müəyyən qədər dayanıb. Sektorda aktivlərin artımının dayanması likvid aktivlərin təmərküzləşməsi ilə nəticələnib. Bank sektorunda likvid aktivlərin həcmi 6,7 milyard manat təşkil edib. Bu, bank sektorunun aktivlərinin 24 faizini təşkil edir. Ani likvidlik əmsalı da 30 faizdən yüksəkdir. Nəzarət orqanı olaraq növbəti strateji çağırışımız effektivliyin təmini və maliyyə funksiyasının artırılması ilə bağlıdır. Bundan başqa, ötən dövr ərzində öhdəliklərin azaldığını görürük. Əhalinin bank sektoruna inamı artıb, bu da manatla əmanətlərin həcminin artmasına gətirib çıxarıb. Bank sektoru dollarlaşmaya öz reaksiyasını verdi və aktivlərdə dollarlaşma azaldı. Ümumilikdə, ötən ili 19 bank mənfəətlə, 11 bank isə zərərlə başa vurub".

# Beynəlxalq Bank yenidən borc bataqlığında

## İqtisadçı ekspert: ""Aqrarkredit" çox şübhəli bir quruma çevrilib, "Şapka" Mamed oturub orada, nə işlə məşğuldur bilinmir"

**"Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin həbsdə olan sabiq sədri Cahangir Hacıyevin saxlanıldığı 13 saylı cəzaçəkmə müəssisəsində səhhəti pisləşib. İddia edilir ki, Cahangir Hacıyev bir neçə dəfə anidən kliniki ölüm kimi hallar keçirir, ürək qısamüddətli dayanır...**

Bu arada bir neçə milyardın ölkə xaricinə daşınması və Azərbaycan Beynəlxalq Bankının(ABB) talanmasına görə 15 il həbs cəzası almış C.Hacıyevin yaxın vaxtlarda yenidən istintaqa cəlb ediləcəyi barədə xəbərlər var. ABB ilə bağlı hələ də davam edən istintaq haqda ictimaiyyətə geniş məlumat verilmir. Bəzi hallarda isə bankdan "buxarlanmış" pullar qeyri-rəsmi üsullarla axtarılır, hətta bəzi iş adamları sorğu-suala çağırılır. Bu barədə məlumat verən mənbə "Yeni Müsavat"a deyib ki, Beynəlxalq Bankda Cahangir Hacıyevlə qudası, sabiq nazir Eldar Mahmudovun qurduğu "hörümçək toru"nu tam açmaq mümkün olmayıb. Bu səbəbdən C.Hacıyevlə bağlı istintaqın bitdiyini demək olmaz. İstintaqın versiyasına görə, bu ilin yanvarında Bakıya əli qandallı gətirilən Emin Sadiq Cahangir Hacıyevin və ABB işi üzrə əsas fiqurantlardan biridir, bankın talanmasına yönəlmiş maliyyə maxinasiyalarının birbaşa iştirakçısıdır. E.Sadiq konkret olaraq Qazaxıstanda neft yatağının istismarına yönəlmiş investisiyanın mənimsənilməsində ittiham olunur. Söhbət Azərbaycan Beynəlxalq Bankının Rusiyadakı törəmə bankı "MBA-Moskva" tərəfindən ayrılmış 60 milyon dolların mənimsənilməsindən gedir. Habelə E.Sadiq "MBA-Moskva" bankına veksellərin satışında dələduzluq əməlinə yol verib. Maraqlıdır ki, elə yanvar ayında hüquq-mühafizə orqanları sabiq milli təhlükəsizlik naziri, C.Hacıyevin qudası və biznes şəriki Eldar Mahmudovun ortaqlarından biri Sahib Ağayevi də Qazaxıstanda saxlayaraq, Bakıya gətiriblər...

Belə bir vaxtda Azərbaycanın daha bir iri bankından "Atabank"dan da SOS siqnalı gəlməkdədir. Sabiq vergilər naziri Fazil Məmmədovun bacısı oğlu Dəyanət Quliyevin İdarə Heyətinin sədri olduğu "Atabank"ın maliyyə durumu pisləşib. Dəyanət Quliyevin atası Namiq Quliyev Fazil Məmmədovun nazirliyi dövründə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti rəisinin 1-ci müavini idi. Namiq Quliyev əvvəllər Vergilər Nazirliyində nazirin müşaviri vəzifəsində çalışıb. O, 2016-cı ilin fevral ayında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti rəisinin 1-ci müavini postuna gətirilmişdi. 2015-ci ilin fevralında ölkə başçısının sərəncamı ilə Vergilər Nazirliyinin 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri xüsusi rütbəsi alanlar sırasında Fazil Məmmədovun bacısının həyat yoldaşı olan Namiq Quliyev də olub. Yerli mediada yazılanlara görə, uzun illər nəzarət-kassa



Əkrəm Həsənov

aparatlarını ölkəyə Fazil Məmmədovun bacısı oğlu, hazırda "AtaBank" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində çalışan Dəyanət Quliyevin sahib olduğu "CASPEL" MMC gətirib. Zorla və baha qiymətə sahibkarlara satılan nəzarət-kassa aparatlarından ümumilikdə 100 milyon manata qədər qazanc əldə edildiyi deyilir. Qeyd edək ki, Dəyanət Quliyev 14 mart 2016-cı il tarixindən "AtaBank" ASC-nin İdarə Heyətinin sədri vəzifəsində çalışır.

**İqtisadçı-ekspert Əkrəm Həsənov deyir ki, banklarda maliyyə durumunun vəziyyətinin pisləşməsinin əsas səbəblərindən biri peşəkarlıq problemidir:** "Azərbaycan Beynəlxalq Bankının borcları ilə bağlı məlumatları "Aqrarkredit" açıqlamalıdır. Amma açıqlamırlar. "Şapka" Mamedin kefi belə istəyir və açıqlamırlar. Hesab edirəm ki, bu məsələ ictimai əhəmiyyət kəsb edir. ABB-nin borclarını dövlət büdcə hesabına, biz vətəndaşların hesabına ödəməyi üzərinə götürüb. Bu pulların qaytarılması üçün nə iş görülüb bilinmir. Ortada əsaslı şübhələr var ki, orada işlər düzgün aparılmır".

### "Şapka" Mamed prezidentin inamını itirib

**İqtisadçı ekspert deyib ki, ötən il dövlət başçısı Azərbaycan Sənaye Korparasiyasını (ASK) təsis edib:** "ABB-nin borcları müqabilində kreditorlardan alınan obyektlər, müəssisələr, zavodlar ASK-ya ötürüldü. ASK-nın yaradılması faktiki olaraq "Şapka" Mamedin rəhbərlik etdiyi "Aqrarkredit"ə etimadsızlıq göstərildiyini, ölkə rəhbərliyinin inamını itirdiklərini ortaya qoydu. "Şapka" Mamed ABB borclularından aldığı müəssisə, zavod, fabrik, obyektlərə özünün qohum-qardaşını, dost-tanışını rəhbər təyin edir. Həmin obyektlər ABB-nin borcları əvəzinə alınan iri müəssisələr, zavodlar, fabriklər idi. "Şapka" Mamed həmin obyektlərə özünün biznes obyektləri kimi baxırdı. Ona görə də prezident obyektləri onun əlindən alıb, ASK-ya verdi. Hazırda ASK-da bu baxımdan düzgün idarəetmə sistemi var. Ümumilikdə isə hələlik ASK-nın fəlaiyyətindən danışmaq tezdir. Faktiki isə ABB-nin toksik kreditləri "Aqrarkredit"in üzərindədir".

### "Aqrarkredit"də hüquq-mühafizə orqanlarının müvafiq yoxlama aparması zərurəti var

**Əkrəm Həsənov deyir ki, etimadsızlıq göstərilən qurum kimi "Aqrarkredit"də hüquq-mühafizə orqanlarının müvafiq yoxlama aparması zərurəti var:** "Yaxşı olar ki, "Aqrarkredit"in fəaliyyəti yoxlanılsın. ABB-nin işi olmasaydı belə "Aqrarkredit"in nə işlə məşğul olması araşdırılmalıdır. "Şapka" Mamed oturub orada, nə işlə məşğuldur bilinmir. "Aqrarkredit" çox şübhəli bir quruma çevrilib".

Ə.Həsənov deyir ki, bu gün Əmanətlərin Sığortalanması Fondu (ƏSF) bağlanan bankların borclarını daha effektiv şəkildə idarə edir: "ƏSF-nin fəaliyyətini məndən çox tənqid edən yoxdur, amma "Aqrarkredit"lə müqayisədə ƏSF xeyli iş görüb. Gördükləri işlərlə bağlı məlumatları ictimailəşdirirlər. "Aqrarkredit" ABB-nin toksik kreditlərindən nə qədər qaytarması sualı açıqdır. Son məlumatlara görə, ABB-nin maliyyə durumu yenə də ürəkaçan deyil. ABB ötən ilin sonlarında dollarla banka əmanət qoyulan vəsaitlər üzrə faiz dərəcəsini heç bir xəbərdarıq etmədən 20 faizdən 2 faizə qədər azaltdı. Yəni birdən-birə az faiz verəcəklərini elan etdilər. Bəzi əmanətçilər var ki, bu qanunsuz qərardan məhkəməyə müraciət ediblər. Həmin əmanətçilərdən bir neçəsini məhkəmədə təmsil edirəm. Məhkəmədə hakimə bildirdim ki, vətəndaşlar devalivasiyadan sonra banklara dollarla olan kreditlər üzrə ödəniş edə bilmirlər. Həmin ödənişlər üzrə belə banklar faizləri aşağı salmırlar. Vətəndaşdan dollarla kreditlər üzrə 30 faiz tələb edirlər. Belə bir halda ABB-nin faizi 10 dəfə aşağı endirməsi qanunsuzdur. ABB-nin nümayəndəsi məhkəmədə deyir ki, bankın sağlamlaşdırılması üçün belə bir addım atıblar, bankın durumu pisdir. Halbuki ABB-yə dövlət böyük kömək edib, borclarını üzərinə götürüb. ABB 2017-ci ilin maliyyə hesabatında yazıb ki, ili 804 milyon xalis gəlirlə başa vurublar. Bankın nümayəndəsi isə məhkəmədə dedi ki, bunlar sıradan rəqəmlərdir, bankın maliyyə durumu pisdir, ona görə də məhkəmədən xahiş edir ki, bizim iddiamızı təmin etməsin. Məhkəmə qərarında da yazıldı ki, ABB-nın maliyyə durumu pisdir, ona görə faiz dərəcələrinin 20 faizdən 2 faizə salınması qanunsuz deyil".

**Əkrəm Həsənov bildirib ki, ABB-nin, "Atabank ın durumlarının pisləşməsinin əsas səbəbi idarəçilikdə təmsil olunan rəhbər şəxslər işə götürülərkən peşəkarlıq meyarına əhəmiyyət verilməməsidir:** "Fazil Məmmədov vergilər naziri idi, bacısı oğlunu da "Atabank"ın İdarə Heyətinə rəhbər təyin etmişdi. Bu gün bankın durumunun ürəkaçan olmaması həmin şəxsin qeyri-peşəkarlığının nəticəsidir. Çox təəssüf ki, Azərbaycanda vəzifələrə təyinat qohumbazlıq prinsipləri əsasında gerçəkləşir. Peşəkarlıq isə belədə arxa plana keçir. Odur ki, ortada belə bir vəziyyət yaranır".

**❑ E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

Yeni Müsavat
N 49 (6938) 2 mart 2018

# Ərdəbildə Qarabağ tədbiri, savaş çağırışları

## Forumda Beynəlxalq Xocalı gününün təsis olunması təklif edildi; "Erməni yalnız torpağımıza yox, dinimizə, inancımıza təcavüz edib"

**Ərdəbildə İşğala və Terrora Qarşı Beynəlxalq Forumun (Beynəlxalq Qarabağ Forumu) dördüncü toplantısı keçirildi. "Yeni Müsavat"ın əməkdaşının da iştirak etdiyi tədbir girişində və tədbir salonunda Xocalı soyqırımını əks etdirən fotoların asıldığı Ərdəbil Beynəlxalq Universitetində baş tutdu.**

12 min tələbənin təhsil aldığı, 900 müəllimin çalışdığı Ərdəbil Dövlət Universitetindəki böyük toplantıda Azərbaycan, İran və Türkiyə nümayəndə heyətləri iştirak edirdi. Toplantıda ilk olaraq Qurani-Kərim oxundu. Ardınca tədbirə ev sahibliyi edən növbəti ölkənin, İranın dövlət himni oxundu. Konfransa universitetin müəllimi Şeyda xanım Müzəffəri yüksək səviyyədə moderatorluq edirdi. O, "Dostluq və barış görüşü" adlandırdığı tədbiri açaraq iştirakçılara və qonaqlara "xoş gəldiniz" dedi.

**Ərdəbil Universitetinin rektoru, doktor, professor Qudərz Sadiqi forumda ilk olaraq çıxış etdi:** "Özəlliklə İran İslam Respublikasına və qardaş Azərbaycan Respublikasına uğurlar arzulayıram. İnşallah, gündən-günə ölkələrimizi inkişafda görək!" Rektor Rusiya, Azərbaycan, Türkiyə və Gürcüstan nümayəndələrinin təsisçiliyi ilə yaradılmış forumun önəmindən bəhs etməklə yanaşı, tədbirin ərsəyə gətirilməsinə görə QAT sədri Akif Nağıya məxsusi təşəkkür etdi: "Ərdəbilin İmam-cüməsi Seyid Həsən Amili tədbirdə iştirak edə bilməsə də, salamlarını çatdırmağı xahiş etdi. Ancaq bilirik ki, nümayəndə heyətinin səfərinin ilk günü Seyid Həsən Amili ilə çox vacib və maraqlı görüşü olub".

**Ərdəbil Universitetinin tarix müəllimi doktor Əsədi əvvəlcə Xocalı soyqırımı, Qarabağda baş verənlər barədə Ərdəbildə doğru-dürüst məlumatın olmadığını etiraf etdi:** "Xocalının harada yerləşdiyi və orada nə baş verdiyi barədə mənə sual verirlər. Deməli, Xocalıda baş verənlər haqqında bizim xalqımızda hələ tam məlumat yoxdur". Doktor Əsədi daha sonra Xocalıda baş verənlər barədə ətraflı məlumat verdi.

"Biz dünyanın istənilən ölkəsində terroru lənətləyirik. Çünki biz də İran olaraq terror və işğaldan zərər görmüşük. Ərdəbil şəhəri özü terrorda şəhid verib. Şəhid Pirzadə bu şəhərin adlı-sanlı terror şəhidlərindəndir".

**Bu fikirləri isə Təbriz Universitetinin müəllimi Ruhulla Mütəfəkkiri Azad söylədi. Azərbaycan ərazilərinin işğalından bəhs edən natiq aparılan sülh danışıqlarının perspektivini görmədiyini söylədi və Qarabağın güzəşt edilməsinin mümkünsüz olduğunu bəyan etdi:** "Minsk Qrupu kömək edə bilsəydi, indiyədək edərdi. Əslində Minsk Qrupunun yaradılmasında məqsəd budur ki, Qarabağ münaqişəsi daim bizim ürəyimizdə qalsın. Qarabağla bağlı geri çəkilmək mümkünsüzdür. Kimsə düşünsə ki, bu torpaqların yarısından keçə bilərik, ya hardasa geri çəkiləcəyik, bu, mümkünsüzdür! Necə ki, biz Xürrəmşahda dayandıq, durduq. İsrarlı olmasaydıq, oranı bizə verməyəcəkdilər. Fələstin məsələsində də sonadək dayanmalıyıq, yoxsa qələbə qazana bilməyəcəyik". Bununla belə, Ruhulla Mütəfəkkiri Azad bəzi dövlətlərin hansısa formada tənzimləmə prosesində iştirakına qarşı çıxdı, həmçinin İsrail əleyhinə kəskin fikirlər səsləndirdi: "İslam ölkələri, öz qonşularımızla bir yerdə torpaqlarımızı azad edək".




**"Qarabağla bağlı bu qədər ki, işlər görülür, tədbirlər keçirilir, inşallah sonda Qarabağı azad edəcəyik". Bunu isə "Təbriz" qəzetinin baş redaktoru Hamid Xosrovşahi çıxışında dedi. H.Xosrovşahi də sülh danışıqlarının faydasızlığına diqqət çəkdi:** "Biz bu gün əlimizi əlimiz üstə qoyub, Minsk Qrupunun məsələni həll edəcəyini gözləməməliyik, özümüz hərəkət etməliyik. Allahdan istəyirəm ki, Akif Nağının öncüllüyü ilə Xocalıya əvvəlinci girənlərdən olaq, Allah bizə Xocali məscidində namaz qılmaq fürsəti versin!"

Ərdəbil Universitetinin müəllimi, doktor Mirzə Rəsulzadə "Xocalı" şeirini söylədi və hər kəsi təsirləndirdi. Ardınca Xocalı soyqırımının dəhşətlərindən bəhs edən film təqdim olundu.

**QAT sədri Akif Nağı çıxışında Xocalı soyqırımına biganə qalmadıqlarına, soyqırımın ildönümü ilə bağlı konfransın və forumun keçirilməsinə yardımçı olduqları üçün İran hökumətinə, həmçinin Ərdəbil vilayətinin və Ərdəbil Universitetinin rəhbərliyinə təşəkkür etdi:** "Mən təşəkkür edirəm ki, dördüncü toplantımız Ərdəbildə keçirilir. Bu, bir daha sübut etdi ki, düşmənlər nə qədər çalışsalar da, bizim aramıza girə bilməyəcəklər. Biz bir yerdə işğala və terrora qarşı mübarizə aparıb, inşallah, qalib gələcəyik".

**A.Nağı İslam dünyasını erməni işğalına, terroruna və vəhşiliyinə qarşı konkret addımlar atmağa çağırdı:** "Biz anım mərasimləri keçirməklə, ağlamaqla kifayətlənməli deyilik. Məsələn, biz təklif edirik ki, hər il Beynəlxalq Qüds günü keçirildiyi kimi, Beynəlxalq Xocalı günü də təsis olunmalıdır. Ən azı İran və Türkiyə bununla bağlı təşəbbüs göstərməli, həmin gün Azərbaycanda olduğu kimi, məktəblərdə Xocalı günü, Xocalı saatı keçirilməlidir. Hər kəs bilməlidir ki, Dağlıq Qarabağ məsələsi bütün İslam dünyasının məsələsidir. Dünya bu gün iki hissəyə bölünüb: İslam dünyası və xristian dünyası. İŞİD-i yaradanlar, terroru dəstəkləyənlər üstümüzə gəlirlər, iki din arasında cəbhə xəttini məhz onlar yaradıblar. Biz İslam aləmi olaraq Fələstin, Kəşmir, Yəmən, həmçinin də Qarabağ məsələsində güzəştə gedə bilmərik".

"Xocalı faciəsi əsrin görünməmiş faciəsidir. Oradakı insanlar məhz azərbaycanlı olduqları üçün bu faciəyə düçar oldular. Soyqırım nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynlərini itirdi. Biz bu faciələri ona görə yaşadı ki, zaman-zaman baş verənləri unutduq, yaxud bizə unutdurdular". Bunu isə Dünya Azərbaycanlılarının Vətənpərvərləri İctimai Birliyinin rəhbəri Nəsimi Qarabağlı söylədi.

**Türkiyə Şəhid Ailələri və Qazilər Dərnəyinin başqanı Mühsin Ağçay çıxışında forum iştirakçılarını salamladıqdan sonra erməni işğalından danışdı, onların bölgə üçün təhlükə yaratdığını bildirdi:** "Biz ermənilərlə PKK-nın işbirliyi şəraitində törədilən terrorun, erməni zülmünün nə demək olduğunu çox yaxşı bilirik. Bu barədə dədələrimizdən də eşitmişik. Azərbaycan torpaqları işğal edilib və 1 milyon insan torpaqlarından qovulub. Ermənilərin türklərə qarşı nifrəti 100 ildir davam edir. Son olaraq Xocalıda soyqırım törətdilər. Biz Azərbaycanla bir millət iki dövlətik, Mustafa Kamal Atatürk demişkən, Azərbaycanın sevinci bizim sevincimiz, kədəri kədərimizdir". **Möhsin bəy Türkiyənin Afrində terrora qarşı savaşından da bəhs etdi:** "Azərbaycanın, İranın bizə dəstək verməsi lazımdır. PKK ilə mübarizədə minlərlə şəhid vermişik. Gəlin hamımız terrora qarşı birgə mübarizə aparaq. Biz Afrində təkcə PKK, ya PYD ilə deyil, ingilis, amerikan, fransız, almanlarla savaşırıq".





**"İran Qarabağ məsələsində Azərbaycana dəstəyini əsirgəməyib, bu, tarixi faktdır, unudulmayıb, unudulmayacaq da". Bunu Qarabağ Uğrunda İslami Müqavimət Hərəkatının rəhbəri Hacı Rövşən Əhmədli çıxışında söylədi. Əlavə etdi ki, Qarabağ uğrunda mübarizə yalnız coğrafiya mübarizəsi deyil:** "Bu gün dünyada ləyaqət, şərəf, izzət müharibəsi gedir. Bu gün haqqa təcavüz edirlərsə, şərəfi olan hər kəs ona qarşı mübarizə aparmalıdır. Allah bu torpaqlarda yaşamağı bizə buyurub. Erməni təkcə bizim torpaqlarımıza yox, Allahın haqqına təcavüz edib! Bizim yalnız torpağımıza yox, dinimizə, inancımıza təcavüz ediblər. İnşallah, İslam dünyasının birliyi ilə bu yaraları sağaldacağıq".

**"Kədərlənməklə, göz yaşı tökməklə işimizin bitdiyini düşünsək, vay bizim halımıza". Bunu isə Əsgər Analarına Dəstək İctimai Birliyinin sədri Növrəstə İbrahimova söylədi. Xanım çıxışçı bildirdi ki, biz daim zalıma yox deyəcəyik:** "Minsk Qrupu 26 ildir bölgədə qara lövbər salıb. Bizə onlardan yardımçı olmaz. Bütün dünyaya işğalçı olduğu məlum olan dövlətin gəlib digər işğala məruz qalan ölkəyə yardım etməsi mümkünsüzdür. Mən özüm əslən Zəngilanlıyam, ordan çıxanların bütün ah-fəryadını gözümlə görmüşəm, orada yardım edənləri də qəlbimin lentinə almışam". **Növrəstə xanım milli birliyə çağırdı:** "İstər Arazın o tayı, istər bu tayı, fərqi yoxdur, eyni qəlblərdir, eyni insanlardır. Mən bunu ata-babamdan da eşitmişəm. Biz meydanda hazırıq, inşallah, bu məsələnin həllini yalnız və yalnız müharibədə görürük".

**"Jurnalistlər Ekstremal Şəraitdə" təşkilatının rəhbəri Firuzə Əsədullayeva hərbi jurnalist kimi Qarabağ xatirələrini bölüşdü və ordumuzun qüdrətindən danışdı:** "Allaha şükür olsun ki, bizim ordumuz çox qüvvətlənib. Bunu 2016-cı ilin aprel döyüşləri də bunu sübuta yetirdi. İslam dövlətlərinin dəstəyi ilə bütün xalqımız ayağa qalxacaq, qüdrətli ordumuz mütləq qələbə qazanacağıq. İnşallah düşməndən qisasımızı alacağımız günün hamımız şahidi olacağıq".

Türkiyənin Qars vilayətindən foruma qatılmış ictimai fəal Turqut Zaman isə dedi ki, dünya, nəhayət, Xocalı soyqırımına qiymət verməlidir.

Bundan sonra QAT sədri Akif Nağı forumun adının dəyişdirilərək Beynəlxalq Qarabağ Forumu adlandırılmasını təklif etdi. Təklif qəbul edildi. Ardınca A.Nağı Ərdəbilin İmam-cüməsi Seyid Həsən Amilinin forumun fəxri üzvü olmaq istəyini forum iştirakçılarına çatdırdı. İştirakçılar İmam-cümənin və Ərdəbil Universitetinin foruma üzvlüklə bağlı müraciətini müsbət qarşıladılar.

Forumda Kəlbəcərdə girov düşən və bu günə qədər ermənilərin işgəncələr altında saxladığı Dilqəm Əsgərov və Şahbaz Quliyevin azadlığına nail olmaq üçün İslam dünyasına çağırış edildi.

İşğala, Terrora və Əsassız İddialara qarşı Beynəlxalq Forumun İranın Ərdəbil şəhərində keçirilən Dördüncü (Ərdəbil) Toplantının sonunda Nəsimi Qarabağlı yüksək səviyyədə keçirilən Dördüncü (Ərdəbil) Forumunun qətnaməsini oxudu. Sənəddə deyilir ki, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalı, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın işğal olunmuş bütün ərazilərindən, o cümlədən Dağlıq Qarabağ bölgəsindən qeyd-şərtsiz çıxarılmalıdır. Əks halda, Azərbaycanın işğal olunmuş əraziləri hərbi yolla azad etmək haqqı beynəlxalq təşkilatlar, bütün dövlətlər tərəfindən tanınmalıdır. Qətnamə müəyyən düzəlişlərlə səsə qoyularaq qəbul edildi. Yekunda A.Nağı Ərdəbil Universitetinin rəhbərliyinə xatirə hədiyyələri, Qarabağ həqiqətləri barədə kitablar və Azərbaycan bayrağını hədiyyə etdi.

***P.S.*** *Forum barədə geniş materialı musavat.com-dan oxuya bilərsiniz.*

**Elşad PAŞASOY**
**"Yeni Müsavat"**
**Bakı-Ərdəbil-Bakı**



## İlhamə Quliyevanın oğulluğunun adı yeni qalmaqalda

**Mərhum xalq artisti İlhamə Quliyevanın övladlığa götürdüyü Orxan Nadirov həyat yoldaşından ayrılıb. Axşam.az xəbər ki, bu haqda müğənni Əli Mirəliyev deyib.**

O, ARB TV-nin "Səhər-səhər" verilişində bildirib ki, Orxanın qaldığı ev də əlindən alınıb: "İndi küçələrdə qalıb Orxan. Bilinmir haradadır. Arvad da gördü ki, Orxana heç nə qalmır. Arifə bildi ki, İlhamənin mirasını bacıları Gülbaharla İradə ələ keçirdi, Orxandan ayrıldı. Uşağını da götürüb çıxıb gedib".

Qeyd edək ki, Orxan və Arifə cütlüyünün Ruslan adlı oğul övladı var.

Yeri gəlmişkən, verlişin digər qonağı, əməkdar artisti Firuzə İbadova efirdə mərhum xalq artisti İlhamə Quliyevanın ona borcu olduğunu deyib:

"Mənim əgər alacağım varsa, nəyə görə ala bilmirəm. Axı mən heç kimə gedib demərəm mənə bu qədər pul lazımdır. Həmişə mən hamıya əl tutmuşam. Hamını mən çatdırmışam ağ günlərə. İndi niyə qara gündə qalmalıyam?! Axı mən öz pulumu, öz malımı istəyirəm. O gəlir aldadır məni, bu gəlir aldadır. Nə qədər olar?"

Daha sonra aparıcı Elgiz Əkbər bu məsələ ilə bağlı fikrini səsləndirib:

"İlhamə Quliyeva mənim yanımda dedi ki, Firuzə, pul sənə çatacaq".

Sonda isə Əli Mirəliyev İlhamə Quliyevanın bankda 380 min pulu olduğunu bildirib.



## Zaqatalada 4-cü sinif şagirdi intihar edib, yoxsa...

**Zaqatala rayonunda 4-cü sinif şagirdinin özünü asmasının təfərrüatı açıqlanıb. "Report"un yerli bürosunun məlumatına görə, rayonun Muxak kənd sakini, 2007-ci il təvəllüdlü Hafiz Nazim oğlu Məmmədovun meyiti yaşadığı evin həyətində təndirin çardağında ipdən asılı vəziyyətdə aşkarlanıb. Hadisə zamanı evdə onun anası və 15 yaşlı qardaşı olub. H.Məmmədovun çobanlıqla məşğul olan atası Nazim Məmmədov hadisədən bir neçə saat əvvəl qışlağa gedib.**

Valideynlərinin "Report"a verdiyi məlumata görə, hadisədən bir neçə saat əvvəl H.Məmmədov qonşuluqda yaşayan məktəb yoldaşıgilə dərslərini hazırlamağa gedib: "Oradan çıxdıqdan sonra qardaşı ilə birgə mal-qaranı rahatlamaq üçün evə qayıdıb. Qardaşı tövlədə olan zaman H.Məmmədov həyətdəki təndirin çardağında, mal-qaranı bağlamaq üçün nəzərdə tutulan kəndiri boğazına bağlayıb, ayağının altına 3-4 kərpic qoyub".

**Valideynləri ehtimal edir ki, 11 yaşlı Hafiz oyun oynayan zaman təsadüfən kəndirə ilişib və boğulub:** "Ola bilər ki, ayağının altına qoyduğu kərpiclər sürüşüb və kəndir boğazını sıxaraq boğulub. Hafizin heç bir ruhi xəstəliyi, intihar etmək üçün psixoloji problemi və hər hansı dərdi olmayıb. O, nə başa düşür ki, intihar etmək, özünü asmaq nədir?! Sadəcə, oyun oynamağı sevirdi".

**Dərsini hazırlamaq üçün getdiyi qonşu qızın anası isə bildirib ki, Hafizlə qızı birlikdə dərslərini hazırlayıb sağollaşıblar:** "Hafiz tərbiyəli və savadlı uşaq idi. Həm dərslərini yaxşı bilirdi, həm də evdə ailəsinə təsərrüfat işlərində köməklik edirdi. Bizim evdən yenicə çıxmışdı ki, eşitdik özünü asıb".

Onun oxuduğu məktəb müəllimləri də dərslərini normal oxuduğunu və bu günə qədər heç bir problemi olmadığını bildiriblər.

Faktla bağlı Zaqatalada Rayon Prokurorluğunda 125-ci (özünü öldürmə həddinə çatdırma ) maddəsi ilə cinayət işi başlanıb, araşdırma aparılır.

# AzTV sədrinə sui-qəsd cəhdinə görə tutulan dializ xəstəsidir

## Qoçəli Cəbiyevin səhhəti pisləşdiyi üçün məhkəməyə gətirilməyib



**Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədri Arif Alışanovu öldürməyə cəhddə və külli miqdarda pulunu ələ keçirməkdə ittiham edilən şəxslərin məhkəməsi baş tutmayıb.**

Musavat.com xəbər verir ki, işə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əfqan Hacıyevin sədrliyi ilə baxılmalı olan iş təxirə düşüb. Bildirək ki, təqsirləndirilənlər Şücayət Əkbərov, Qoçəli Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovdur.

Məlum olub ki, təqsirləndirilənlərdən Qoçəli Cəbiyev dializ xəstəsidir. Onun səhhəti pisləşdiyi üçün məhkəməyə gətirilməyib. Məhkəmə bu səbəbdən təxirə düşüb. Proses martın 2-də davam edəcək.

Bildirək ki, ittiham aktında yazılır ki, Ş.Əkbərov 2013-cü ilin iyulundan 2017-ci ilin yanvarınadək olan dövr ərzində Şamaxı rayonunda və Bakı şəhərində külli miqdarda özgə əmlakını və əmlaka olan hüquqları aldatma və etibardan sui-istifadə yolu ilə ələ keçirmək məqsədilə dələduzluq edərək yaratdığı mütəşəkkil dəstə tərkibində qanunsuz silah, döyüş sursatı əldə edib saxlayaraq, daşıyıb-gəzdirib, başqa cinayəti gizlətmək məqsədilə, tamah niyyətli və sifarişlə iki və daha çox şəxsi təkrarən qəsdən öldürməyə cəhd edib. O, həmçinin A.Alışanovun 4 milyon 641 min 696 manatlıq əmlakını da ələ keçirməkdə təqsirli bilinir.

Rəsmi məlumata görə, Ş.Əkbərov həmin pul vəsaitlərini və əmlakları geri qaytarmaq məqsədilə yaxın münasibətlərdə olduğu Musabi Namazov, Qoçəli Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovla dələduzluq cinayət əməlini gizlətmək üçün A.Alışanovu öldürmək istəyiblər. Ş.Əkbərov bunun müqabilində dəstə üzvləri Q.Cəbiyevlə M.Namazova 600 min manat pul vəd edib.

İttihama görə, M.Namazovun dəstə üzvləri tərəfindən törədiləcək qəsdən adam öldürmə və qanunsuz silah əldə etmə, daşıma, gəzdirməklə saxlama əməlləri barədə polis orqanlarına vaxtında məlumat verilib.

Polis əməkdaşları Ş.Əkbərovu, Q.Cəbiyevi, M.Namazovu, A.Hüseynovu və Z.Şirinovu saxlayıb. Məhkəmənin qərarı ilə Ş.Əkbərov, Q.Cəbiyev, A.Hüseynov və Z.Şirinovun barəsində həbs-qətimkan tədbiri seçilib. M.Namazovun barəsində isə polisin nəzarətinə verilmə qətimkan tədbiri ilə bağlı qərar çıxarılıb.

Ş.Əkbərov Cinayət Məcəlləsinin 29,120.2.1-ci (qəsdən adam öldürməyə cəhd, bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürməyə cəhd), 29,120.2.5-ci (tamah məqsədi ilə və ya sifarişlə, habelə zərərçəkmiş şəxsin orqanlarından və ya toxumalarından istifadə etmək məqsədi ilə adam öldürməyə cəhd), 29,120.2.6-cı (başqa cinayəti gizlətmə və ya onun törədilməsini yüngülləşdirmə məqsədi ilə, habelə zorlama və ya seksual xarakterli başqa zorakı hərəkətlərlə əlaqədar adam öldürməyə cəhd), 29,120.2.7-ci (iki və ya daha çox şəxsi öldürməyə cəhd), 29,120.2.10-cu (təkrar adam öldürməyə cəhd), 178.3.2-ci (dələduzluq, külli miqdarda törədildikdə), 228.3-cü (qanunsuz olaraq odlu silah qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham olunur.

Digər şəxslərin barəsində isə 29,120.2.1, 29,120.2.5, 29,120.2.6, 29,120.2.7, 29,120.2.10, 228.3-cü maddələrlə ittiham irəli sürülüb.

❑ **İlkin MURADOV**
**Musavat.com**

## "Dəmir Bank"ın filial müdirinin cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb

**Bakı Ağır Cinayətlər Məhkəməsində "Dəmir Bank" ASC-nin mənimsəmədə təqsirləndirilən Bayıl filialının sabiq müdiri Fərəh Rəşadətli, xəzinədarı Tamamgül Xanlarova və bankın əməkdaşı Fariz Qarayevin cinayət işi üzrə məhkəmə iclası davam edib.**

**APA-nın xəbərinə görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən iclasda məhkəmə istintaqının başa çatdığı elan olunub. Prokuror çıxış üçün məhkəmədən vaxt istəyib.**

**Proses martın 14-də davam etdiriləcək.**

**Qeyd edək ki, F. Rəşadətli Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq), 179.3.2-ci (mənimsəmə), 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı), F.Qarayev və T.Xanlarova isə 308-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə ittiham edilirlər. Həmin şəxslər 3 milyon manata yaxın pulu mənimsəməkdə təqsirli bilinirlər. Cinayət işində 8 nəfər zərərçəkmiş var.**

**Daha əvvəl Bakı Ağır Cinayətlər Məhkəməsinin hazırlıq iclasında cinayət işinin ibtidai istintaqa qaytarılması barədə qərar qəbul edilib. Hakim bildirib ki, ibtidai istintaq zamanı bir sıra pozuntulara yol verilib. İş yenidən araşdırılaraq, məhkəməyə göndərilib.**

**Barəsində ev dustaqlığı qətimkan tədbiri seçilən F. Rəşadətli sonradan məhkəmə zalında həbs edilib.**



## "Nar" 700-dək yeni baza stansiyasını istismara verməyi planlaşdırır

**"Nar" 2018-ci ildə də şəbəkənin təkmilləşdirilməsi işlərini davam etdirməyi, həm paytaxt, həm də bölgələrdəki abunəçiləri yüksəkkeyfiyyətli rabitə xidmətləri ilə təmin etməyi planlaşdırır. Belə ki, il ərzində şəbəkənin inkişafı və təkmilləşdirilməsi işləri çərçivəsində respublikanın bölgələrinə xüsusi diqqət ayrılması nəzərdə tutub. 4G (LTE) texnologiyasının əhatə dairəsinin bölgələrdə genişləndirilməsi, eyni zamanda 3G texnologiyasının daha da təkmilləşdirilməsi tədbirlər planının əsas məqamlarındandır. Müvafiq olaraq, Bakı və Abşeron yarımadasında LTE texnologiyasının inkişaf etdirilməsi istiqamətindəki işlər 2018-ci ildə də davam edəcək və abunəçilər daha keyfiyyətli rabitə xidmətlərindən faydalanacaqlar. Ümumilikdə, ötən ilin sonuna olan mövcud baza stansiyalarının sayı ilə müqayisədə şəbəkədə baza stansiyalarının 25%-dək artımı nəzərdə tutulub.**

**Xatırladaq ki, aparılmış genişmiqyaslı təkmilləşdirmə işləri nəticəsində mobil operator Bakı və Abşeron yarımadası ilə yanaşı, artıq respublikanın digər bölgələrində də LTE xidmətini abunəçilərinin istifadəsinə təqdim edib. Belə ki, bölgələrdə ilk olaraq Gəncə şəhərində yaşayan abunəçilər mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən LTE xidmətindən yararlanmaq fürsəti əldə ediblər. Gəncə şəhərindəki "Nar" abunəçiləri də mobil operatorun LTE texnologiyası ilə təmin etdiyi 225 Mbit/s çatan sürət sayəsində internet resurslarından daha səmərəli şəkildə istifadə etmək imkanı qazanıblar.**

**"Nar" şəbəkəsi haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

**"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

nar
Gəlin birlikdə böyüyək




**Cümə söhbətləri**

# Bağışlamaq və güzəştlilik - ailə institutunun yenilməz təməlləri

**Bismilləhir-Rahmənir-Rahim! Mübarək dinimizin nəzərində ən dəyərli quruluş - ailədir. Ona görə də ailədə nuraniyyətin artması, daimi mehribanlığın hökmranlığı, səfa və səmimiyyətin olması olduqca vacibdir. Ailədə bütün bunlara səbəb olan bir sıra amillər var. Bu amillərdən biri də güzəştdir. Bəhsimizdə ailədə güzəşt mövzusuna bir sıra aspektlərdən toxunacayıq.**

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı



## İki xarakterli münasibət

Ümumiyyətlə, insanlararası münasibətdə, insanlararası davranışlarda iki xarakterli ələqələr olur. Bunların ən çox yayılmışı və bizlərin də gündəlik yaşadığımız - adi gündəlik, məişət münasibətləridir. Bir də insanlararası ictimai xarakterli münasibətlər var. Dinimiz nə qədər ictimai məsələlərdə prinsipiallığı, güzəştsizliyi tövsiyə edirsə, ictimai zülmlərə nisbətdə nə qədər tələbkar olmağı istəyirsə, ictimai müstəvidə nə qədər birmənalı davranmanı tələb edirsə, o qədər də adi insanlararası münasibətlərdə güzəştli olmağı tövsiyə edir.

Təəssüflər olsun ki, çox vaxt diametral əks vəziyyəti müşahidə edirik. Bəzən ailədaxili, dostlar arası münasibətlərdə insanlar bir səhvi, xətanı, anlaşılmazlığı onillərlə davam etdirə bilirlər. Amma, ictimai mövzularda ki, buna tələb var, daha güzəştli davranmağa üstünlük verirlər.

İnancımızın güzəşt və bağışlamaqla bağlı tövsiyələri insanlararası gündəlik münasibətlərə aiddir. Ailə münasibətləri də bunun əsasında dayanır.

## Güzəşt və bağışlama - ən üstün əxlaqdır

Ümumi olaraq deyə bilərik ki, İslamın ailə ilə bağlı tövsiyəsi güzəştcil olmaqdır. Dinimiz ailədə təğafül etməni, özünü görməməzliyə vurmağı tövsiyə edir. İslamın nəzərində güzəşt və bağışlama - əxlaqi keyfiyyətlərin tacıdır. Həzrət Əli (ə) buyurur: **"Güzəşt və bağışlama - əxlaqi keyfiyyətlərin tacıdır"**.

Yəni biz bütün əxlaqi keyfiyyətləri götürsək - təvazökarlıq, ixlas, dürüstlük, doğru danışma - bunların hamısının tacı bağışlama və güzəştdir. İnancımızın nəzərində insanın həm bu dünya, həm də axirət üçün ona hər mənada əl tutan, üzünü ağ edən əxlaqi davranış - güzəşt və bağışlamadır.

Həzrət Rəsulallah (s) buyurur: **"İstəyirsiniz sizə dünya və Aaxirətdə ən üstün əxlaqdan xəbər verim? Sənə zülm edənə keçəsən. Səninlə əlaqəni kəsən qohumunla əlaqəni bərpa edəsən. Sənə pislik edən şəxsə yaxşılıq edəsən. Səni məhrum edən kəsə hədiyyə edəsən"**.

Təbii ki, öncə qeyd etdiyimiz kimi, burada da söhbət ictimai zülmlərdən deyil, adi məişət mövzusunda olan məsələlərdən gedir. Peyğəmbərimiz (s) bizlərə dünya və axirət əxlaqını tanıtdırır. Bir nəfər ailədə, ya qohumluqda bizi incidibsə, gərək keçək, kin saxlamayaq, əlaqəni kəsməyək.

Təsəvvürümüzə gətirək ki, bir ailədir. Bu ailənin içərisində qarşıdurmanın baş verməsi üçün bunu hər iki tərəfin istəməsi lazımdır. Əgər Həzrət Rəsulallahın (s) buyurduğu prinsiplərdən biri həyata keçsə, ailədə vəziyyət xeyli fərqlənər. Əgər ailə üzvlərindən biri məhrum etsə, o birisi isə ona bu rəftarın qarşılığında hədiyyə etsə - vəziyyət kökündən dəyişər. Biri pislik etsə, o biri qarşılığını yaxşılıqla qaytarsa - ailədə nuraniyyət bərpa olunar.

Həzrət Əli (ə) bizlərə bu müstəvidə ən pis şəxsləri tanıtdırır. Həzrət Əmirəlmöminin (ə) buyurur: **"İnsanların ən pisi o kəslərdir ki, digərlərini səhvini bağışlamırlar və onların eyiblərini örtmürlər"**.

Hansı insan belə xüsusiyyətə malikdirsə, dinimiz onu ən pis insan kimi dəyərləndirir. Gərək ailədə ailə üzvləri bağışlamağı bacarsın. Kim bağışlaya bilmir, kim digərinin eybinin üzərindən keçə bilmir - o, inancımızın nəzərində ən pis kəsdir.

## Məsumlar (ə) güzəşt etməməyi ən pis eyib kimi dəyərləndirir

Məsumların (ə) məntiqində güzəştliliyin, bağışlama, əfv ruhiyyəsinin olmaması çox mənfi dəyərləndirilir. Həzrət Əli (ə) buyurur: **"Az güzəştli olmaq - ən pis eyib və intiqam almaqda tələsmək - ən böyük günahdır"**.

İnsan üçün ən pis eyib - onun az güzəştli olmasıdır. Əgər insan bir kəsi bağışlamağı bacarmırsa, demək ki, düzəldilməli çox böyük eybə malikdir. Fərdi işlərdə, fərdi həyatda bağışlamağı bacarmaq həm də yetkinlik əlaməti, mənəvi həddi-büluğ əmanətidir. Çünki bunun əksi - intiqam almağa can atmaqdır.

İnsan var ki, çox rahat şəkildə şəxsi məsələlərdə güzəşt edir, insan da var ki, dünya dağılsa da, kiçik bir xəta edən kəsi bağışlaya bilmir. İnsanlar var ki, əlli il, altmış il hansısa bir xırda məsələni ürəyində saxlayır, bağışlaya bilmir, özü ilə qəbrə aparır. Həmin adam bir də görürsən ki, ictimai məsələlərdə heç də böyük prinsipiallıq göstərmir və rahat şəkildə zülmə güzəştə gedir.

Dərinə gedəndə biz görəcəyik ki, bu cür mənfi xüsusiyyətlərin əksəriyyəti orta məktəbdə formalaşır. Orta məktəbdə insanların vərdişlərinə səhv mövzular qoyulur. Uşaqlar bir-birilərinə keçmirlər, amma ümumi problemlər qarşısında prinsipiallıq göstərmirlər. Sonra həmin məktəbli uşaqlar böyüdükdə də, ruhən həmin məktəbli halında qalırlar. Zahirləri böyüyür, amma həmin o uşaqlıqda vərdiş etdikləri kin-küdurət, əvəz çıxma ruhiyyəsi ilə yaşayırlar.

Amma İslam dini insanı daxili bütləri, eqoları kənara qoymağa və Allah bəndəsi olmağa çağırır. Allah bəndəsi -bağışlamağı çox rahat bacaran adamdır. Mömininin ən bariz xüsusiyyəti - şəxsi mövzularda bağışlamağı bacarmaqdır. Mömin sanki fürsət axtarar ki, ona pislik etmiş, ona qarşı xətası olmuş birini bağışlasın.

## Ailə üzvləri bir-birilərinin eyiblərini örtməlidir

Qeyd etdik ki, Həzrət Əli (ə) buyurur: **"İnsanların ən pisi o kəsdir ki, başqalarının büdrəmələrinə güzəşt etmir və onların eyiblərini örtmür"**. Ailədə gərək tərəflər bu məsələyə xüsusi önəm versinlər. Ailə üzvləri heç öz yaxınlarının yanında belə, öz həyat yoldaşlarının eyiblərini faş etməməlidirlər. Bir də görürsən ki, ailə üzvlərindən biri öz həyat yoldaşından valideynlərinə gileylənir, onun eyiblərini öz valideynlərinə danışır. Nəticə etibarilə, belə etməklə o, öz valideynlərinin yanında həyat yoldaşını hörmətdən salmış olur.

Ailə üzvləri gərək bir-birilərinin eyiblərini gizlətsin, büdrəyərkən ayağa qalxmağa yardımçı olsunlar. Qurani-Kərimin məntiqinə görə, ailə üzvləri bir-birilərı üçün libasdır. Libasın məntiqi, missiyası - örtməkdir. Ailə üzvləri beləcə bir-birilərinin eyiblərini örtməlidirlər.

## Birinin üzr istəməsini dərhal qəbul etməliyik

Həzrət Əli (ə) buyurur: **"Üzr istəməni qəbul et, yalandan olsa da belə"**. Çox diqqət olunmalı məsələdir. Çox vaxt bizim belə bir məsələmiz yoxdur ki, dərhal üzrü qəbul edək. Dinimiz isə tələb edir ki, biri bizdən üzr istəyərkən, onun səmimi qəlbdən və ya elə-belə üzr istəməsini araşdırmayaq.

Dinimiz deyir ki, səndən hansısa bir səhvinə, xətasına görə üzr istəyən şəxsin üzrünü dərhal qəbul etməlisən, onun nə qədər səmimi olub-olmadığını araşdırmamalısan.

Əgər insan üzr istəyənin səmimi olub-olmadığını araşdırmaq istəsə, mütləq sonadək şəkk-şübhə içərisində olacaq. Hətta inancımız deyir ki, insan gərək üzr istəməni gözləmədən bağışlasın. Allah bəndəsi böyüklük etməyi bacarmalıdır. Bağışlamaq - bəzilərinin düşündüyü kimi, insana kiçiklik deyil, yalnız böyüklük gətirər.

## Güzəştin gətirdiyi bərəkətlər

Güzəştlilik ailəyə böyük bərəkət gətirər. Güzəştlilik özü ilə 4 bərəkət gətirər. Birincisi, bağışlama və güzəşt insanlara ruhi aramlıq bəxş edər. Bir ailədə ki, tərəflər bir-biriləri ilə bağışlama əhval-ruhiyyəsində olarlar, bir-birinə keçməyi bacarırlar - o ailədə ruhi aramlıq olar. Bunun əksi - intiqam almaq ruhiyyəsidir. Belə yerdə tərəflər əvəz çıxa bilmək üçün fürsət gəzərlər. Bu da nəticə etibarilə ailənin nuraniyyətini aradan aparar.

**İkinci mühüm məsələ** - kin və küdurətin aradan getməsidir. Əgər bir ailədə bağışlama, keçmə ruhiyyəsi üstünlük təşkil edərsə, o ailədə kin və küdurət qalmaz. Həzrət Peyğəmbər (s) buyurur: "Bir-birinizə güzəşt edin ki, kin-küdurət aradan getsin". Güzəştlilik, bağışlama intiqam alma, əvəz çıxma ruhiyyəsini aradan aparır, nəticədə kin-küdurətlər də aradan getmiş olur.

**Bağışlama və güzəştin üçüncü mühüm bərəkəti** - izzəti artırmasıdır. Bağışlama və güzəştlilik ailədə izzətin artmasına gətirib çıxarar. O ailələrdə ki, güzəştlilik hökm sürür - o ailədə, o ailənin üzvlərində izzətlilik olar. O ailələr ki, orada bağışlama yoxdur, bir-birini əzməyə, kiçiltməyə, əvəz çıxmağa çalışırlar - o ailədə izzət olmaz.

Həzrət Peyğəmbər (s) buyurur: **"Güzəşt bəndənin izzətini artırır. Buna görə güzəşt edin, Allah sizə izzət əta etsin"**. İnsanın daxilində belə bir cahili nigarançılıq ola bilər ki, birini bağışlasa, güzəşt etsə - abrından gedər, o, izzətdən düşər. İnancımız bununla bağlı bizə tam zəmanət verir. Əziz Peyğəmbərimiz (s) bəyan edir ki, bağışlamaq, güzəşt etmək nəinki insanı izzətdən salmaz, əksinə - onun daha da izzətli olmasına səbəb olar. Həzrət İmam Sadiq (ə) aziz Peyğəmbərimizdən (s) nəql edir: **"Sizin üzərinizdə güzəşt etmək və bağışlamaq olsun. Çünki, güzəştlilik və əfv insanda izzətdən başqa heç nə artırmır. Belə isə güzəşt ediniz ki, Allah sizi izzətli etsin"**.

## Ailədə bağışlama ruhiyyəsi ailə üzvlərini izzətə çatdırar

**Güzəştin dördüncü bərəkəti** isə budur ki, ömrü uzadar. Bağışlama və güzəştlilik ömrün uzanmasına təsir qoyan məsələlərdəndir. Əziz Peyğəmbərimiz (s) buyurur: **"Kim çox güzəşt edər - ömrü uzanar"**.

## Bağışla ki, Allah da səni bağışlasın

Ən mühüm məsələ isə sözsüz budur ki, güzəştlilik, əfv həm də Allahın insanı bağışlamasına gətirib çıxarar. Bir insan ki, ən xırda məsələlərdə, məişət mövzularında, ailədə olan kiçik söz-söhbətlərdə güzəştli davranmır, bağışlamağı bacarmır - Allahdan özünün bağışlanmasını necə istəyə bilər? Allahın bağışlamasını qazanmağın yollarından biri də digərlərini bağışlamaqdır. Biz bağışlayaq ki, Allah da bizi bağışlasın.

Əgər bağışlamağın təsiri olmasını istəyiriksə, gərək bu proses danlaqla, minnət qoymaqla olmasın. Həzrət İmam Rza (ə) buyurur: **"Ən gözəl bağışlama - danlamaqla olmayanıdır"**. Ailə üzvləri bir-birilərinə keçərkən, güzəşt edərkən gərək bu məsələni nəzərə alsınlar.

Digər hədisdə göz yummaq şəxsiyyətli insanın xüsusiyyəti kimi təqdim edilmişdir. İmam Sadiq (ə) buyurur: **"Üç şey şəxsiyyətli insanın nişanələrindəndir: gözəl əxlaq, qəzəbi yatızdırmaq, göz yummaq"**.

## Dinin yarısını qorumaq

Təbərrük üçün Qurani-Kərimin ailə qurmaqla bağlı bəzi ayələrinə və mübarək hədislərə diqqət edək.

**"(Ey gənclərin ixtiyar sahibləri,) subay kişilərinizi və ərsiz qadınlarınızı, eləcə də qul və kənizlərinizdən evlənmək istedadı olanları evləndirin. Əgər yoxsul olsalar, Allah onları Öz lütfü ilə dövlətli edər. Allah sonsuz genişlik sahibi və biləndir"**. ("Nur" surəsi, 32).

Həzrət Peyğəmbər (s) buyurur: **"Hər kim evlənər, həqiqətən də dininin yarısını qorumuş olar"**.

**"Onların yanında aramlıq tapasınız deyə sizin üçün (mələklərdən, cinlərdən və başqa məxluqlardan deyil) öz cinsinizdən zövcələr yaratmağı və sizin aranızda (ər-arvadın, yaxud insanların arasında) dostluq əlaqəsi, batini mehr-məhəbbət yaratması - onun nişanələrindəndir, həqiqətən, bunda düşünən bir qövm üçün (Allahın tövhidi, qüdrəti və hikmətinə dair) nişanələr vardır"**. ("Rum" 21).

Həzrət Peyğəmbər (s) buyurur: **"İslam dinində heç bir bina Allah yanında evlilik binası kimi ən sevimli şəkildə inşa edilməmişdir"**.

**Allahım, bütün ailələrdə nuraniyyətin bərqərar olmasını nəsib et!**

**Allahım, bizlərə ailədə güzəştli davranmağı nəsib et!**

**Allahım, bizlərə bağışlamaq tofiqatını nəsib et və bizləri bağışla! Amin!**

# YENİ MÜSAVAT

## Son səhifə

N 49 (6938) 2 mart 2018




## Yaşınız 24-dürsə, beyniniz super işləyir

**Kanadalı alimlərin araşdırmaları nəticəsində məlum olub ki, insan beyin 24 yaşda daha yaxşı işləyir. Məhz bu yaşda beyin məntiqi baxımdan çox surətlə işləyir və daha asan qərar verə bilir.**

Simon Fraser Universitetinin professorları 24 yaşdan sonra beyinin daha az çalışdığını, lakin qısa müddət ərzində səhvlərini düzəltdiyini deyiblər. Müəyyən yaşdan sonra beyin daha dəqiq qərarlar çıxarmaq üçün asan və qısa yollara əl atır. Mütəxəssislər beyinin fəaliyyətinin nə vaxt azaldığını öyrənmək üçün 3 min 505 nəfərə kompüter oyunu oynadıblar. Nəticədə məlum olub ki, beyinin düşünmə və qərar çıxarma surəti 24 yaşdan sonra azalır. Lakin nisbətən yavaş işləyən beyinlər də vəziyyətdən çıxmaq üçün xüsusi sxemlə çalışır.

## Təzyiq insanı yaddaşsızlaşdırır

**Amerikada aparılan araşdırmalar nəticəsində məlum olub ki, 40 yaşında, yüksək qan təzyiqindən əziyyət çəkən insanlar müalicə edilmədikləri halda 20 il sonra yaddaşlarını itirməyə başlayırlar. Mütəxəssislər 20 il ərzində 48-67 yaşlı 14 min adam üzərində araşdırma aparıblar. 40 yaşlarında yüksək təzyiqdən əziyyət çəkən insanlar 60 yaşlarından sonra yaddaşlarını itirməyə başlayır. Lakin hipertoniya vaxtında müalicə edilərsə, orqanizm üçün problem yaratmır.**

# Kofe görmə qabiliyyətini artırır

**Kofe görmə qabiliyyətini qorumağa kömək edir. Bu içkinin tərkibindəki kimyəvi birləşmələr qlaukoma xəstəliyi olanlarda tor qişanı qoruyur. Nyu-Yorkun Kornella Universitetinin elm adamları iddia edirlər ki, kofe öz antioksidant tərkibinə görə qlaukoma ilə effektiv mübarizə aparır. Bu içkidə xlorgenik turşu və kofe turşusunun mürəkkəb efiri 7-9 faizdir. Kofenin tərkibində kofein cəmi 1 faizdir. Xlorgenik turşu görmə zəifləyəndə və tor qişanın deqenerasiyasına qarşı faydalıdır. Bundan başqa, antioksidantlar qocalma prosesini ləngidir və diabetlə mübarizədə faydalıdır.**



Təcrübə həmişəki kimi, siçanlar üzərində aparılıb. Alimlərin fikrincə, qlaukomadan əziyyət çəkənlər üçün gündə bir fincan kofe kifayətdir ki, effektivliyi hiss etsinlər. Bundan öncə kofenin Parkinson xəstəliyindən qoruduğu ortaya çıxıb.

# Bilet almaq istəmədi... pələnglər onu parçaladı

**Çində giriş pulu verməmək üçün zooparkın divarına dırmaşaraq, içəri qaçaq yollarla girmək istəyən adam ailəsinin gözləri qabağında Sibir pələngləri tərəfindən parçalanaraq öldürülüb. Türkiyə mətbuatının yazdığına görə, biletin məbləği isə ümumilikdə 30 manat olub. Zhanq adlı adam Li adlı dostu ilə birlikdə 3 metr hündürlüyündəki divara dırmaşaraq zooparka daxil olmaq istəyib. Həyat yoldaşı və uşaqlarına bilet alan, amma özü qaçaq yollarla içəri girmək istəyən şəxs Sibir pələnglərinin olduğu qəfəsin içinə düşüb. Pələnglərin hücumuna məruz qalan adam ailəsinin gözləri qabağında həyatını itirib. Zhanqın meyitini pələnglərin əlindən almaq isə təxminən 1 saat davam edib. Hadisə zamanı Sibir pələnglərindən biri də vurularaq öldürülüb.**

Hadisənin cib telefonu görüntüləri Çinin sosial şəbəkəsində qısa zaman ərzində populyarlaşıb. Amma daha sonra hədsiz qəddarlığı ehtiva etdiyi üçün internetdən yığışdırılıb.





## Anasının cəsədi ilə 30 il yaşadı

**Ukraynada 77 yaşındakı bir qadının anasının cəsədi ilə ən azı 30 il birgə yaşadığı üzə çıxıb. Mikolaiv şəhərində hüquq-mühafizə orqanları qadını anasının mumiyalanmış cəsədi ilə tapıblar. Polis cəsədin zibillərlə dolu evdə ən azı 30 ildir qaldığı qənaətindədir. Hadisə yerindən çəkilən şəkillərdə bir divanda uzanıqlı vəziyyətdə qalan cəsədin başının üstündə dini şəkillər də yer alır. Üstündə ağ bir geyim olan mumiyanın ayaqlarında isə mavi ayaqqabı ilə yaşıl corablar diqqət çəkir.**

Polisin ifadəsinə görə, vəzifəlilər evə girdikləri zaman yaşlı qadının iflic olduğu, yerdə yatdığı və yardıma ehtiyacı olduğu məlum olub. Eyni zamanda üzə çıxıb ki, evdə elektrik, təbii qaz və su yoxdur. Qadının təkbaşına yaşadığı, qonşularla əlaqə qurmadığı və qapısını da heç kimə açmadığı bildirilir.




**QOÇ** - Evdə oturmağa lüzum yoxdur. Çünki ailə üzvlərinizlə, eləcə də qonum-qonşularla mübahisə gözlənilir. Əsas diqqəti fəaliyyətə yönəldin ki, gözlənilən xoşagəlməzliklər baş verməsin.

**BUĞA** - Maraqlı hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, çoxdan bəri əlaqə saxlaya bilmədiyiniz adamlarla rastlaşasınız. Günün ikinci yarısında işlə bağlı riskə getmək olar.

**ƏKİZLƏR** - Həddindən ziyadə düşərli təqvimdir. Təxminən saat 12-dən 17-yə qədər rastlaşdığınız hər bir hadisə ürəyinizcə olacaq. Təzə xəbər və ya təkliflər də ala bilərsiniz. Qətiyyətli olun.

**XƏRÇƏNG** - Bu gün sizə çoxsaylı fikir mübadiləsi aparmaq səmərə verəcək. Gələcək karyeranız məhz bundan asılıdır. Riskli işlərdənsə uzaq olun. Ailə-sevgi münasibətlərində inad etməyin.

**ŞİR** - Özünüzü gərginliyə atmayın. Səmərəsiz danışıqlarda, sıxıntılı görüşlərdə iştirak etməkdən çəkinin. Əgər maraqlı heç nə olmasa, yaxın adamlarınıza baş çəkib süfrə başında "dərdləşin".

**QIZ** - Ulduzlar müdafiənizdə durub. Bu səbəbdən də Tanrıya xoş gedən bütün işləriniz müsbət sonluqla başa çatacaq. Səmərəli təkliflər, xoş xəbərlər ovqatınızı xeyli yüksəldəcək.

**TƏRƏZİ** - Gün ərzində bir neçə aktiv məqam yaşayacaqsınız. Hətta şəxsi büdcənizdə irəliləyişlər də mümkündür. Axşama yaxınsa sevindirici hadisələrin, xoş ovqatın şahidi olacaqsınız.

**ƏQRƏB** - "Hirsli başda ağıl olmaz"lığını yəqin ki, bilirsiniz. Xüsusən də günün birinci yarısını sakit tərzdə başa vurmağa çalışmalısınız. Axşamsa ürəkaçan hadisələrin iştirakçısına çevriləcəksiniz.

**OXATAN** - Sevgidə mövcud olan soyuqluğu aradan qaldırın. İmkan verməyin ki, davranışlarınız dedi-qodu səviyyəsində formalaşsın. Təcrübəli adamlarla işbirliyi qurmaqdan çəkinməyin.

**OĞLAQ** - Martın bu ilk yarpağı sizin üçün xüsusi əhəmiyyət kəsb edəcək. Ulduzların düzümü uzaq səfərə çıxmaq planlarınızı reallaşdırmağı tövsiyə edir. Qərarlarınızda məsuliyyətli olun.

**SUTÖKƏN** - Ulduzlar əsəblərinizin sakitləşməsindən fərəh duyur. Əgər təmkininizi beləcə tənzimləsəniz, heç bir qanqaraçılıq olmayacaq. Gün ərzində maraqlı görüş və maddi irəliləyiş də gözlənilir.

**BALIQLAR** - Kifayət qədər düşərli ərəfədir. Nəzərdə tutduğunuz planların əksəriyyətini reallaşdıra biləcəksiniz. Amma kiməsə yalan vəd verməyin. Qonaq getmək sizə rahatlıq gətirə bilər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Yataqları test etməklə ildə 75 min sterlinq qazanır

**İngilis Leva Baradouska adlı qadının işi insanları qısqandırır. 32 yaşlı qadın sadəcə, yataqların komfortunu test edərək, ildə 75 min sterlinq pul qazanır. Onun peşəsinin adı isə "konfort mütəxəssisliyi"dir. İşinin tərkibi isə çalışdığı firmanın istehsal etdiyi yataqların keyfiyyətini yoxlamaqdan ibarətdir. Leva Baradouska, bu yataqlarda yatır və firmaya yataqların rahat olub-olmaması ilə bağlı məlumatlar verir. Firma Baradouskanın verdiyi məlumatlar əsasında məhsullarda dəyişiklik edir və ya etmir.**




Leva Baradouska uşaq yataqlarını da test edir və "Yuxunun iş yerində aktiv olaraq təşviq edildiyi peşə mənim peşəmdir" deyir. Baradouska peşəsindən asılı olaraq yeni məhsullardan istifadə etmək üçün Sinqapur, ABŞ və Yaponiya kimi bir çox ölkəyə də səyahət edir.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100